

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 oktyabr 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU ilə Malayziyanın Menecment və Elm Universiteti arasında anlaşma memorandumu imzalanıb**

➔Səh.2

**BDU ilə Misirin Ayn Şəms Universiteti arasında əməkdaşlığın perspektivləri müzakirə edilib**

➔Səh.2

**“İqlim fəaliyyəti üçün tədqiqat və əməkdaşlığın sürətləndirilməsi” mövzusunda elmi konfrans keçirilib**

➔Səh.4

**BDU Türkiyənin Ankara Yıldırım Beyazıt Universiteti ilə “Erasmus” mübadilə protokolu imzalayıb**

➔Səh.5

**BDU Ali Təhsildə Davamlılığın İnkişafı Assosiasiyasının tamhüquqlu üzvü seçilib**

➔Səh.6

**“ABŞ və Azərbaycanda jurnalistika təhsili” mövzusunda elmi seminar**

➔Səh.18

**"Liderlik məktəbi" layihəsi çərçivəsində ilk görüş**

➔Səh.20



**Dünya Akademik Sammiti çərçivəsində BDU-ya həsr olunmuş sessiya təşkil olunub**

➔Səh.2



**Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində BDU-nun təşkilatçılığı ilə beynəlxalq elmi konfrans keçirilib**

➔Səh.3



**BDU-da Azərbaycan Milli Kitabxanasının xüsusi auditoriyasının açılışı**

➔Səh.4



**BDU Azərbaycan Milli Kitabxanası ilə anlaşma memorandumu imzalayıb**

➔Səh.4




**BDU rektoru Bolqarıstanda Beynəlxalq Riyaziyyat Olimpiadasında qalib gələn tələbələrlə görüşüb**

➔Səh.6



## BDU ilə ATU arasında anlaşma memorandumu imzalanıb

***Oktyabrın 25-də BDU və Azərbaycan Tibb Universiteti (ATU) arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU-nun rektoru Elçin Babayev və ATU-nun rektoru Gəray Gəraybəyli imzalayıb.

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, hər iki universitet yüksək səviyyədə əməkdaşlıq etmək, birgə tədqiqatlar aparmaq üçün kifayət qədər elmi, kadr potensialına, infrastruktura sahibdir: “Hər iki universitetin əsas qayəsi ölkəmizin inkişafına töhfə verməkdir. 1919-cu ildə BDU fəaliyyətə başlayanda onun ilk fakültələri məhz Tarix-filologiya və Tibb fakültələri olub. Məhz həmin Tibb fakültəsinin bazasında yaranan Azərbaycan Tibb Universiteti hazırda yüksək sürətlə inkişaf edir, yeniliklərə imza atır. Bu əməkdaşlıq çərçivəsində tətbiq xarakterli müxtəlif elmi tədqiqatlar həyata keçiriləcək. Bununla yanaşı, yeni nəsil elmi cihazlardan birgə istifadə, professor-müəllim heyətinin hər iki universitetdə tədris prosesinə cəlb olunması da nəzərdə tutulur”.

ATU-nun rektoru Gəray Gəraybəyli əməkdaşlıq memorandumunun imzalanmasının hər iki universitetin, tədqiq edilən elm sahələrinin inkişafına və əhalinin rifahına xidmət edəcəyini bildirib. O qeyd edib ki, tibb elmi dünyada ən sürətlə inkişaf edən sahələrdəndir. Xüsusilə nanotexnologiya, biotexnologiya, genetik tədqiqatlar, tibbi biologiya, əczaçılıq, dərman preparatlarının hazırlanması, gigiyena, qida təhlükəsizliyi kimi sahələr bu memorandumun əsas tədqiqat predmeti olacaq.

Qeyd edək ki, memorandum hər iki universitetin elmi-tədqiqat imkanlarını genişləndirmək, regional və qlobal səviyyədə təsir gücünü artırmaq, multidissiplinar tədqiqatlar və innovasiyalar vasitəsilə yeni elmi nəticələr əldə etmək, tədris proqramlarını yeniləmək, tibb və biomühəndislik sahələrində birgə elmi nailiyyətləri praktiki sahəyə tətbiq etmək, texnologiyaların transferi ilə yeni məhsul və xidmətlər yaratmaq, tələbə və müəllim mübadiləsi proqramları, təlim və təcrübəkeçmə vasitəsilə insan kapitalının inkişafına töhfə vermək, biologiya və tibb sahələrində yeni araşdırmalar aparmaq, əhalinin sağlamlığını qorumaq üçün sosial layihələr həyata keçirmək və səhiyyə sahəsində müasir yanaşmaları təşviq etmək məqsədi daşıyır.

BDU və ATU tibbi-bioloji elmlər, biotexnologiya, biotibbi materiallar, nanotexnologiyalar və digər sahələrdə birgə tədqiqatlar və layihələr həyata keçirəcək, tələbələr və akademik heyət üçün mübadilə proqramları təşkil edəcək, təhsilalanların təcrübə mübadiləsi və staj keçməsi üçün şərait yaradacaqlar. Memorandumda iki ali məktəbin tədris proqramlarının yenilənməsi və təkmilləşdirilməsi, yeni ixtisas və fənlərin inkişafı, tibb və təbiət elmləri üzrə müasir təhsil metodlarının tətbiqi, tibbi-bioloji elmlər sahəsində beynəlxalq və regional səviyyəli birgə elmi tədbirlərin təşkil olunması da nəzərdə tutulur. Tibb və biomühəndislik sahələrində innovativ həllərin elmi-tədqiqat və sənaye sahələrinə transferi üzrə birgə işlərin aparılması, müasir laboratoriyalar və tədqiqat mərkəzlərinin yaradılması, hər iki universitetin elmi potensialının birləşdirilməsi də memorandumun məqsədləri sırasındadır.

## Hidrometeorologiya kafedrasının 50 illik yubileyi qeyd olunub

➔Səh.10

# BDU ilə ATU arasında anlaşma memorandumu imzalanıb

*(Əvvəli 1-ci səhifədə)*

BDU və ATU ictimai səhiyyə, tibbi profilaktika, əhalinin sağlamlıq problemləri ilə bağlı maarifləndirici tədbirlər keçirəcək, biotibbi materiallar, gen mühəndisliyi və biomexanika üzrə innovativ tədqiqatları təşviq edəcəklər. ATU-nun tibbi infrastrukturu və klinik bazalarından istifadə etməklə BDU-da aparılan bioloji və tibbi tədqiqatların klinik səviyyədə sınaqdan keçirilməsi, yeni dərman vasitələrinin hazırlanması, test edilməsi və onların kommersiyalaşdırılması üçün birgə tədqiqatların aparılması, farmakologiya və biotexnologiya sahələrində yeniliklərin tətbiq olunması da nəzərdə tutulur.



Tərəflər həmçinin insan sağlamlığına təsir edən ekoloji amillərin tədqiqi, qida təhlükəsizliyi, təbii resursların idarə olunması, ekoloji tibb, bioetika üzrə birgə layihələr həyata keçirəcəklər.

# BDU-nun 10 tələbəsi "Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı 2024"ün qalibi olub

***Oktyabrın 14-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə "Gənc qızların təhsilinə dəstək" layihəsi çərçivəsində növbəti tədbir keçirilib.*** Tədbir zaman "Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı 2024"ün təqdimat mərasimi də baş tutub.

Tədbirdə BDU-nun "Hənifə Məlikova- Zərdabi təqaüd proqramı" üzrə aylıq təqaüd qazanan, həmçinin ali məktəbə qəbul imtahanlarında yüksək bal toplayan 10 tələbəsi - Firuzə İbrahim, Güllü Abbasova, Səbinə Emçiyeva, Fatimə Qubadova, Günay İsayeva, Nuray Şirinli, Roza Əliyeva, Günel Həsənli, Aydan Əhmədova və Roza Həsənova elm və təhsil naziri Emin Əmrullayev və BDU-nun rektoru Elçin Babayev tərəfindən təltif edilib.

Qeyd edək ki, 2021-ci ildən həyata keçirilən təqaüd proqramının məqsədi cəmiyyətin diqqətini qızların təhsilinə cəlb etmək, dövlətimizin inkişafında gənclərin, xüsusilə qızların rolunun artırılmasını təşviq etmək və onların müasir təhsil imkanlarından faydalanmasına dəstək olmaqdır. Artıq 58 rayon üzrə 265 nəfər "Hənifə Məlikova-Zərdabi təqaüd proqramı"nı qazanıb.

# Dünya Akademik Sammiti çərçivəsində BDU-ya həsr olunmuş sessiya təşkil olunub



***İngiltərənin Mançester şəhərində yerləşən Mançester Universitetində BDU-nun və nüfuzlu "Times Higher Education" (THE) beynəlxalq reytinq agentliyinin təşkilatçılığı ilə "Azərbaycanda tədqiqat əməkdaşlığı və beynəlmiləlləşmənin təkmilləşdirilməsi:*** Bakı Dövlət Universitetinin strategiyası və şəbəkələşmə tədbiri" ("Advancing research collaboration and internationalization in Azerbaijan: Baku State University's strategy and networking event") başlıqlı sessiya təşkil olunub. Adıçəkilən sessiya THE-nin Dünya Akademik Sammiti (World Academic Summit) çərçivəsində təşkil olunub. Sessiyada 10-dan çox ölkənin ali təhsil müəssisələrinin nümayəndələri iştirak edib.

Tədbirdə BDU-nun rektoru Elçin Babayev son illərdə Universitetin rəqabət qabiliyyətinin artırılması, eləcə də elmi tədqiqat əməkdaşlığı və beynəlmiləlləşmə istiqamətində görülmüş işlərə dair geniş təqdimatla çıxış edib. Sessiya çərçivəsində Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin (EATDA) direktoru Ülkər Səttarova ölkədə müvafiq istiqamətlər üzrə görülmüş işlərə dair iştirakçılara məlumat verib.

Sessiyanın ikinci hissəsində THE-nin baş məlumat direktoru Duncan Rossun sədrliyi ilə tədqiqat əməkdaşlığının və beynəlmiləlləşmənin inkişaf perspektivlərinə, ali təhsil və tədqiqatda innovasiyaların təşviqi yollarına dair panel müzakirəsi təşkil olunub. Panel müzakirəsində Ülkər Səttarova, Elçin Babayev, Küveytin Qulf Elm və Texnologiya Universitetinin (Gulf University of Science and Technology) prezidenti Bassam Alameddin iştirak ediblər.

Sessiyanın sonunda BDU-nun rektoru Elçin Babayev THE-yə müsahibə verib.

# BDU ilə Malayziyanın Menecment və Elm Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Oktyabrın 2-də BDU və Malayziyanın Menecment və Elm Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Menecment və Elm Universitetinin prezidenti Mohd Shukri Ab Yajid imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Qeyd edək ki, əsası 2001-ci ildə əsası qoyulmuş Menecment və Elm Universiteti Malayziyanın nüfuzlu universitetlərindən biridir. Menecment və Elm Universiteti QS dünya universitetləri reytinqində 580-ci pillədə qərarlaşır.

# BDU ilə Misirin Ayn Şəms Universiteti arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

***Oktyabrın 3-də Beynəlxalq əlaqələr şöbəsi, Şərqşünaslıq fakültəsi və Misirin Ayn Şəms Universitetinin Şərqşünaslıq fakültəsinin əməkdaşları arasında görüş keçirilib.***

Görüşdə BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, fakültənin dekanı Aydan Xəndan, tədris işləri üzrə dekan müavini Tərlan Məlikov, Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlı, kafedranın müəllimi Könül Eyvazova, Ayn Şəms Universitetinin İncəsənət fakültəsinin dekanı Hanan Kamel, Ərəb dili kafedrasının müdiri Manal Moharram, Şərqşünaslıq şöbəsinin müdiri Mohammed Hamid, Azərbaycan dili müəllimi Shza Mohammed və dekan müavini Mohammed İbrahim iştirak ediblər.

Görüş zamanı Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan fakültənin tarixi, fəaliyyəti və beynəlxalq əlaqələri haqqında ətraflı məlumat verib. Daha sonra Vüqar Qaradağlı, Tərlan Məlikov və Könül Eyvazova fakültədə ərəb dilinin tədrisi və metodikası haqqında iştirakçıları məlumatlandırıblar.

Görüşdə BDU ilə Ayn Şəms Universiteti arasında əməkdaşlıq əlaqələri, ortaq tədqiqatların aparılması, birgə elmi seminar, ustad və onlayn dərslərin təşkili, eləcə də ərəb dilinin tədrisində universitetlərarası təcrübə mübadiləsi məsələləri müzakirə olunub. Tədbir iştirakçıları şərqşünaslıq sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi və ikili diplom proqramlarının həyata keçirilməsində maraqlı olduqlarını bildiriblər.

# BDU ilə Şərqi Qazaxıstan Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Oktyabrın 16-da BDU və Qazaxıstan Respublikasının Sarsen Amanjalov adına Şərqi Qazaxıstan Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Sarsen Amanjalov adına Şərqi Qazaxıstan Universitetinin rektoru Tologen Mukhtar imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur.

Eyni zamanda elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

1952-ci ildə əsası qoyulmuş Sarsen Amanjalov adına Şərqi Qazaxıstan Universiteti Qazaxıstanın ən nüfuzlu universitetlərindən biridir. Universitet "QS Mərkəzi Asiya reytinqi"ndə 24-cü pillədə qərarlaşır.

# Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində BDU-nun təşkilatçılığı ilə beynəlxalq elmi konfrans keçirilib

***Oktyabrın 4-də BDU-nun təşkilatçılığı ilə Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində “İqlim fəaliyyəti üçün tədqiqat və əməkdaşlığın sürətləndirilməsi” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.***



*Konfransın açılışında salamlama nitqi ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, dünyanın müxtəlif ölkələrinin nüfuzlu alim, tədqiqatçı, siyasətçi və ekoloqlarının bir araya gəldiyi bu konfrans dövrümüzün ən aktual problemlərindən biri olan iqlim dəyişmələri ilə mübarizə istiqamətində səmərəli multidissiplinar platforma olacaq. Bir əsrdən çoxdur ki, Azərbaycanda elm və təhsilin flaqmanı olan BDU-da iqlim dəyişmələri və bu dəyişmələrdən doğan təhlükələrin gənc nəslə çatdırılması, bu problemin həlli yollarının işlənilib hazırlanması istiqamətində elmi əsaslara söykənən mühüm işlər görülüb.*

Konfransın əsas mövzuları iqlim dəyişmələrinin elmi və praktik aspektlərinə həsr olunub. Konfransda iqlim fəaliyyəti sahəsində böyük irəliləyişlər əldə etmək üçün empirik məlumatların, süni intellekt və qabaqcıl analitik vasitələrin əhəmiyyəti, iqlim dəyişikliyinin transsərhəd su ehtiyatlarının idarə olunmasına təsiri, bu istiqamətdə yeni yanaşmalar və beynəlxalq əməkdaşlıq mexanizmləri, eləcə də beynəlxalq səviyyədə ortaq təşəbbüslərin sinerjisi, müvafiq zəruri qlobal və regional əməkdaşlıq imkanları müzakirə edilib.

Konfransın açılışında salamlama nitqi ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, dünyanın müxtəlif ölkələrinin nüfuzlu alim, tədqiqatçı, siyasətçi və ekoloqlarının bir araya gəldiyi bu konfrans dövrümüzün ən aktual problemlərindən biri olan iqlim dəyişmələri ilə mübarizə istiqamətində səmərəli multidissiplinar platforma olacaq. Bir əsrdən çoxdur ki, Azərbaycanda elm və təhsilin flaqmanı olan BDU-da iqlim dəyişmələri və bu dəyişmələrdən doğan təhlükələrin gənc nəslə çatdırılması, bu problemin həlli yollarının işlənilib hazırlanması istiqamətində elmi əsaslara söykənən mühüm işlər görülüb. Belə tədqiqatlar bu gün də davam etdirilir: “Bu konfransda paylaşılacaq təcrübələr, biliklər, ideyalar və qurulacaq əməkdaşlıqların iqlim dəyişmələrinə qarşı qlobal mübarizəyə böyük töhfə verəcəyinə inanırıq. Noyabr ayında Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi edəcək. Bu tarixi hadisə ölkəmizin iqlim dəyişmələrinə qarşı mübarizə ilə bağlı qlobal səylərin mərkəzində yer alacağına imkan verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü il ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-un təşkil olunması üçün xüsusi Sərəncamı müxtəlif sahələr üzrə əlaqəli fəaliyyətlərin təşkil olunmasını özündə ehtiva edir və Azərbaycanın milli, beynəlxalq səviyyədə iqlim dəyişmələri və ekoloji problemlərin qlobal səviyyədə həllində dünya ölkələri ilə həmrəy olduğunu göstərir. Biz Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin zəngin irsini daima yaşatmalı, öyrənməliyik. Məhz Ulu Öndər Heydər Əliyev siyasəti ilə Azərbaycanın dinamik inkişafı və qlobal problemlərdə, o cümlədən də ətraf mühitin mühafizəsi və iqlim dəyişmələri məsələlərində fəal iştirakının təməli qoyulub. Təkcə onu qeyd etmək kifayətdir ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Abşeron yarımadasının bir vaxtlar səhralaşan əraziləri yaşıllaşdırılıb və yaşayış üçün gözəl məkana çevrilib”.

BDU rektoru bildirib ki, iqlim dəyişmələri artıq uzaq təhlükə kimi görünmür, ekosistemləri, iqtisadiyyatları və icmaları böhrana aparır: “Unutmamalıyıq ki, artan temperatur, ekstremal hava şəraitləri, dəniz səviyyəsinin qalxması və ya enməsi, dəyişən ekosistemlər bu və ya digər formada məhz bizim – insanların “əməllərinin” nəticələridir. Məhz buna görə konfransların və digər elmi tədbirlərin davamlı olaraq təşkil olunması çox vacibdir. Belə tədbirlər müxtəlif sahələri təmsil edən alimləri, ictimai-siyasi xadimləri bir araya gətirir, məsələlərin həlli yolları üzərində işləməyə imkan yaradır. COP29 ərəfəsində keçirilən Bakı İqlim Fəaliyyətləri Həftəsi, o cümlədən Bakı İqlimşünaslıq Konfransında aparılacaq müzakirələr COP29-dakı səylərə birbaşa təsir göstərəcək. İqlim dəyişmələri ilə mübarizədə qlobal siyasəti və fəaliyyətləri formalaşdırmağa kömək edəcək. Konfransın iqlim dəyişmələri üzrə birgə fəaliyyət planlarını müəyyən edəcəyinə, problemlərin həlli istiqamətində konkret nəticələr əldə etməyə imkan verəcək beynəlxalq şəbəkələr və əməkdaşlıqlar qurmaq üçün ən yaxşı platforma olacağına əminəm”.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov çıxışında qeyd edib ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizəyə qlobal töhfə verir. Ölkədə bərpa olunan enerji mənbələri, karbon emissiyasının azaldılması ilə bağlı həyata keçirilən işlər buna əyani misal ola bilər. Ziyafət Əsgərov qeyd edib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi etməsi ölkəmizin qlobal iqlim siyasətində aparıcı rola malik olduğunun göstəricisidir.

Elm və təhsil nazirinin müavini İdris İsayev çıxışında bildirib ki, iqlim dəyişikliklərinin qarşısının alınması baxımından təhsil ən mühüm alətlərdən biridir. Çünki təhsil insanları öyrətməyə, ətraf mühitə münasibəti dəyişdirməyə yardım edir: “2024/2025-ci tədris ilində ekoloji ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul planı artırılıb. Bu tədris ilində ekoloji yönümlü ixtisaslara qəbul olunanların sayı bakalavriat səviyyəsində 31, magistratura səviyyəsində isə 61 faiz artıb. İqlim dəyişikliyi ilə mübarizə üçün gənclərimizə yaşıl bacarıqlar aşılamalıyıq. Yaşıl bacarıqlar iqlim dəyişikləri ilə mübarizə üçün əlverişli bilik və səriştələr sistemidir. Bu sahədə ümumi və ali təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr düşür. Elmi yanaşma olmadan iqlim dəyişikliklərinin mənfi fəsadları ilə mübarizə aparmaq mümkün deyil. Ona görə də elmi müəssisələrin fəaliyyətində bu istiqamət xüsusi önəm daşımalıdır”.

Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti İsa Həbibbəyli, COP29 üçün BMT-nin iqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) katibinin müavini Ermira Fida, COP29-un Azərbaycan üzrə gənc iqlim çempionu Leyla Həsənova çıxışlarında iqlim dəyişikliklərinə qarşı mübarizədə milli strategiyaların qəbulunun vacibliyini qeyd ediblər. Bildirilib ki, dayanıqlı gələcəyi təmin etmək üçün daha çevik iqlim siyasəti həyata keçirilməlidir.

Konfrans öz işini “İstixana qazlarının (İQ) emissiyaları haqqında düşüncəmizdə inqilab: empirik məlumatların, süni intellektin və qabaqcıl analitikanın rolu”, “Elmi çağırışlarda qlobal və regional əməkdaşlığın rolu”, “İqlim dəyişikliyinin və paradiqma sürüşmələrinin transsərhəd su resurslarının idarə olunmasına təsiri” mövzularında elmi sessiyalar ilə davam etdirib.

Empirik məlumatların işlənilməsi və qabaqcıl analitik vasitələr iqlim dəyişikliklərinin daha dəqiq və tez proqnozlaşdırılması, həmçinin iqlim siyasətlərinin daha effektiv şəkildə həyata keçirilməsi üçün açar rola malikdir. Konfransda iqlim dəyişmələrinin proqnozlaşdırılması və onunla mübarizədə süni intellekt texnologiyalarının istifadəsi geniş müzakirə olunub. Süni intellektin iqlim modelləşdirməsindəki tətbiqləri, böyük məlumat dəstələrinin analitik işlənməsi və real vaxt rejimində əldə edilən məlumatlar əsasında optimal qərarların qəbul edilməsi yolları ətrafında fikir mübadiləsi aparılıb. Bu mövzu həm də qlobal miqyasda iqlim tədbirlərinin sürətləndirilməsi baxımından vacibdir.

İqlim dəyişikliyi xüsusilə su resurslarının idarə olunmasında ciddi təsir göstərir. İqlim dəyişiklikləri su ehtiyatlarının miqdarını və keyfiyyətini dəyişərək, bölgələrarası və ölkələrarası su paylanmasında problemlər yarada bilər. Konfransda transsərhəd su ehtiyatlarının idarə olunması mövzusunda yeni yanaşmalar və əməkdaşlıq mexanizmləri müzakirə olunub. Bu məsələnin həlli üçün regional əməkdaşlıq vacibdir və xüsusi diqqət qlobal səviyyədə su resurslarının qorunması, onların ədalətli paylanmasına yönəlib. Qonşu ölkələr arasında su ehtiyatlarının paylaşdırılmasının daha ədalətli və ekoloji baxımdan dayanıqlı idarə edilməsi üzrə praktiki təkliflər irəli sürülüb.

İqlim dəyişiklikləri ilə mübarizədə beynəlxalq əməkdaşlıq müzakirələrin mərkəzində olub. İqlim dəyişikliyi qlobal problem olduğu üçün ölkələrarası koordinasiyalı fəaliyyət tələb edir. Konfransda ortaq təşəbbüslərin necə daha effektiv sinerji yarada biləcəyi, bu istiqamətdə qlobal və regional əməkdaşlıq mexanizmlərinin yaradılması yolları müzakirə edilib. Xüsusilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində əldə olunan razılaşmaların icrası, ölkələrin milli iqlim planlarının (NDC) daha səmərəli reallaşdırılması yolları və qlobal səviyyədə ortaq iqlim məqsədlərinin irəlilədilməsi bu mövzunun əsas istiqamətlərindən olub.

Empirik məlumatların düzgün toplanması, analizi və istifadəsi iqlim dəyişiklikləri ilə mübarizədə mühüm rol oynayır. Konfransda bu məlumatların effektiv şəkildə necə toplanması və paylaşılması məsələləri müzakirə olunub. Eyni zamanda, iqlim fəaliyyətində innovativ texnologiyalar və həll yolları, o cümlədən karbon tutma və saxlama texnologiyaları, bərpa olunan enerji mənbələrinin tətbiqi, enerji effektivliyi və tullantıların azaldılması üzrə yeniliklər də konfransın mühüm müzakirə mövzularından biri olub.

İqlim dəyişikliyi yalnız ekoloji deyil, həm də sosial-iqtisadi sistemlərə güclü təsir edir. Konfransda bu təsirlərin regional və qlobal səviyyədə iqtisadi böyüməyə, yoxsulluğa, miqrasiya axınlarına, qida təhlükəsizliyinə və iş yerlərinə təsiri ətrafında müzakirələr aparılıb. İqlim dəyişiklikləri ilə mübarizə sahəsində dövlətlərin qəbul etməli olduğu iqtisadi və hüquqi tədbirlər, siyasətlərin necə formalaşdırılması və həyata keçirilməsi ilə bağlı konkret addımlar da müzakirə olunub.

# BDU-da Azərbaycan Milli Kitabxanasının xüsusi auditoriyasının açılışı olub

***Oktyabrın 25-də BDU-nun 105 illik yubileyi ilə bağlı həyata keçirdiyi layihələr çərçivəsində İnformasiya və sənəd menecmenti fakültəsində Azərbaycan Milli Kitabxanasının xüsusi auditoriyası açılıb.***

Açılış mərasimində BDU rektoru Elçin Babayev, mədəniyyət naziri Adil Kərimli, nazir müavini Fərid Cəfərov, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor Anar İsgəndərov, Milli Məclisin üzvləri Günay Əfəndiyeva və Səbinə Xasayeva, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, BDU-nun professor-müəllim heyəti iştirak edib.



Mərasimdə çıxış edən mədəniyyət naziri Adil Kərimli BDU-da Azərbaycan Milli Kitabxanasının xüsusi auditoriyasının açılmasının elm-təhsil, mədəniyyət ictimaiyyəti üçün önəmli hadisə olduğunu deyib. O bildirib ki, BDU Ümummilli Lider Heydər Əliyevin də dediyi kimi, Azərbaycan xalqının milli sərvətidir. Azərbaycan Milli Kitabxanası da ölkə mədəniyyətinin əsas mərkəzlərindən biridir: "BDU-da yüksəixtisaslı kadrların yetişdirilməsi işinə daim dəstək göstərməyə hazırıq. Mədəniyyət sahəsində elm və təhsilin inkişafı bizim əsas prioritetlərdən biridir. Bu auditoriyadan BDU-nun professor-müəllim heyəti, tələbə və tədqiqatçıları faydalanacaq. Bu baxımdan Milli Kitabxananın BDU-ya töhfəsi əvəzsiz olacaq. Son illərdə BDU-da magistratura səviyyəsində "Mədəniyyət hüququ" ixtisaslaşmasının açılması da çox önəmlidir. Kitabxana işi sahəsində həyata keçirilən islahatlarda bu əməkdaşlıq çox faydalı olacaq".

BDU-nun rektoru Elçin Babayev isə bildirib ki, hər bir universitet işəgötürənlərlə münasibətləri düzgün qurmağı bacarmalıdır: "BDU-da müasir dövrün çağırışlarına cavab verən yeni texnologiyaların tətbiqinə xüsusi önəm verilir, əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmalar açılır. Xüsusi auditoriyanın açılışı ilə yanaşı, BDU və Azərbaycan Milli Kitabxanası arasında bu gün imzalanan anlaşma memorandumu da əməkdaşlıq baxımından yeni imkanlar yaradır. Hər iki müəssisə arasında əməkdaşlığın hüdudları daha da genişlənir, tələbələrin elə Universitetin özündə təcrübəkeçmə imkanları yaranır".

# BDU Azərbaycan Milli Kitabxanası ilə anlaşma memorandumu imzalayıb

***Oktyabrın 25-də BDU və Azərbaycan Milli Kitabxanası (AMK) arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov imzalayıb.

Memoranduma əsasən, BDU və Milli Kitabxana arasında rəqəmsal informasiya resurslarının inteqrasiyası, elektron resurs mübadiləsinin təşkili, rəqəmsal kitabxana xidmətlərinin birləşdirilməsi və genişləndirilməsi, Kitabxananın elektron arxivlərinə Universitetin təhsilalan və tədqiqatçılarının xüsusi prioritetlə çıxışının təmin edilməsi nəzərdə tutulur. Tərəflər Azərbaycan elmi, tarixi, mədəni irsi ilə bağlı mövzularda ortaq tədbirlər – konfranslar, dəyirmi masalar, seminarlar və simpoziumlar təşkil edəcək, birgə nəşr proqramları hazırlayacaq, elmi jurnalların, kitabların, tədris və metodik materialların nəşrini həyata keçirəcəklər. Kitab fondlarının birgə istifadəsi, kitab mübadiləsi və yeni elmi ədəbiyyatın təmin edilməsi, xüsusilə nadir kitabların, arxiv materiallarının tədqiqi və mühafizəsi sahəsində əməkdaşlıq da memorandumda əks olunub. Memorandum çərçivəsində BDU və Milli Kitabxana arasında müasir kitabxana texnologiyaları, rəqəmsal xidmətlər və süni intellekt texnologiyaları sahəsində birgə layihələrin hazırlanması, innovativ tədqiqat laboratoriyaları və tədris məkanlarının yaradılması, gənclərin və təhsilalanların elmi-mədəni inkişafını dəstəkləyən layihələrin həyata keçirilməsi də nəzərdə tutulub.



# "İqlim fəaliyyəti üçün tədqiqat və əməkdaşlığın sürətləndirilməsi" mövzusunda elmi konfrans keçirilib

***BDU-nun təşkilatçılığı ilə Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində "İqlim fəaliyyəti üçün tədqiqat və əməkdaşlığın sürətləndirilməsi" mövzusunda elmi konfrans keçirilib.***

Konfransın əsas mövzuları iqlim dəyişikliklərinin elmi və praktik aspektlərinə həsr olunub. Konfransda iqlim fəaliyyəti sahəsində böyük irəliləyişlər əldə etmək üçün empirik məlumatların, süni intellekt və qabaqcıl analitik vasitələrin əhəmiyyəti, iqlim dəyişikliyinin transsərhəd su ehtiyatlarının idarə olunmasına təsiri, bu istiqamətdə yeni yanaşmalar və beynəlxalq əməkdaşlıq mexanizmləri, eləcə də beynəlxalq səviyyədə ortaq təşəbbüslərin sinerjisi, müvafiq zəruri qlobal və regional əməkdaşlıq imkanları müzakirə ediləcək.

Empirik məlumatların işlənilməsi və qabaqcıl analitik vasitələr iqlim dəyişikliklərinin daha dəqiq və tez proqnozlaşdırılması, həmçinin iqlim siyasətlərinin daha effektiv şəkildə həyata keçirilməsi üçün açar rola malikdir. Konfransda iqlim dəyişikliyinin proqnozlaşdırılması və onunla mübarizədə süni intellekt texnologiyalarının istifadəsi geniş müzakirə olunacaq. Süni intellektin iqlim modelləşdirməsindəki tətbiqləri, böyük məlumat dəstələrinin analitik işlənməsi və real vaxt rejimində əldə edilən məlumatlar əsasında optimal qərarların qəbul edilməsi yolları ətrafında fikir mübadiləsi aparılacaq. Bu mövzu həm də qlobal miqyasda iqlim tədbirlərinin sürətləndirilməsi baxımından vacibdir.

İqlim dəyişikliyi xüsusilə su resurslarının idarə olunmasında ciddi təsir göstərir. İqlim dəyişiklikləri su ehtiyatlarının miqdarını və keyfiyyətini dəyişərək, bölgələrarası və ölkələrarası su paylanmasında problemlər yarada bilər. Konfransda transsərhəd su ehtiyatlarının idarə olunması mövzusunda yeni yanaşmalar və əməkdaşlıq mexanizmləri müzakirə olunacaq. Bu məsələnin həlli üçün regional əməkdaşlıq vacibdir və xüsusi diqqət qlobal səviyyədə su resurslarının qorunması, onların ədalətli paylanmasına yönələcək. Qonşu ölkələr arasında su ehtiyatlarının paylaşdırılmasının daha ədalətli və ekoloji baxımdan dayanıqlı idarə edilməsi üzrə praktiki təkliflər irəli sürüləcək.

İqlim dəyişiklikləri ilə mübarizədə beynəlxalq əməkdaşlıq müzakirələrin mərkəzində olacaq. İqlim dəyişikliyi qlobal problem olduğu üçün ölkələrarası koordinasiyalı fəaliyyət tələb edir. Konfransda ortaq təşəbbüslərin necə daha effektiv sinerji yarada biləcəyi, bu istiqamətdə qlobal və regional əməkdaşlıq mexanizmlərinin yaradılması yolları müzakirə ediləcək. Xüsusilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində əldə olunan razılaşmaların icrası, ölkələrin milli iqlim planlarının (NDC) daha səmərəli reallaşdırılması yolları və qlobal səviyyədə ortaq iqlim məqsədlərinin irəlilədilməsi bu mövzunun əsas istiqamətlərindən olacaq.

Empirik məlumatların düzgün toplanması, analizi və istifadəsi iqlim dəyişiklikləri ilə mübarizədə mühüm rol oynayır. Konfransda bu məlumatların effektiv şəkildə necə toplanması və paylaşılması məsələləri müzakirə olunacaq. Eyni zamanda, iqlim fəaliyyətində innovativ texnologiyalar və həll yolları, o cümlədən karbon tutma və saxlama texnologiyaları, bərpa olunan enerji mənbələrinin tətbiqi, enerji effektivliyi və tullantıların azaldılması üzrə yeniliklər də konfransın mühüm müzakirə mövzularından biri olacaq.

İqlim dəyişikliyi yalnız ekoloji deyil, həm də sosial-iqtisadi sistemlərə güclü təsir edir. Konfransda bu təsirlərin regional və qlobal səviyyədə iqtisadi böyüməyə, yoxsulluğa, miqrasiya axınlarına, qida təhlükəsizliyinə və iş yerlərinə təsiri ətrafında müzakirələr aparılacaq. İqlim dəyişiklikləri ilə mübarizə sahəsində dövlətlərin qəbul etməli olduğu iqtisadi və hüquqi tədbirlər, siyasətlərin necə formalaşdırılması və həyata keçirilməsi ilə bağlı konkret addımlar müzakirə mövzusu olacaq.

Bu geniş proqram qlobal iqlim mübarizəsində təcrübə, tədqiqat və əməkdaşlıq üçün imkanlar açacaq və COP-29-a hazırlıq mərhələsində önəmli addım kimi diqqət çəkəcək.

# "Clarivate Analytics" şirkətinin nümayəndələri BDU-da

***Oktyabrın 26-da BDU-da qlobal səviyyədə tanınmış "Clarivate Analytics" şirkətinin nümayəndələri ilə görüş olub. Görüşdə BDU-nun rektoru Elçin Babayev, elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov, rektorun elm və təhsil üzrə müşaviri Aydın Kazımzadə, "Clarivate Analytics" şirkətinin nümayəndələri Valentin Boqorov və Anna Trifonova iştirak ediblər.***



Görüşdə BDU-nun elmi-araşdırma potensialının qlobal standartlar üzrə optimallaşdırılması, beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi və akademik təsir dairəsinin genişləndirilməsi məsələləri müzakirə olunub.

Rektor Elçin Babayev qeyd edib ki, "Clarivate Analytics"lə əməkdaşlıq Universitetin beynəlxalq arenada rəqabət qabiliyyətinin yüksəldilməsi, elmi sahədə yeniliklərin tətbiqi və tədqiqatçıların dəstəklənməsi üçün güclü baza yaradır.

"Clarivate Analytics'in beynəlxalq akademik sahələrdə elmi nəşrlərin təsir gücünün qiymətləndirilməsi üzrə qabaqcıl mövqeyi bu əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayır.

Görüşdə birgə konfrans və seminarların keçirilməsi, elmi nəticələrin dəyərləndirilməsi və BDU-nun tədqiqatçılarının "Clarivate Analytics"in elmi resurslarına çıxışının daha da genişləndirilməsi ilə bağlı da müzakirələr aparılıb.

"Clarivate Analytics"in nümayəndələri Valentin Boqorov və Anna Trifonova Universitetin elmi fəaliyyətinin dünya səviyyəsində tanınması üçün effektiv həll yollarını təqdim ediblər. "Clarivate Analytics" tərəfindən təklif olunan resurslar və ixtisaslaşmış analitik alətlər sayəsində BDU-nun elmi təsir dairəsinin, istinad indeksinin və tədqiqatçıların beynəlxalq jurnallara çıxış imkanlarının yeni səviyyəyə qalxacağı vurğulanıb.

# BDU Türkiyənin Balıkesir Universiteti ilə əməkdaşlığı genişləndirir

***Oktyabrın 18-də BDU və Türkiyə Respublikasının Balıkesir Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Balıkesir Universitetinin rektoru Yücel Oğurlu imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1992-ci ildə qoyulmuş Balıkesir Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir. Balıkesir Universiteti "QS Qərbi Asiya reytinqi"ndə 61-ci pillədə qərarlaşır.

# BDU Türkiyənin Ankara Yıldırım Beyazıt Universiteti ilə "Erasmus" mübadilə protokolu imzalayıb

***Oktyabrın 17-də BDU ilə Türkiyə Respublikasının Ankara Yıldırım Beyazıt Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Ankara Yıldırım Beyazıt Universitetinin əsası 2010-cu ildə qoyulub. 15 fakültə, 5 institut, 1 kollec, 4 peşə məktəbi, 27 tədqiqat mərkəzi və 1 konservatoriyanın fəaliyyət göstərdiyi universitetdə 25000-ə yaxın tələbə təhsil alır.

# BDU "THE World University Rankings 2025" nəticələrinə görə ölkədə liderdir

***Dünyanın ən nüfuzlu reytinq təşkilatı olan "Times Higher Education" (THE) 2025-ci il üçün dünyanın ən yaxşı universitetlərinin ("World University Rankings 2025") reytinq siyahısını açıqlayıb. Dərc olunan siyahıda BDU də yer alıb.***

Dünyada 2092, Azərbaycandan isə 2 ali təhsil müəssisəsinin yer ala bildiyi siyahıda 1501+ diapazonunda qərarlaşan BDU ölkədə liderdir.

Qeyd edək ki, BDU fiziki elmlər (fizika, kimya, geologiya, astronomiya, riyaziyyat və s.) və mühəndislik elmləri (kimya mühəndisliyi, geologiya mühəndisliyi, hidrogeologiya mühəndisliyi, geofizika mühəndisliyi və s.) üzrə THE-nin "İxtisasların Reytinqi" ("Subject Rankings 2024") siyahısında Azərbaycandan yer alan yeganə ali təhsil müəssisəsidir.

Nüfuzlu THE təşkilatının əsas fəaliyyət istiqamətlərindən biri dünyanın ali təhsil müəssisələrinin və ixtisaslarının reytinqini tərtib etmək, universitetlərin reytinqinin yüksəlməsi üçün tövsiyələr verməkdir. THE dünya universitetlərinin və ixtisaslarının reytinqini tədris, elmi-tədqiqat, istinad indeksi, beynəlxalq reputasiyası, sənaye gəlirləri və digər meyarlar əsasında qiymətləndirir.

Bu il ilk dəfə "World University Rankings 2025" siyahısına daxil olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetini təbrik edir və gələcəkdə qeyd olunan reytinq siyahısında ölkəmizi təmsil edən ali təhsil müəssisələrinin sayının artmasını arzulayırıq.

# BDU ilə İrkutsk Dövlət Universiteti arasında əlaqələr genişlənir

***Oktyabrın 17-də Rusiya Federasiyasının İrkutsk Dövlət Universitetinin Hüquq İnstitutunun professor-müəllim heyəti və tələbələri Hüquq fakültəsində olub. Görüşdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Hüquq fakültəsinin dekanı Zaur Əliyev bu səfərin iki ali təhsil ocağı arasında hüquq sahəsində əməkdaşlığın daha da genişləndirilməsi məqsədi daşıdığını qeyd ediblər.***

BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov BDU ilə Rusiya Federasiyası universitetləri arasındakı mövcud beynəlxalq əlaqələrdən bəhs edib, gələcək əməkdaşlıq perspektivlərini vurğulayıb.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev BDU-nun, eləcə də fakültənin tarixi, strukturu və tədris prosesi haqqında qonaqlara ətraflı məlumat verib.

İrkutsk Dövlət Universitetinin nümayəndə heyəti fakültənin fəaliyyəti ilə tanış olub, kafedra müdirləri ilə görüşdə fakültədə həyata keçirilən elmi-tədqiqat işləri və pedaqoji fəaliyyət haqqında məlumat alıb.

Qonaqlar fakültədə fəaliyyət göstərən tələbə və gənclər təşkilatlarının fəaliyyəti və həyata keçirdiyi layihələrlə də tanış olublar.

# BDU ilə Pakistanın Superior Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Oktyabrın 17-də BDU və Pakistan Respublikasının Superior Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Superior Universitetinin rektoru Sumaira Rehman imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Bununla yanaşı, elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramlar, tədris planları və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 2000-ci ildə qoyulmuş Superior Universiteti Pakistanın nüfuzlu universitetlərindən biridir. Superior Universiteti "QS Cənubi Asiya reytinqi"ndə 258-ci pillədə qərarlaşır.

# BDU-da Ulu Öndər Heydər Əliyevin 101-ci ildönümünə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu

***Oktyabrın 18-də Gənclər Fondunun maliyyə dəstəyi, BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.***

Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Ümummilli Liderin irsinin gənclər arasında daim təbliğinin və bu istiqamətdə tədbirlərin keçirilməsinin vacib olduğunu deyib. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti ölkəmizdə həmişə prioritet istiqamətlərdən olub. BDU-nun dünyaşöhrətli məzununun xatirəsi hər zaman yaşadılacaq və gənclər arasında öyrənilməyə davam edəcək.

Sonra layihə rəhbəri, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov keçirilən layihənin mahiyyətindən söz açıb və Gənclər Fondunun belə fəaliyyətlərə daimi dəstəyini qeyd edib. O qeyd edib ki, gənclərin milli ruhda və ideologiyaya sadiq şəkildə yetişdirilməsi əsas vəzifələrdəndir.

10 komandanın iştirak etdiyi intellektual oyunun nəticələrinə əsasən, "Vendetta" komandası I, "CoupDeGrace" komandası II, "Eldorado" və "The Allspark" komandaları III yerə layiq görülüb.

Qaliblər diplom və hədiyyələrlə təltif edilib.

# BDU rektoru Bolqarıstanda Beynəlxalq Riyaziyyat Olimpiadasında qalib gələn tələbələrlə görüşüb



***Oktyabrın 22-də BDU-nun rektoru Elçin Babayev Bolqarıstanda Beynəlxalq Riyaziyyat Olimpiadasında qalib gələn Mexanika-riyaziyyat fakültəsinin IV kurs tələbələri Vüqar Quliyev və Amil Cəbiyevlə görüşüb.***

BDU-da olimpiada hərəkatının gündən-günə genişləndiyini diqqətə çatdıran rektor tələbələri təbrik edib, onlara uğurlar arzulayıb. O qeyd edib ki, Mexanika-riyaziyyat fakültəsi Azərbaycanda riyaziyyat elminin əsas məbədidir. Tətbiqi elmlər üzrə tələbə və şagirdlərin olimpiadalarda iştirakına xüsusi diqqət ayrılması, məşğələ aparan müəllim və olimpiada rəhbərlərinin stimullaşdırılması BDU-nun əsas prioritetləri sırasındadır.

Qeyd edək ki, Bolqarıstanda keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasında Mexanika-riyaziyyat fakültəsinin IV kurs tələbələri Vüqar Quliyev I yeri qazanaraq qızıl, Amil Cəbiyev isə III yeri tutaraq bürünc medala sahib olub. Olimpiada avqustun 5-dən 11-dək Bolqarıstanda yerləşən Amerika Universiteti və London Universitet Kollecinin birgə təşkilatçılığı ilə Blaqoevqrad şəhərində keçirilib. Tələbələrimiz həm də BDU-nun təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101 illik yubileyinə həsr olunmuş tələbələr arasında Riyaziyyat üzrə Respublika Olimpiadasının qalibidirlər.

# Macarıstanın Mathias Corvinus Collegium Universitetinin nümayəndə heyəti BDU-da

***Oktyabrın 28-də BDU-da Macarıstanın Mathias Corvinus Collegium Universitetinin Beynəlxalq Münasibətlər Məktəbinin tədqiqatçısı Klementina Kozma, Beynəlxalq İqtisadiyyat Mərkəzinin koordinatoru Monika Kuznetsova və macar tələbələrlə görüş keçirilib.***

BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov ali təhsil müəssisələrinin fəaliyyətində beynəlxalq əlaqələrin, xüsusilə tələbə mübadiləsinin önəmli yer tutduğunu bildirib. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışlı Azərbaycan və Macarıstanın Türk dünyasında ortaq maraq və düşüncələrə sahib olduğunu vurğulayıb, bu baxımdan təhsil və elmi əməkdaşlıq əlaqələrinin əhəmiyyətindən danışıb. Maliyyə və menecment kafedrasının müdiri Kamran Eyyubov sahibkarlıq və menecment sahəsində innovativ yanaşmaların tətbiqi və əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb. Görüşdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin əməkdaşı Aydan Hüseynzadə də iştirak edib.

Qonaqlar həyata keçirdikləri elmi tədqiqat işləri haqqında məlumat verərək, BDU alimləri ilə ortaq araşdırmaların aparılması imkanlarını müzakirə ediblər. Görüşdə həmçinin tələbələrin sahibkarlıq və innovasiya sahəsində daha fəal iştirakı, yeni əməkdaşlıq layihələrinin qurulması barədə fikir mübadiləsi aparılıb.

# BDU-da qlobal iqlim dəyişikliyinə həsr olunmuş elmi seminar keçirilib

***Oktyabrın 28-də BDU-nun Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində qlobal iqlim dəyişikliyinə həsr olunmuş elmi seminar keçirilib.***

Seminarda Ekologiya və torpaqşünaslıq, Fizika, Kimya, Biologiya, Jurnalistika, Coğrafiya, Filologiya, Mexanika və riyaziyyat, Sosial elmlər və psixologiya, İnformasiya və sənəd menecmenti, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Tarix və Şərqşünaslıq fakültələrinin tələbələri iştirak ediblər.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi beynəlxalq aləmdə Azərbaycana olan dərin etimad və hörmətin sübutudur. Bu, ölkənin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş statusunu təsdiqləyir.

"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyinin sədr müavini Pərvanə Xıdırova COP29 çərçivəsində Azərbaycanın quraq rayonlarında su probleminin həlli üçün həyata keçirdikləri layihələr barədə videoçarxları auditoriyanın diqqətinə çatdırıb.

Ümumdünya Təbiəti Mühafizə Təşkilatının (WWF) Azərbaycan nümayəndəliyinin COP29 üzrə koordinasiya koordinatoru Elçin Sərdarov "Qlobal iqlim dəyişmələri" mövzusunda məruzəsində iqlim dəyişmələrinin səbəbləri, törətdiyi fəsadlar, dayanıqlı inkişaf məqsədləri, təmiz ətraf mühit və ekoloji jurnalistikanın rolundan bəhs edib.

"WWF Azərbaycan"ın iqlim dəyişmələri üzrə eksperti Elana Əlizadə "İqlim dəyişmələrinin ekoloji aspektləri və adaptasiya" mövzusunda çıxışında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tələbləri, mitiqasiya və adaptasiya haqqında məlumat verib.

BDU-nun Tələbə Elmi Cəmiyyətinin Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə sədri Günel Hacəliyeva isə gənclərin iqlim dəyişikliyinin qarşısının alınması və ətraf mühitin qorunmasında roluna dair iştirakçıları məlumatlandırıb.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU Türkiyənin Erzincan Binəli Yıldırım Universiteti ilə "Erasmus" mübadilə protokolu imzalayıb

***Oktyabrın 21-də BDU ilə Türkiyənin Erzincan Binəli Yıldırım Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Erzincan Binəli Yıldırım Universitetinin rektoru Akın Levent imzalayıb.

Protokolda hər iki universitetin tələbələri, akademik və inzibati heyətinin qarşılıqlı mübadiləsi öz əksini tapıb.

Erzincan Binəli Yıldırım Universitetinin əsası 1976-cı ildə qoyulub. 12 fakültə, 17 mərkəz, 11 peşə məktəbi, 3 kollec və 4 institutun fəaliyyət göstərdiyi universitetdə 25000-ə yaxın tələbə təhsil alır.

# BDU Ali Təhsildə Davamlılığın İnkişafı Assosiasiyasının tamhüquqlu üzvü seçilib

***BDU qlobal davamlı inkişaf məqsədlərinə töhfə vermək məqsədilə Ali Təhsildə Davamlılığın İnkişafı Assosiasiyasının (The Association for the Advancement of Sustainability in Higher Education - AASHE) tamhüquqlu üzvləri sırasına qoşulub.***

Qeyd edək ki, AASHE ali təhsil müəssisələrinin davamlı inkişaf prinsiplərinə sadiqliyini gücləndirmək və onların bu istiqamətdə fəaliyyətini dəstəkləmək üçün qlobal səviyyədə tanınmış bir platformadır.

Bu üzvlük Universitetin beynəlxalq arenada mövqeyini gücləndirərək, qlobal davamlılıq təşəbbüslərində fəal iştirak etməsinə imkan verəcək, ekoloji, sosial və iqtisadi sahələrdə daha dayanıqlı bir gələcək qurmaq üçün göstərdiyi səyləri dəstəkləyəcək, eləcə də BDU-ya davamlılıq sahəsində aparıcı beynəlxalq təcrübələrə çıxış imkanı yaradacaq.

# BDU Elmi Şurasının növbəti iclası



***Oktyabrın 29-da BDU-nun Elmi Şuranın növbəti iclası keçirilib. Rektor Elçin Babayev gündəlikdə olan məsələləri iclas iştirakçılarının diqqətinə çatdırıb. İclasda BDU-nun doktoranturasına qəbulun nəticələri müzakirə edilib.***

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, 2024-cü ildə BDU-nun doktoranturasına 123 ixtisas üzrə qəbul aparılıb. Əvvəlki illərə nisbətən bu il BDU-nun doktoranturasına sənəd verənlərin sayı artıb. Qəbul imtahanlarının nəticələrinə əsasən, BDU-nun doktoranturasına fəlsəfə doktoru proqramı üzrə 117, elmlər doktoru proqramı üzrə 17, ümumilikdə 134 nəfər qəbul olunub.

Cari ildə Türkiyə, Rumıniya, Özbəkistan, Rusiya Federasiyası, Çin, Keniya, İndoneziya, İraq, Misirdən 15 əcnəbi tələbə BDU-nun doktoranturasına qəbul olub. Onlardan 13-ü fəlsəfə doktoru, 2-si elmlər doktoru proqramı üzrə Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı, təhsil sahəsində Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun müəyyənləşdirilmiş kvota və müəssisənin fiziki şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında qəbul edilib.

Sonra cari məsələlərə baxılıb.

# 18 Oktyabr – Müstəqilliyin Bərpası Günüdür

***18 oktyabr doğma Azərbaycanımızın dövlət müstəqilliyini bərpa etməsindən 33 il keçir.***

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazandı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etdi.

Ölkəmiz bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır.




Uzun illər ərzində Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutduğu strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün gördüyü fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması – Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsi ilə tarixi Zəfərə imza atdı, düşmən tapdağı altında olan torpaqlarımızda üçrəngli bayrağımızı ucaltdı.

Azərbaycan dövlətinin qüdrəti, qəhrəman xalqımızın sarsılmaz birliyi, qazilərimizin qanı, şəhidlərimizin canı bahasına əldə edilən tarixi Qələbəmiz sonrakı zəfərlərə yol açdı. Dörd il bundan əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz 30 illik işğala son qoymuşdusa, ötən il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etdi. Bir il öncə sentyabrın 19-da isə cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Şanlı qələbəmizin möhtəşəm və məntiqi sonluğu oktyabrın 15-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Ağdərə, Xocalı, Əsgəran və ən əsası isə Xankəndidə üçrəngli bayrağımızı qaldırması oldu. Bununla da Müzəffər Ali Baş Komandan və onun əmrinə daim hazır olan Azərbaycanın qəhrəman oğulları tariximizin ən önəmli səhifələrinə yekun nidanı qoydular.

Bəli, artıq Azərbaycan xalqı dörd ildir ki, müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayır.

Azadlıq, müstəqil dövlət halında yaşamaq xalqımız üçün ən böyük xoşbəxtlikdir, misilsiz nemətdir. Dövləti olmayan xalq məhvə məhkumdur. Şəhidlərimizin qanları bahasına qazandığımız və möhkəmləndirdiyimiz müstəqilliyimiz əbədi olsun! Üçrəngli bayrağımız bugünkü kimi həmişə Vətənimizin hər qarışında dalğalansın!

Bayramınız mübarək!

# BDU-da Müstəqilliyin Bərpası Günü qeyd edilib

***Oktyabrın 18-də Tarix fakültəsində "BDU könüllüləri", Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşkilatçılığı ilə 18 oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbir keçirilib.***

BDU-nun Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Azərbaycan xalqının müstəqillik uğrunda şərəfli mübarizə tarixi barədə iştirakçılara ətraflı məlumat verib. Qeyd edib ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etməklə xalqımızın uzun illər yaşatdığı istiqlal ideyasını reallaşdırdı. Azərbaycan bir əsrdə ikinci dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Xalqımız həsrətində olduğu azadlığına qovuşdu. Müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başladı, müstəqilliyin ilk illərində xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Azərbaycanın dövlət müstəqilliyinin təhlükədən qurtarması, vətəndaş birliyinin, həmrəyliyin, sabitliyin qorunub saxlanılması, dünya dövlətləri arasında rolunun və nüfuzunun möhkəmləndirilməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi Liderin dövlətçilik ənənələrini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmiz regionun lider dövləti kimi beynəlxalq nüfuzunu, iqtisadi, müdafiə qüdrətini daha da artırdı. Bu proseslərin məntiqi davamı isə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman Ordumuzun Vətən müharibəsində şanlı qələbəsi oldu. Ötən il 24 saat ərzində aparılan və suverenliyimizin tam bərpası ilə nəticələnən lokal antiterror əməliyyatı isə böyük zəfərimizin möhürünü vurdu.

Tarix fakültəsinin II kurs tələbəsi Ləman Fətiyeva qeyd edib ki, XX əsrdə iki dəfə müstəqilliyi elan edən xalqımız onu əldə etmək qədər qoruyub saxlamaq üçün də çətin sınaqlara məruz qalıb. Azərbaycan əsl müstəqilliyə 30 il davam edən gərgin mübarizə və bir il bundan əvvəl düşmən üzərində qazanılmış böyük Zəfərdən sonra nail olub. Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olunub.

Tədbirin sonunda Azərbaycanın müstəqillik yolundan bəhs edən videoçarx nümayiş olunub.

# Müstəqilliyin Bərpası Gününə həsr edilmiş xüsusi dərs

***Oktyabrın 18-də İnformasiya və sənəd menecmenti fakültəsində 18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr edilmiş xüsusi dərs keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, müstəqilliyimizin qazanılması, torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Tarix fakültəsinin dosenti Xumar Səfərova xalqımızın azadlıq və suverenlik uğrunda mübarizə tarixini xronoloji baxımdan geniş şərh edib. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsinə baxmayaraq, xalqımızın müstəqillik arzularının sarsılmadığını bildirib. Dövlət müstəqilliyimizin bərpasına gedən yolun keşməkeşli olduğunu diqqətə çatdıran natiq vurğulayıb ki, ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndər Heydər Əliyev sovet dövlətinin təqib və təzyiqlərinə baxmayaraq, bu yolun təməlini qoyub, gələcək azad və müstəqil respublikanın qurulması üçün zəmin yaradıb. Xumar Səfərova müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra dövlət müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində misilsiz fəaliyyətini tarixi faktlarla şərh edib: "Bu gün biz bir xalq olaraq ən xoşbəxt günlərimizi yaşayırıq. Çünki Ulu Öndərimizin həyata keçirdiyi tarixi missiya Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq ikinci ildir ki, dövlət müstəqilliyimizin bərpası tarixini suverenliyimizin bərpa olunduğu bir şəraitdə qeyd edirik".

18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunmuş xüsusi dərs ədəbi-bədii proqramla davam edib.

# Müstəqilliyin Bərpası Gününə həsr edilmiş tədbir keçirilib

***Oktyabrın 16-da Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə 18 oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş "Bir kərə yüksələn bayraq bir daha enməz" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və vətənimizin azadlığı uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov bildirib ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası tərəfindən Müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi bir hadisə idi. İkinci tarixi imkan bir də 1991-ci ildə yarandı. 1991-ci ildə Ali Sovetin qərarı ilə Müstəqillik Aktının qəbulu və Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın tarixində ən vacib hadisə oldu. Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi, dönməz etdi. Bu siyasət Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2020-ci ildən sonra xalqımız bu bayramı qalib xalq kimi qeyd edir.

Daha sonra I kurs tələbəsi Nahidə Əsgərova müstəqilliyimizin tarixi barəsində təqdimat edib, tələbələr Zəkiyə Məmmədova, Alim Məmmədov və Ayan Cəfərzadə tərəfindən şeirlər və musiqilər səsləndirilib.

Sonda müstəqil Azərbaycan Respublikasının tarixi haqqında videoçarx nümayiş olunub.

# BDU-da tədbir: "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir!"

***Oktyabrın 18-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Geologiya fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə 18 oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir!" adlı tədbir keçirilib.***

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov 1991-ci il oktyabrın 18-də "Konstitusiya Aktı" qəbul edilməsi ilə müstəqilliyimizin bərpa olunması kimi mühüm tarixi hadisənin baş verdiyini vurğulayıb. Qeyd edib ki, müstəqilliyimizin möhkəmləndirilməsi dönəmində ölkəmizdə dünyəvi, hüquqi və demokratik dövlət quruculuğu istiqamətində görülən böyük işlər dünyaşöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin misilsiz xidmətlərinin bəhrəsidir. Hazırda bu siyasət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dövlətçiliyimiz inkişaf edir və möhkəmlənir.

Faydalı qazıntılar kafedrasının müəllimi Ruslan Şəmiyev və Geologiya fakültəsinin III kurs tələbəsi Kimyəxanım Əliyeva bildiriblər ki, yeni reallıqlar dövrünü yaşayan Azərbaycan bu gün müstəqilliyinin bərpasını azad olunmuş ərazilərdə qalib statusu ilə qeyd edir. Yenidən dirçələn Qarabağımızda qürurla qeyd edilən bu əlamətdar günlər xalqımızın gücünün rəmzinə çevrilib.

Tədbir bədii hissə və Müstəqilliyin Bərpası Gününə həsr olunmuş videoçarx nümayişi ilə davam edib.

# BDU-nun şəhid məzunu Ataməli Musaoğlunun anım günü və xatirəsinə həsr olunmuş sərgi keçirilib



***Oktyabrın 25-də Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının təşəbbüsü ilə fakültənin şəhid məzunu Atamıəli Musaoğlunun anım günü və şəhidin anası Leyla Musayevanın nadir incəsənət növü olan "driftwood" janrında əl işlərinin sərgisi keçirilib.***

Mərasimdə çıxış edən rektor Elçin Babayev BDU ailəsinin əbədi üzvləri olan şəhid məzunların hər birinin xatirəsinin əziz olduğunu bildirib. O qeyd edib ki, Ataməli Musaoğlu BDU-nun Vətən müharibəsində şəhid verdiyi 22 məzunundan biridir. Onların hər birinin xatirəsinin anılması, məzarlarının və ailə üzvlərinin ziyarət olunması BDU kollektivi üçün həssas ənənədir: "Şəhid məzunlarımızın hər biri göz qırpmadan Vətən uğrunda canlarını fəda ediblər. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəliyi, şəhidlərimizin qanı, qazilərimizin qanı ilə azad edilən torpaqlarımızda indi genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Bu gün şəhidlərimizin, o cümlədən Atamılinin ruhu şaddır".

Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov Atamıəli Musaoğlunun universitetdə təhsil aldığı müddətdə özünün nümunəvi davranışı ilə seçildiyi, onun əziz xatirəsinin müəllimlərinin, dostlarının qəlbində əbədi yaşayacağını bildirib.

BDU-nun Psixologiya kafedrasının müdiri Səxavət Əliyeva qeyd edib ki, Atamıəli Musaoğlu Müzəffər Ali Baş Komandan İlham Əliyevin çağırışına könüllü qoşulan minlərlə Azərbaycan gəncindən biridir. O, 44 günlük Zəfər savaşının 19-cu günündə qəhrəmancasına şəhid olub: "Torpaqlarımızın düşmən əsarətindən tam azad olunması "Dəmir yumruq" ətrafında birləşən xalqımız, ən əsası şəhid ailələri üçün təskinedici məqamdır. Leyla xanım Musayeva torpağa qəhrəman övlad verməklə yanaşı, həm də Azərbaycanda "driftwood" yeni incəsənət növünün yaranmasına təkan verib. Azərbaycan xalqı olaraq Zəfər gününü qeyd etməyə, eyni zamanda beynəlxalq miqyaslı tədbir olan COP 29-un açılışına hazırlaşırıq. "Driftwood" – təbiətdə, dəniz və çimərliklərdə külək və dalğanın təsiri ilə sahilə atılmış ağac qırıntılarından istifadə etməklə yaranan incəsənət növüdür. Leyla Musayeva övladı Atamılinin şəhadətindən sonra bu sənət növündə çalışmaqla təskinlik tapıb".



# Şəhid məzunları Atamıəli Musaoğlu və Manaf Bəhmənlinin məzarları ziyarət olunub



***Oktyabrın 14-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə BDU-nun şəhid məzunları Atamıəli Musaoğlu və Manaf Bəhmənlinin məzarları ziyarət olunub.***

Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Mexanika-riyaziyyat fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Etibar Əhmədov, THİK sədri Zöhrab Cavadzadə və təşkilatın fəal üzvləri iştirak ediblər.

Vətən torpağı uğrunda qəhrəmancasına şəhid olan Atamıəli Musaoğlu və Manaf Bəhmənlinin əziz xatirəsi ehtiramla yad olunub. BDU-nun şəhid məzunlarının xalqımızın və Universitetin tarixində əbədi qalacağı vurğulanıb.

Qeyd edək ki, Atamıəli Musaoğlu 2012-2016-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində təhsil alıb. Psixoloq kimi fəaliyyət göstərən Atamıəli Musaoğlu 2020-ci ildə könüllü olaraq ordu sıralarına qoşulub və oktyabrın 16-da Ağdərə rayonu istiqamətində gedən döyüşlərdə yaralı dostunu xilas edərkən düşmən snayperinin açdığı atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb. O, ölümündən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Manaf Bəhmənli 2015-2020-ci illərdə BDU-nun Mexanika-riyaziyyat fakültəsində təhsil alıb. 2020-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılan Manaf Bəhmənli sentyabrın 27-də Murovdağ uğrunda gedən şiddətli döyüşlərdə şəhid olub. O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

# BDU-nun şəhid məzunu Vüqar Məmmədovun məzarı ziyarət olunub

***Oktyabrın 7-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Aprel döyüşlərinin iştirakçısı və Vətən müharibəsi şəhidi Vüqar Məmmədovun məzarı ziyarət olunub.***

Ziyarətdə BDU-nun Şərqşünaslıq fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Şahin Yusifli, THİK sədri Zöhrab Cavadzadə və təşkilatın fəal üzvləri iştirak ediblər.

Şəhidin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad edilib.

Qeyd edək ki, Vüqar Məmmədov 2011-2015-ci illərdə BDU-nun İlahiyyat fakültəsində təhsil alıb. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Quru Qoşunlarında həqiqi hərbi xidmətə başlayan Vüqar Məmmədov Aprel döyüşlərində topçu və manqa komandiri kimi iştirak edib. O, Vətən müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanıb. Vüqar Məmmədov 2020-ci ilin oktyabrın 9-da Füzulinin azad edilməsi uğrunda əməliyyatda qəhrəmancasına şəhid olub.

# BDU-da "Qarabağ günü"

***Oktyabrın 14-də Tarix fakültəsinin "İstiqlal" klubunun təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsinə həsr olunmuş "Qarabağ günü" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov 2020-ci il sentyabrın 27-dən təcavüzkar Ermənistanın Azərbaycana qarşı növbəti təxribatlarının qarşısının alınması üçün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinin başlanıldığını, ərazi bütövlüyümüz uğrunda 44 günlük mübarizədə xalqımızın bir yumruq kimi həmrəylik, əzm və iradə nümayiş etdirdiyini, əsgər və zabitlərimizin qəhrəmanlıq salnaməsi yazaraq düşmən üzərində parlaq Qələbə qazandığını bildirib. Qeyd edib ki, dünya hərb tarixinə qızıl hərflərlə yazılan Vətən müharibəsi unudulmayan qürur səhifəsi, düşmənlərin yaddaşında isə əbədi məğlubiyyət kimi qalacaq.

III kurs tələbələri Röya Mehdizadə Tarix fakültəsinin şəhid məzunları Elşən Salayev, Hüseyn Quliyev, Yüksəl Əlizadə, Fatimə Cavadlı şəhid qardaşı Nemət Cavadlı, I kurs tələbəsi Kamal Şalıyev şəhid qardaşı, BDU-nun Hüquq fakültəsinin məzunu Ceyhun Şalıyev haqqında məlumat verərək, xatirələrini bölüşüblər.

Sonra Tarix fakültəsinin tələbələri Gülyanaq Vəlizadə, Elvin İbrahimli, Sücəddin Muradov, Mehdi Rzayev, Lamiyə Kamallı, Ayan İsmayılova, Altay Hüseynzadə, Məhəmməd Həsənov, Gülarə Mehdizadə və Ləman Fətiyevanın ifasında bədii kompozisiya təqdim olunub.

# Lənkəranda BDU-nun şəhid məzunu Şəhriyar Həbibinin xatirəsinə həsr olunmuş tədbir keçirilib

***Oktyabrın 28-də BDU-nun bir qrup əməkdaş və tələbəsi Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Lənkəran şəhərində Fizika fakültəsinin şəhid məzunu Şəhriyar Həbibinin xatirəsinə həsr olunmuş tədbirdə iştirak ediblər.***

Lənkəran Mədəniyyət Mərkəzində keçirilən tədbirdə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, şöbənin mütəxəssisi Ələkbər Həsənov, Fizika fakültəsinin müəllimləri Şəhriyar Həbibi barədə xatirələrini bölüşüb, qürur mənbəyimiz olan şəhidlərimizin yaddaşlarda əbədi yaşayacağını bildiriblər.

Qeyd edək ki, Şəhriyar Həbibi 2010-2014-cü illərdə Fizika fakültəsində təhsil alıb. Hərbi xidmətdə olduğu dövrdə Aprel döyüşlərində iştirak edib. Vətən müharibəsində Cəbrayıl, Zəngilan rayonlarının azad edilməsində şücaət göstərib, 2020-ci il noyabrın 6-da Qubadlı uğrunda döyüşlərdə həlak olub. Şəhriyar Həbibi ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

# BDU-da ADA Universitetinin kitabxana sisteminə dair elmi seminar

***Oktyabrın 30-da İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "ADA Universitetinin Kitabxanasında tətbiq olunan kataloqlaşdırma standartları" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının magistrantı Əzizə Cəbiyeva məruzə edib.***



Tədqiqatçı əvvəlcə kataloqlaşdırmanın mahiyyəti, məzmunu, əhəmiyyəti barədə məlumatları iştirakçıların nəzərinə çatdırıb. Məruzədə ADA Universitetində tətbiq olunan MARC21 formatı və RDA standartları geniş şəkildə şərh edilib. MARC21 formatının kitabxana materiallarının elektron kataloqlaşdırılması üçün əsas standartlardan biri olduğunu bildirən məruzəçi onun məlumatların sistemli və strukturlaşdırılmış formada təqdim edilməsinə geniş imkanlar yaratdığını vurğulayıb. ADA Universitetinin Kitabxanasında tətbiq olunan RDA (Resource Description and Access) standartının resursların təsvirində müasir tələblərə cavab verdiyini, daha əhatəli və istifadəçi mərkəzli yanaşma təqdim etdiyini diqqətə çatdırıb: "RDA resursların daha geniş kontekstdə təsvirinə imkan yaradır, bu da istifadəçilərin ehtiyaclarına uyğun xidmətlərin daha səmərəli formada təqdim edilməsini təmin edir".

Magistrant ADA Universitetinin Kitabxanasının bu sahədəki perspektivləri və layihələri barədə də məlumat verib. O, ADA Universitetində kataloqlaşdırma sistemlərini inkişaf etdirmək üçün yeni texnologiyaların və metodların tətbiqinin davamlı olaraq təkmilləşdirildiyini bildirib. Məruzədə bu sahədə dünya təcrübəsi də öyrənilib, müqayisəli təhlillər aparılıb.

Məruzə maraqla dinlənilib, elmi seminar müzakirələrlə davam etdirilib.

# Təhsil İnstitutu BDU-da "Narkomaniya və onun fəsadları" mövzusunda seminar təşkil edib

***Oktyabrın 30-da Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 2024-cü il üçün iş planına uyğun olaraq, Təhsil İnstitutu və BDU-nun Tələbə Gənclər Təşkilatının birgə əməkdaşlığı ilə "Narkomaniya və onun fəsadları" mövzusunda seminar təşkil edilib.***

Seminarda çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov narkomaniyanın cinayətkarlığa, zorakılığa yol açdığını, hazırda ciddi qlobal problemə çevrildiyini, narkotik vasitələrdən istifadə edən şəxslərin özlərini uğurlu gələcəkdən məhrum etdiklərini iştirakçıların diqqətinə çatdırıb, sağlam həyat tərzinin təbliği, zərərli vərdişlərə qarşı mübarizə istiqamətində Universitetdə keçirilən müxtəlif tədbir və layihələrdən danışıb.

Təhsil İnstitutunun əməkdaşı, psixologiya üzrə fəlsəfə doktoru Bahar Bəylərova-Ələkbərova iştirakçıları dövlət qurumları tərəfindən narkotik maddələrin qanunsuz istifadəsi, yayılması və alverinə qarşı aparılan tədbirlərlə tanış edib.

Seminarda "Sevməyi seç, özünü kəşf et, tanı – beynimizdə nə baş verir?", "Yeniyetmə yaş dövrünün psixoloji və fizioloji xüsusiyyətləri", "Asılılıq nədir: psixoloji aspektləri və səbəbləri" və s. mövzularda müzakirələr aparılıb, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU nümayəndə heyəti Qazaxıstanın Narxoz Universitetində olub

***Oktyabrın 30-da BDU-nun nümayəndə heyəti Qazaxıstanın Almatı şəhərində yerləşən Narxoz Universitetində olub.*** BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasovun, rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərovanın və Narxoz Universitetinin inkişaf və beynəlxalq əlaqələr üzrə vitse-prezidenti Aigerim Raimzhanovanın iştirakı ilə keçirilən görüşdə beynəlmiləlləşmə, elmi tədqiqat və təcrübə mübadiləsi istiqamətdə perspektiv əməkdaşlığa dair müzakirələr aparılıb.

Nümayəndə heyəti son illərdə BDU-da rəqabət qabiliyyətliliyinin artırılması istiqamətində görülmüş işlərə, eləcə də strateji fəaliyyət istiqamətlərinə dair geniş təqdimatla çıxış edib.

Narxoz Universitetinin inkişaf və beynəlxalq əlaqələr üzrə vitse-prezidenti Aigerim Raimzhanova əməkdaşlığın hər iki ali təhsil müəssisəsi üçün səmərəli olacağını, eləcə də Azərbaycanın ən qədim və böyük universiteti olan BDU ilə əməkdaşlığın gələcəkdə daha yüksək formada inkişaf etdiriləcəyinə əminliyini bildirib.

# Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş qiraət müsabiqəsi

***Oktyabrın 30-da Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş qiraət müsabiqəsi keçirilib.***

Filologiya fakültəsi üzrə TGT sədri Hümbət Bədəlov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 yanvar 2024-cü ildə Məhəmməd Füzulinin 530 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamının ölkə rəhbərinin mütəfəkkir şairin yaradıcılığına verdiyi yüksək qiymət olduğunu bildirib. O qeyd edib ki, Füzulinin yubileyinin UNESCO tərəfindən beynəlxalq səviyyədə qeyd edilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illik yubileyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olub. Dahi şairin lirikasını öyrənmək tələbə-gənclərin mənəvi inkişafı baxımından əvəzsiz töhfədir.

Daha sonra iştirakçılara müsabiqənin şərtləri ilə bağlı məlumat verilib.

Ümumilikdə 14 nəfərin iştirak etdiyi qiraət müsabiqəsində Kəmaləddin Hüseynov I, Validə Bayramlı II, Fidan Sadıqova III yerə layiq görülüb.

BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, professor Mətanət Abdullayeva və Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu tələbələrin çıxışları ilə bağlı təəssüratlarını bölüşüb, gənclərə öz tövsiyələrini veriblər.

# BDU-da şəhid məzun Əsəd Əsədovun xatirəsi anılıb

***Oktyabrın 30-da Sosial elmlər və psixologiya fakültəsinin Pedaqogika kafedrasının təşkilatçılığı ilə fakültənin şəhid məzunu Əsəd Əsədovun xatirəsinə həsr olunmuş "Şəhidlərimizin vətənpərvərlik yolu" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra 44 günlük Vətən müharibəsindən və Sosial elmlər və psixologiya fakültəsinin şəhid məzunu Əsəd Əsədovun həyat yolundan bəhs edən təqdimat nümayiş etdirilib.

Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimova şəhid məzun Əsəd Əsədovun timsalında torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canından keçən igid oğul və qızlarımızın xatirəsinin daim uca tutulmasının hər bir azərbaycanlının mənəvi borcu olduğunu deyib. O, şəhid ailələrinə yüksək diqqət və qayğı göstərildiyini, Sosial elmlər və psixologiya fakültəsində şəhid məzunların anım tədbirlərinin daim təşkil edildiyini, bunun gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində əvəzsiz rol oynadığını qeyd edib.

Pedaqogika kafedrasının müdiri Ləzifə Qasımova, professor Nübar Muxtarova, dosent, şəhid Aydın Manerovun həyat yoldaşı Gülarə Kərimova, şəhid Əsəd Əsədovun həyat yoldaşı Ülkər Əsəd şəhidin həyat yolundan, tələbəlik illərindən söz açıb, xatirələrini bölüşüblər.

Sonda şəhid məzunun xanımı Ülkər Əsəd həyat yoldaşının xatirəsinə həsr etdiyi şeirlər kitabını Pedaqogika kafedrasına bağışlayıb.

# BDU-da Vətən müharibəsi qaziləri ilə görüş

***Oktyabrın 31-də BDU-da Azərbaycan Gənclər Fondu, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) və "Böyük Qayıdış" İctimai Birliyinin təşkilatçılığı, BDU Tələbə Gənclər Təşkilatının dəstəyi ilə "Qəhrəmanını tanı" layihəsi çərçivəsində Vətən müharibəsi qaziləri ilə tələbələrin görüşü keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tariximizə qızıl hərflərlə yazılmış Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın, qazilərimizin gənclər arasında tanıdılması, onların şərəfli döyüş yolunun təbliği istiqamətində BDU-da həyata keçirilən layihələrdən danışıb, belə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Azərbaycan Gənclər Fondunun əməkdaşı Seyfur Hacımuradov, ATGTİ-nin nümayəndəsi Aqil Quliyev, "Böyük Qayıdış" Gənclər Təşkilatının sədr müavini, Vətən müharibəsi iştirakçısı Əhliyat Mehdiyev çıxışlarında şəhid ailələrinə, qazilərə diqqət və qayğının dövlət siyasətinin prioritetlərindən olduğunu diqqətə çatdırıblar. Bildiriblər ki, Vətən müharibəsi qəhrəmanlarının gənclər arasında təbliği, təhsil müəssisələrində vətənpərvərlik ruhunun formalaşması, qəhrəmanlarımızın tanıdılmasında tələbə təşkilatlarının rolu danılmazdır.

Sonra Vətən müharibəsi qaziləri Əhməd Abbasov, Şərbət Mahmudov, Asif Məmmədov, Qəzənfər Ağayev və Müseyib Qəhrəmanov tələbələrə keçdikləri döyüş yolundan danışıb, onları maraqlandıran sualları cavablandırıblar.

# Azərbaycan şərqşünaslığının görkəmli siması - Aida İmanquliyeva

***Oktyabrın 10-u görkəmli şərqşünas alim, Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın doğum günüdür.***

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhərindəki 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və İnstitutun direktoru vəzifəsinədək yüksəlib.



Ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə sərf edən Aida xanım İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib. 1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç fundamental monoqrafiyanın - "Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasına da böyük diqqət yetirirdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Bakı Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida xanımın ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı olduğunu keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər.

Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Yazıçılar Birliyinin üzvü olub.

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açıb. Onun bu gün də aktuallığını qoruyub saxlayan əsərləri, monoqrafiyaları ərəb ədəbiyyatını araşdıran gənc alimlər üçün əsas istinad qaynağıdır.

Aida İmanquliyevanın işıqlı xatirəsi ürəklərdə daim yaşayacaq!

# BDU-da professor Mehdi Kazımovun 70 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

***Oktyabrın 17-də Şərqşünaslıq fakültəsinin Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri, professor Mehdi Kazımovun 70 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.***

Öncə professor Mehdi Kazımovun ömür yoluna həsr olunmuş videoçarx nümayiş olunub.

Şərqşünaslıq fakültəsinin dekanı, dosent Aydan Xəndan professor Mehdi Kazımovun elmi fəaliyyəti, tədqiqatları barədə məlumat verib. Görkəmli alimin Azərbaycan ədəbiyyatşünaslıq və şərqşünaslıq elmində özünəməxsus yerindən, yeni tədqiqatçı alimlər nəslinin yetişdirilməsindəki yorulmaz fəaliyyətindən danışıb.



BDU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Hüseyn Məmmədov Mehdi Kazımovun elmi fəaliyyətini yüksək qiymətləndirib, onun ömrünün böyük bir hissəsini Şərq ədəbiyyatının tədqiqinə həsr etdiyini deyib. Prorektor qeyd edib ki, Mehdi Kazımov farsdilli ədəbiyyat, müqayisəli ədəbiyyatşünaslıq, nizamişünaslıq, mənbəşünaslıq sahələrində tanınmış alimlərdəndir. O, nəinki İranın, eləcə də Azərbaycan, Hindistan, Əfqanıstan,Tacikistan və başqa ölkələrin şair və mütəfəkkirlərinin yaradıcılığı ilə məşğul olub. Böyük Azərbaycan şairi Nizaminin, eləcə də onun çoxsaylı davamçılarının yaradıcılığı alim tərəfindən geniş tədqiq olunub.

Milli Məclisin üzvü, AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının professoru, akademik Rafael Hüseynov, Ziya Bünyadov adına Şərqşünaslıq İnsitutunun direktoru, AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyeva, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Ərəb filologiyası kafedrasının məsləhətçi-professoru Elxan Əzizov, AMEA-nın müşaviri, akademik Möhsün Nağısoylu, Şərqşünaslıq İnsitutunun aparıcı elmi işçisi, dosent Aygün Əlizadə, AMEA-nın Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Komparativistika və bədii tərcümələr şöbəsinin müdiri, professor Şəfəq Əlibəyli və Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının baş müəllimi Cavanşir Məmmədzadə çıxışlarında Mehdi Kazımovun 14 kitab, 160-dən çox (15-i xaricdə) elmi məqalənin müəllifi olduğunu, onun rəhbərliyi altında 10-dan çox doktorluq və namizədlik dissertasiyasının müdafiə edildiyini vurğulayıblar. Qeyd ediblər ki, professor Mehdi Kazımov Ziya Bünyadov, Vasim Məmmədəliyev, Mübariz Əlizadə, Aida İmanquliyeva kimi klassik Azərbaycan şərqşünaslığı məktəbinin nümayəndəsi, Azərbaycan şərqşünaslığına olduqca əhəmiyyətli töhfələr vermiş bir alimdir.

# Hidrometeorologiya kafedrasının 50 illik yubileyi qeyd olunub

***Oktyabrın 18-də BDU-nun Hidrometeorologiya kafedrasının 50 illik yubileyinə həsr olunmuş "Hidrometeorologiyanın müasir nailiyyətləri və inkişaf istiqamətləri" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov müasir dövrdə təsərrüfatın müxtəlif sahələrində hidrometeoroloji müşahidə nəticələrinin mühüm əhəmiyyət kəsb etdiyini bildirib. O qeyd edib ki, hazırda iqlim dəyişmələrinə adaptasiya və davamlı inkişaf metodlarının işlənib hazırlanması, hidrometeoroloji tədqiqatların informasiya təminatı, hidrometeorologiyanın fundamental və tətbiqi problemləri, Xəzər dənizinin səviyyəsi və çirklənməsi məsələləri, eləcə də su ehtiyatlarının inteqrasiyalı idarə olunması qarşıda duran mühüm vəzifələrdəndir. Son onilliklər ərzində hidrometeorologiya elmi xeyli inkişaf edib. Bu, hidrometeorologiya sahəsində kadr hazırlığı işində yeni yanaşmalar tələb edir. Konfransda bu kimi problemlərin yerli və xarici ölkə mütəxəssisləri ilə birgə müzakirəsi və elmi-təcrübi istiqamətlərin müəyyən edilməsi nəzərdə tutulur. Məqsəd Qocamanov konfransa 80-ə yaxın tezisin təqdim edildiyini, 3 məruzənin plenar iclasda, qalan işlərin isə bölmələrdə dinləniləcəyini konfrans iştirakçılarının nəzərinə çatdırıb.

Sonra Hidrometeorologiya kafedrasının dünyasını dəyişmiş sonuncu müdiri İmran Abdullayevə həsr olunmuş videoçarx izlənilib və xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Plenar iclasda Elm və Təhsil Nazirliyinin akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun baş direktoru, coğrafiya elmləri doktoru Zakir Eminov, Qurunun hidrologiyası və su ehtiyatları şöbəsinin müdiri, professor Rza Mahmudov və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin Aviasiya Meteoroloji Mərkəzinin rəisi, professor Nazim Hüseynovun məruzələri dinlənilib.

Konfrans öz işini "İqlim dəyişmələrinə adaptasiya və davamlı inkişaf", "Geoinformasiya texnologiyalarının hidrometeorologiyada tətbiqi", "Hidrometeorologiyanın fundamental və tətbiqi problemləri", "Su ehtiyatlarının inteqrasiyalı idarə olunması" bölmələri ilə davam etdirib.

Tədbirin sonunda konfransın qətnaməsi qəbul edilib.

# BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin 50 illik yubileyinə həsr olunmuş Respublika konfransı

***Oktyabrın 28-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) 50 illik yubileyinə həsr olunmuş Respublika konfransı keçirilib.***

Əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib. Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla anılıb, məzarları üzərinə əklil və gül dəstələri qoyulub. BDU-da Ulu Öndərin büstü, Şəhidlər abidəsi və şəhid məzunların xatirəsinə həsr olunmuş lövhənin önünə də gül dəstələri düzülüb.



Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

BDU THİK-in sədri Zöhrab Cavadzadə yarandığı gündən Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin tələbələrin səsinə çevrildiyini, gənclərin problemlərini həll etmək, onların hüquqlarını qorumaq, təhsillərində və sosial fəaliyyətlərində dəstək olmaq üçün yorulmadan çalışdığını deyib: "Bu yolda gördüyümüz bütün işlər tələbələrimizin inkişafına xidmət edir. Ümummilli Lider Heydər Əliyev həmişə gəncləri Azərbaycanın gələcəyi hesab edib, onların təhsilinə və inkişafına böyük diqqət göstərib. Məhz onun təşəbbüsü ilə ölkəmizdə gənclərin hüquqlarının qorunması və onların dövlət idarəçiliyində fəal iştirakı üçün geniş imkanlar yaradılıb. Bu dəyərlər və ideyalar THİK-in də əsas prinsiplərindən biri olub və fəaliyyətimizin hər mərhələsində bizə yol göstərib. Universitetdə müxtəlif idman spartakiadaları, mədəni tədbirlər, tamaşalar, ekskursiyalar, gəzintilər, düşərgə və layihələrin həyata keçirilməsində bilavasitə iştirak edən THİK gənclərə dövlət qayğısını hər zaman hiss etdirir. Hər bir tələbəmizin uğurunu, Vətən sevgisini gördükcə, Tələbə Həmkarlar İttifaqı Komitəsinin nə qədər vacib rol oynadığını bir daha dərk edirik. Gələcək fəaliyyətimizdə də hər zaman tələbələrin yanında olacağımıza, birlikdə daha böyük layihələrə imza atacağımıza əminik".

BDU-nun rektoru Elçin Babayev bildirib ki, bu gün müstəqil, qalib, suveren ölkəmizdə dövlətçiliyin daha da möhkəmləndirilməsində intellektual gəncliyin aparıcı rolu var: "Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin uğurla davam və inkişaf etdirdiyi gənclər siyasətinin yetirmələri ölkəmizin inkişafı, tərəqqisi naminə hər cür fədakarlıq göstərib. 44 günlük Vətən müharibəsində biz bunun ən parlaq örnəklərini gördük. Gənclərimiz həmin günlərdə Vətənin rifahı naminə öz canlarını göz qırpmadan müstəqil Azərbaycana qurban verdilər. 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyinin yaradılması ilə gənclərin dövlət quruculuğunda fəal iştirakının təmin edilməsinin, gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsinin prioritetləri müəyyən edildi, bu sahənin qanunvericilik bazası formalaşdırıldı. Hazırda ölkə gəncləri qalib Azərbaycanın vətəndaşları kimi həyatlarının ən xoşbəxt mərhələsini yaşayır, Vətənimizin rifahı üçün çalışırlar".

Rektor diqqətə çatdırıb ki, Bakı Dövlət Universiteti Azərbaycan dövlətinin gənclər siyasətinə ölkənin ilk və ən böyük ali təhsil müəssisəsi kimi daim töhfə verib: "BDU ailəsinin üzvləri olan tələbə və məzunlarımız ölkəmizdə dövlət gənclər siyasətinin həyata keçirilməsində mühüm rol oynayırlar. Bütün bu vəzifələrin təşkilatlanmış formada həyata keçirilməsi üçün Universitet tərəfindən mühüm addımlar atılır. 2020-ci ildə ali məktəblər arasında ilk dəfə BDU-da Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin yaradılması bu baxımdan yüksək dəyərləndirilməlidir. BDU-nun 1974-cü ildən fəaliyyət göstərən Tələbə Həmkarlar İttifaqı Komitəsi ölkənin ali təhsil müəssisələri arasında ən böyük və fəal tələbə həmkarlar təşkilatıdır. Öz sıralarında BDU-nun tələbə, magistrant və doktorantlarını birləşdirən BDU THİK tələbələrlə sistemli iş aparmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyev irsinin, azərbaycançılıq ideyasının, dövlətçilik ənənələrinin, milli-mənəvi dəyərlərin təbliği istiqamətində tədbirlər həyata keçirir. Bu il 105 illik yubileyini qeyd etdiyimiz, böyük tarixə və zəngin ənənələrə malik Bakı Dövlət Universiteti öz tələbələri və məzunları ilə fəxr edir. Əminik ki, bu gün Universitetdə təhsil alan, ictimai fəallıqları, vətəndaşlıq mövqeyi ilə hər birimizə qürur hissi yaşadan gənclərimiz bundan sonra da dövlətimizin və xalqımızın etimadını layiqincə doğruldacaq, gələcək fəaliyyətləri ilə müstəqil Azərbaycanın daha parlaq gələcəyini təmin edəcəklər".

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə BDU THİK-in tələbələrin sosial durumunun yaxşılaşdırılması, milli ruhda inkişafı istiqamətində apardığı işlərin təqdirəlayiq olduğunu bildirib. "50 illik fəaliyyəti ilə seçilən BDU THİK-in böyük uğurlara imza atacağına və daha da inkişaf edəcəyinə inanırıq".

Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov BDU tələbələrinin Azərbaycanın gənclər siyasətində önəmli yerə malik olduqlarını vurğulayıb. O qeyd edib ki, gənclərin inkişafı istiqamətində çoxsaylı tədbirlər, layihələr həyata keçirən Fond Universitet tələbələri üçün də geniş imkanlar açır.

BDU Həmkarlar İttifaqı Komitəsinin sədr müavini, Əmək və ekologiya hüququ kafedrasının müdiri, professor Alış Qasımov, Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Milli Məclisin üzvləri Göydəniz Qəhrəmanov, Səbinə Xasayeva, Naqif Həmzəyev və Azərbaycan Texniki Universitetinin THİK sədri Mirməhəmməd Ələkbərli BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin işinə uğurlar arzulayıblar.

Konfrans BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin konsert proqramı ilə davam edib. Tədbirin sonunda Azərbaycanın xalq artisti, tanınmış müğənni Miri Yusif də qonaq olub, sevilən ifalarını səsləndirib.

# BDU-nun 105 illik yubileyi çərçivəsində fakültələrin təqdimatı: Tətbiqi riyaziyyat və kibernetika fakültəsi

***Oktyabrın 25-də BDU-nun 105 illik yubileyi ilə əlaqədar BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin "İnnovativ həllərin kəsişdiyi məkan" adlı tədbiri keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Sonra tələbələrin ifasında "Azərbaycan" mahnısı təqdim edilib.

Mərasimdə çıxış edən rektor Elçin Babayev ölkəmiz üçün yüksəkixtisaslı kadrların hazırlanmasının BDU-nun əsas məqsədlərindən olduğunu bildirib. O qeyd edib ki, Bakı Dövlət Universitetinin özünəməxsus ənənələri, çəkisi var: "Bu günün tələbələri fəxr etməlidirlər ki, Ümummilli Lider Heydər Əliyevin məzunu olduğu belə bir Universitetdə təhsil alırlar. Azərbaycanın riyaziyyat məktəbi birmənalı olaraq bütün dünyada qəbul olunur. BDU isə həmin məktəbin kökündə dayanan elm və ali təhsil müəssisəsidir. Fakültəmizin özünün də maraqlı tarixçəsi var. Fakültə 1972-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Tətbiqi riyaziyyat fakültəsi adı altında yaradılıb. Sonradan isə "Kompüter elmləri", "İnformatika müəllimliyi", günümüzün ən çox tələb etdiyi sahə olan "İnformasiya təhlükəsizliyi" ixtisasları açılıb. Bütün bunlar müasir dövrün tələblərinə uyğun olaraq tədrisin keyfiyyətinin və kadr potensialının artırılması məqsədini daşıyır. Artıq fakültənin həyatında növbəti yeni mərhələ başlayır".

BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı, professor Ələkbər Əliyev isə vurğulayıb ki, hazırda fakültədə bakalavriat səviyyəsində 3 ixtisas üzrə 1618, magistratura səviyyəsində 18 ixtisaslaşma üzrə 144, doktorantura səviyyəsində elmlər doktoru və fəlsəfə doktoru proqramları üzrə 11 doktorant olmaqla ümumilikdə 1773 nəfər təhsil alır. Fakültədə elmi-pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. Fakültədə 17 professor və elmlər doktoru (onlardan 2-si AMEA-nın həqiqi üzvü), 48 dosent və elmlər namizədi çalışır. Son beş il ərzində fakültənin professor-müəllim heyəti tərəfindən 40 kitab, dərslik və dərs vəsaiti, 418 elmi məqalə çap olunub. 4 elmlər doktoru, 6 fəlsəfə doktoru dissertasiyası müdafiə olunub. Hazırda Tətbiqi riyaziyyat və kibernetika fakültəsində 8 kafedra fəaliyyət göstərir. Fakültədə müasir kompüterlərlə təchiz olunmuş Azərbaycan-Koreya İnformasiya Təminatı Mərkəzi, SABAH kompüter laboratoriyası tələbələrin və elmi tədqiqatçıların istifadəsindədir.

Sonra BDU-nun rektoru Elçin Babayev fakültə tələbələrinin suallarını cavablandırıb.

BDU-nun Tətbiqi analizin riyazi üsulları kafedrasının professoru Nihan Əliyev, Tətbiqi riyaziyyat kafedrasının dosenti Adil Qəhrəmanov, Ehtimal nəzəriyyəsi və riyazi statistika kafedrasının dosenti Qurban Qasımov çıxışlarında fakültənin uğurlarından danışıb, xatirələrini bölüşüblər.

Tədbir fakültənin müəllim və tələbələrinin hazırladığı bədii hissə ilə davam edib.

# BDU-nun 105 illik yubileyi çərçivəsində fakültələrin təqdimatı: Tarix fakültəsi

***Oktyabrın 22-də BDU-nun 105 illik yubileyi ilə əlaqədar BDU-nun fakültələrinin təqdimatlarına başlanılıb. Bu silsilədə ilk təqdimat Tarix fakültəsinin "105 illik zəngin ənənələrə malik Tarix fakültəsi" adlı tədbiri olub.***



Mərasimdə çıxış edən rektor Elçin Babayev Universitetin 105 illik yubileyi çərçivəsində həyata keçirilən bu layihənin ilk görüşünün Tarix fakültəsi ilə keçirilməsinin təsadüfi olmadığını qeyd edib. O bildirib ki, 1919-cu il 1 sentyabr tarixində Azərbaycan Xalq Cümhuriyyəti Bakı Dövlət Universitetinin yaradılması haqqında tarixi qərar qəbul edib: "BDU-nun tarixini bilmək hər birimizin müqəddəs borcudur. BDU-nun ilk fakültələri Tarix-filologiya və Tibb fakültələri olub. Tarix və Filologiya fakültələri Universitetin həmyaşıdıdır. Bu mənada Tarix fakültəsinin BDU-nun tarixində özünəməxsus yeri var. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev məhz bu fakültənin məzunudur. Biz hamımız bununla fəxr edirik. BDU-nun fəaliyyəti boyu professor-müəllim heyəti, məzunları, hətta burada oxuyub, buranı bitirməyən şəxslər də Universitetimizin tarixinə öz adlarını yazıblar. Tarix fakültəsi hər zaman ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvələrdən olub. Bu gün fakültə özünün şərəfli missiyasını yenə yerinə yetirir. Bütün dövrlərdə olduğu kimi, bu gün də tarixçilərin üzərində xüsusi əlamətdar vəzifə var və bu, çox önəmlidir. Çünki ölkəmizin tam suverenliyinin təmin olunması, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin göstərdiyi misilsiz qəhrəmanlığı, tarixi Zəfəri öyrənmək, öyrətmək kimi müqəddəs missiyanı icra edirsiniz. Hazırda isə ölkəmizin bütün istiqamətlərdə inkişafı tarix salnaməmizin qızıl səhifələrindən biridir. Belə bir vəziyyətdə gələcək nəsillərə bu tarixi çatdırmaq, aşılamaq bugünkü gənc tarixçilərin üzərinə düşən ən böyük vəzifədir".

Rektor diqqətə çatdırıb ki, bu il ali məktəblərə qəbul imtahanlarında 600-dən çox bal toplayan 4 tələbə Tarix fakültəsini, onlardan 3-ü isə "Tarix müəllimliyi" ixtisasını seçib. Bu, həmin ixtisasa olan böyük marağın göstəricisidir. Tarix fakültəsini fərqləndirən və məşhurlaşdıran ixtisaslardan biri də "Regionşünaslıq" ixtisasıdır. Burada Amerikadan tutmuş Qafqaza qədər bütün regionların tarixi dərindən öyrənilir. Fakültədə Qafqaz xalqları tarixi, Türk xalqları tarixi kafedraları da daxil olmaqla 10 kafedra, 2 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.

Sonra Tarix fakültəsinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan BDU-nun 105 illik şərəfli tarixindən söz açıb. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin məzunu olması ilə fəxr etdiyi Bakı Dövlət Universiteti bu gün ölkə təhsilinin flaqmanı kimi öz sözünü deyir. 1919-1920-ci illərdə 13 professor, 5 dosent, 6 müəllim, 509 tələbə, 95 azad dinləyici ilə fəaliyyətə başlayan Tarix fakültəsində hazırda 20 professor, 50-dən çox dosent, 10 baş müəllim, 6 müəllim çalışır, 2200-dən çox tələbə təhsil alır. Minlərlə dövlət və ictimai-siyasi xadim yetişdirmiş Tarix fakültəsinin fəaliyyət göstərdiyi ilk illərdə dünya şöhrətli alim və akademiklər: Vasili Bartold, Nikolay Maar, Əziz Qubaydulin, Bəkir Çobanzadə, İsaq Cəfərzadə və b. dərs deyib. Bu gün fakültə müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qoşulması ilə bağlı yorulmaz fəaliyyət nümayiş etdirir. Şanlı qələbədən sonra yaranan yeni reallıqlar hərtərəfli araşdırılır və tədris olunur.

Daha sonra BDU-nun rektoru Elçin Babayev fakültə tələbələrinin suallarını cavablandırıb.

BDU-nun Türk xalqları tarixi kafedrasının müdiri, professor Əsməd Muxtarova, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri, dosent Azad Rzayev, "Dünya Azərbaycanlıları: tarixi-demoqrafiya" elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi Səidə Quliyeva və III kurs tələbəsi Gülarə Mehdizadə Tarix fakültəsinin ölkəmizin həyatında oynadığı roldan, dövrün tələblərinə uyğun aparılan tədris, elmi fəaliyyətindən danışıblar. Qeyd ediblər ki, 105 illik elm və təhsil məbədinin təməl daşlarından olan Tarix fakültəsi daim ölkəmiz üçün yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm xidmətlər göstərib və bu müqəddəs missiyanı bundan sonra da davam etdirəcək.

# BDU-nun 105 illik yubileyi çərçivəsində fakültələrin təqdimatı: Şərqşünaslıq fakültəsi

***BDU-nun 105 illik yubileyi ilə əlaqədar Şərqşünaslıq fakültəsinin "Uğur yolu" adlı tədbiri keçirilib.***

Tədbirdə çıxış edən rektor Elçin Babayev belə mərasimlərin keçirilməsi ilə 105 illik yubiley çərçivəsində BDU-nun zəngin, şərəfli tarixinə nəzər salındığını deyib. O bildirib ki, Şərqşünaslıq fakültəsi BDU-nun ən qocaman fakültələrindən biridir. Bu fakültə yarandığı gündən irəlidə gedən fakültələrdən olub: "Şərqşünaslıq fakültəsinin tələbələri hər zaman öz müəllimləri haqqında fəxrlə danışıblar. Çünki bu fakültədə böyük şəxsiyyətlər Nikolay Marr, İvan Meşşaninov, Vasili Bartold, Aleksandr Samoyloviç, professorlar Nikolay Aşmarin, Aleksandr Romaskeviç, Rozaliya Şor, Bəkir Çobanzadə, Əziz Qubaydulin və başqaları böyük elmi-pedaqoji iş aparıblar. Fakültənin inkişafında akademik Həmid Araslı, professorlar Ələsgər Məmmədov, Rəhim Sultanov, Aida İmanquliyeva, Mübariz Əlizadə, Əhməd Şəfai, Neyyerzaman Hatəmi, Həsən Mahmudov, Malik Mahmudov, Mirzə Rəhimov, Aniyə Ələkbərova, Aslan Eyvazov, Şulan Şirəliyev, dosentlər Əli Azəri, Həsən Əlizadə, Yusif Şirvan, Yusif Ziya Şirvani, Təhmurəs Cahani, Ağadadaş Dadaşov, Əbdüləli Kərimov, Fəxrəntac Zülfüqarova, İsmayıl Şəms, Tofiq Cahangirov və başqaları əvəzsiz xidmətlər göstəriblər. Bu gün də fakültədə kifayət qədər tanınmış alimlər, professorlar yüksəkixtisaslı kadrların hazırlanmasında yaxından iştirak edirlər. Şərqşünaslıq fakültəsində müxtəlif ölkələrin filologiyası, dili, tarixi, ənənələri və coğrafiyası öyrənilir. Hazırda Şərqşünaslıq fakültəsində ərəb dili, fars və türk dillərini əhatə edən Yaxın Şərq dilləri, eyni zamanda ibri, yapon, urdu, Çin və Koreya dilləri tədris olunur. Fakültənin tələbələri Azərbaycanın müxtəlif ölkələrdəki səfirliklərində yüksək rütbələrdə fəaliyyət göstərir, müxtəlif tədbirlərdə tərcüməçi kimi iştirak edirlər. Bütün bunlar bizi daim sevindirir və işimizi daha yüksək səviyyədə qurmağa təşviq edir".

Yüksək standartlara cavab verən tədris auditoriyalarında, müasir dövrün tələblərinə cavab verən şəkildə tələbələrin tədris prosesinə cəlb edildiyini deyən rektor Şərqşünaslıq fakültəsinin tələbələrinə hər zaman BDU-nun adına layiq olmağı arzu edib: "BDU tələbələri kimi daim qüdrətli və çiçəklənən Azərbaycanımızın inkişafına, tərəqqisinə çalışmalısınız".

Sonra Şərqşünaslıq fakültəsinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan fakültənin 103 yaşlı tarixinin başlanğıcının ötən əsrin 20-ci illərinə gedib çıxdığını bildirib. O qeyd edib ki, fəaliyyəti dövründə Şərqşünaslıq fakültəsi daim ölkənin qabaqcıl fakültələri sırasında yer alıb. Fakültənin yetirmələri ustadlarının qayğısı, tələbkarlığı sayəsində onların yolunu davam etdirərək, özləri də pedaqoji fəaliyyətə başlayıb və artıq fakültə tarixinin bir hissəsinə çevriliblər. Fakültədə ixtisasın dili, ədəbiyyatı ilə yanaşı, tam region da öyrənilir: "Hazırda Çin filologiyası üzrə təhsil alan fakültə tələbələri bu yay Çinin Anhui Universitetində yay düşərgəsində olub, üçüncü kursdan isə göstəriciləri yüksək olan tələbələr həmin universitetdə ikili diplom proqramı üzrə təhsil alacaqlar. Tələbələrimiz mütəmadi şəkildə dil yarışlarında iştirak edir, birinci yerin qalibləri isə Yaponiya, Çin, Koreyada təhsillərini davam etdirmək şansı əldə edirlər. Bu il Qətər Universiteti ilə memorandumun imzalanması baş tutacaq, Ayn Şəms Universiteti ilə də danışıqlar aparılır. Fakültə xarici səfirliklər, Yunus Əmrə İnstitutu, TİKA, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu kimi müxtəlif qurumlarla sıx əməkdaşlıq edir. Fakültənin məzunları böyük şərqşünaslar ordusu yaradıblar".

Daha sonra Milli Məclisin üzvü, Türk filologiyası kafedrasının professoru Jalə Əliyeva, Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov, Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının dosenti Əsmətxanım Məmmədova, tələbələr Qüdrət Yusifli, Sevda Məcidli, Rəna Ağayeva çıxışlarında fakültənin tarixindən, tələbəlik həyatından danışıb, xatirələrini bölüşüblər. Şərqşünaslıq fakültəsinin hazırda Küveyt Universitetinin Dillər Mərkəzində bir il müddətində ərəb dilinin təkmilləşdirilməsi kursunda iştirak edən 4 məzununun videomüraciəti izlənilib.

Tədbir tələbələrin müxtəlif Şərq dillərində çıxışları ilə başa çatıb.

# Macarıstanın Mathias Corvinus Collegium Universitetinin nümayəndə heyəti BDU-da

***Oktyabrın 28-də Bakı Dövlət Universitetində Macarıstanın Mathias Corvinus Collegium Universitetinin Beynəlxalq Münasibətlər Məktəbinin tədqiqatçısı Klementina Kozma, Beynəlxalq İqtisadiyyat Mərkəzinin koordinatoru Monika Kuznetsova və macar tələbələrlə görüş keçirilib.***

BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov ali təhsil müəssisələrinin fəaliyyətində beynəlxalq əlaqələrin, xüsusilə tələbə mübadiləsinin önəmli yer tutduğunu bildirib. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışlı Azərbaycan və Macarıstanın Türk dünyasında ortaq maraq və düşüncələrə sahib olduğunu vurğulayıb, bu baxımdan təhsil və elmi əməkdaşlıq əlaqələrinin əhəmiyyətindən danışıb. Maliyyə və menecment kafedrasının müdiri Kamran Eyyubov sahibkarlıq və menecment sahəsində innovativ yanaşmaların tətbiqi və əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb. Görüşdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin əməkdaşı Aydan Hüseynzadə də iştirak edib.

Qonaqlar həyata keçirdikləri elmi tədqiqat işləri haqqında məlumat verərək, BDU alimləri ilə ortaq araşdırmaların aparılması imkanlarını müzakirə ediblər. Görüşdə həmçinin tələbələrin sahibkarlıq və innovasiya sahəsində daha fəal iştirakı, yeni əməkdaşlıq layihələrinin qurulması barədə fikir mübadiləsi aparılıb.

# BDU tələbələri üçün "Startap və innovasiyalar" mövzusunda təlim

*Oktyabrın 24-də BDU-nun Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Nomail" MMC-nin təsisçisi və icraçı direktoru Aqşin Nəbizadə tərəfindən "Startap və innovasiyalar" mövzusunda təlim keçirilib.*



Təlimdə yeni innovativ fikirlər və biznesin qurulması yolları barədə tələbələrə məlumat verilib. Həmçinin bazarın və risklərin dəyərləndirilməsi, layihələrin investorlara təqdim edilməsi, onlarla görüşlərə hazırlıq, komanda ilə işləmək qaydaları, mentorların seçilməsi, startap layihələrinə investor axtarışı istiqamətlərində təcrübələr bölüşülüb.

Təlimin məqsədi gənclərin startap sahəsində bilik və bacarıqlarının artırılmasına dəstək göstərməkdir.

Sonda tələbələrin mövzu ətrafındakı sualları cavablandırılıb.

# "Qızıl qələmlər" layihəsi çərçivəsində ədəbiyyatşünas alim, publisist Məti Osmanoğlu ilə görüş

*Oktyabrın 24-də "BDU könüllüləri" təşkilatının "PennaDoro" klubunun təşkilatçılığı ilə "Qızıl qələmlər" layihəsi çərçivəsində Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, publisist Məti Osmanoğlu ilə görüş keçirilib.*

Görüşdə publisist yazı sənəti, esse janrının tarixi, quruluşu, uğurlu yazar olmaq üçün əsas tələblər kimi bir sıra əhəmiyyətli məsələlərdən söz açıb. Görkəmli ədiblərin və şairlərin yaradıcılığından nümunələr səsləndirən ədəbiyyatşünas alim onları təhlil edib, fikri düzgün ifadə etmənin incəlikləri haqqında məlumat verib.

Görüş müzakirələrlə davam edib. Qeyd edək ki, "Qızıl qələmlər" layihəsinin əsas məqsədi tanınmış ədəbiyyatşünaslarla tələbələrin görüşünü təşkil etmək, yazı qabiliyyətini inkişaf etdirmək istəyən gənclərə dəstək olmaqdır.

# BDU ölkəmizdə milli elmi kadr potensialının formalaşdırılması missiyasını uğurla davam etdirir

***Dayanıqlı inkişafı, gənclərin elmi fəaliyyətə cəlb olunmasını, yeni elmi məktəblərin yaradılması və genişləndirilməsini özünün əsas məqsədlərindən biri hesab edən BDU-da elmi tədqiqatların keyfiyyətinin artırılması və milli kadr potensialının formalaşdırılmasına üstünlük verilir.*** 2024-cü ildə BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşları tərəfindən aparılan elmi-tədqiqatların nəticələri "Web of Science" və "Scopus" bazalarında indekslənən jurnallarda, 14-ü Q1 və 17-si Q2 kateqoriyalı jurnallarda olmaqla, 52-dən çox elmi əsərdə öz əksini tapıb. Bu elmi-tədqiqatlarda alınmış nəticələrin əksər hissəsi (yarıdan çoxu) gənc tədqiqatçılara məxsusdur.

Mərkəzin müxtəlif elmi-tədqiqat laboratoriyalarında çalışan gənc tədqiqatçılar ABŞ, Litva, Portuqaliya, Hollandiya, Makedoniya, İtaliya, Türkiyə, İsveçrə, Albaniya, Sloveniya və s. kimi ölkələrdə keçirilmiş 25-dən çox beynəlxalq, 15-dən artıq respublika konfransları və elmi seminarlarda apardıqları tədqiqatların nəticələri üzrə məruzələrlə çıxış ediblər.

Gənc tədqiqatçılar 2024-cü ildə dünyanın müxtəlif ölkələrinin aparıcı universitet və institutlarının elmi-tədqiqat laboratoriyalarında prioritet elm sahələri üzrə birgə tədqiqatlar aparıblar. Belə ki, BDU-nun gənc tədqiqatçılarından Aynurə Kərimova Almaniyanın Heydelberq Universiteti, Günel Əliyeva Türkiyənin Hacettəpə Universiteti, Zeynəb Addayeva Yıldız Texniki Universiteti, Orxan Güləhmədov Makedoniyanın Skopye Müqəddəs Kiril və Mefodi Universiteti, Aygün İsrayılova ABŞ-nin Emory Universiteti, Məhəmməd Bağır Bağırov Sloveniyanın Metallar və Texnologiya İnstitutu, Xatirə Mehtiyeva İtaliyanın Kalabriya Universitetində və s. birgə tədqiqatlar aparıb və aldıqları elmi nəticələrin istehsalatın müxtəlif sahələrində tətbiqi üzrə xarici ölkə mütəxəssislərinin təcrübəsini öyrəniblər.

# 14 xarici tələbə Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində BDU-da təhsil alacaq

*2024-2025-ci tədris ili üzrə Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində Azərbaycanın ali təhsil müəssisələrinə qəbul olunan 47 xarici tələbədən 14-ü Bakı Dövlət Universitetində təhsil alacaq.*

Onlardan 11 nəfəri Çin Xalq Respublikası, 1-i Serbiya, 1-i Tacikistan, 1-i Rumıniya vətəndaşıdır. Xarici tələbələr BDU-nun "Beynəlxalq münasibətlər", "Jurnalistika", "Sosial iş", "Regionşünaslıq", "Filologiya", "Ekologiya", "Riyaziyyat" və "Təhsildə sosial-psixoloji xidmət" ixtisasları üzrə təhsil almaq imkanı əldə ediblər.

# BDU-da elmi seminar: "İtaliyada türk dillərinin öyrənilməsi"

***Oktyabrın 17-də Filologiya fakültəsinin Türkologiya kafedrasında "İtaliyada türk dillərinin öyrənilməsi" mövzusunda elmi seminar keçirilib. Seminarda Türkologiya kafedrasının professor-müəllim heyəti və magistrantları iştirak ediblər.***

Kafedra müdiri, professor Məhərrəm Məmmədov seminarın mövzusunun əhəmiyyətinə toxunub, Avropada fəaliyyət göstərən əsas türkoloji mərkəzlərin, o cümlədən italyan türkoloqlarının fəaliyyətinin araşdırılmasının vacibliyini diqqətə çatdırıb.

Mövzu ilə bağlı məruzə edən "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasının elmi işçisi Pərvin Eyvazov İtaliyada aparılan türkoloji tədqiqatlar, xüsusilə türk dillərinin öyrənilməsinə dair araşdırmalar haqqında ətraflı məlumat verib. Məruzədə Avropada türklər haqqında yazılmış ilk araşdırmaların müəllifləri olan Andrea Dandolo, Filippo Argenti, Pyetro Ferraquto, Covanni Battista Donado, Cambattista Toderini, habelə müasir italyan türkologiyasının görkəmli nümayəndələri Luici Bonelli, Ettore Rossi, Alessio Bombaci, Aldo Qallotta, Anna Masala və başqa alimlərin fəaliyyətlərindən ətraflı söz açılıb, İtaliyanın Neapol Şərqşünaslıq Universiteti, Ka Foskari Venesiya Universiteti, Florensiya Universiteti, Leççe Salento Universiteti, Roma Sapientsa Universitetinin və s. italyan türkologiyasının inkişafındakı rolundan bəhs edilib.

Professor Elbrus Əzizov, dosentlər Firəngiz Kərimli və Kəmalə Nəcəfova, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev və başqaları məruzəçiyə suallar ünvanlayıb, mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Seminar müzakirələrlə yekunlaşıb.

# BDU-nun Psixoloji yardım sektorunun "Oxu klubu"nda tələbələrlə görüş

*Oktyabrın 17-də BDU-nun Psixoloji yardım sektorunun nəzdində fəaliyyət göstərən "Oxu klubu"nun bu tədris ilində tələbələrlə ilk görüşü keçirilib.*



Universitetin müxtəlif fakültələrindən olan tələbələrin iştirak etdiyi görüşdə iştirakçılara "Oxu klubu"nun məqsədi və fəaliyyət planı haqqında məlumat verilib. Tələbələrin mütaliə bacarıqlarının artırılması və şəxsi inkişaflarının təmin edilməsi məqsədilə müxtəlif ədəbiyyat nümunələri müzakirə olunub, tapşırıqlar verilib.

"Oxu klubu"nun yaradılmasında məqsəd Universitet əməkdaşları və tələbələrinin təhsil və şəxsi inkişaf səviyyəsinin artırılmasıdır.

# BDU-da elmi seminar: "Səbəb-nəticə münasibətləri mövqeyindən parazitizmə baxış"

***Oktyabrın 24-də Biologiya fakültəsində "Səbəb-nəticə münasibətləri mövqeyindən parazitizmə baxış" mövzusunda elmi seminar keçirilib. Seminarda Biologiya fakültəsinin dosenti Asif Manafov mövzu ilə bağlı məruzə edib.***

Seminarda parazitizmin meydana gəlməsi, inkişafı, yayılması, formaları, mahiyyəti ilə bağlı mövcud konsepsiya, tərif, təyinat və nəzəriyyələrin səbəb-nəticə münasibətləri (SNM) mövqeyindən təhlilinin nəticələri müzakirə edilib. Məruzəçi parazitizmin antropogen amillərin birbaşa və ya dolayı təsirinin nəticəsi olaraq meydana gəldiyinə dair yeni konsepsiyanın başlıca müddəalarını şərh edib.

Asif Manafov bildirib ki, tədqiqat parazitologiyanın bütün tarixi inkişaf dövrləri ərzində toplanmış çox zəngin və geniş diapazonlu ədəbiyyat materialları və real faktlar əsasında aparılan təhlillərə əsaslanır.

Sonda iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

# "Üzvi kimya ilə bağlı araşdırmalar aparmaq istəyirəm" - BDU-nun ən gənc tələbəsi

*O, BDU-nun ən gənc tələbəsidir. BDU-nun Kimya fakültəsinin "Kimya müəllimliyi" ixtisası üzrə I kurs tələbəsi olan Gülsüm Əhmədova seçdiyi sahəni çox sevir. Gülsüm kimyanı gələcək nəsillərə sevdirmək, bu sahəyə təşviq etmək üçün yeni metodlar üzərində işlədiyini deyir:*




- Şirvan şəhəri 14 №-li tam orta məktəbi bitirmişəm. 5 yaşımda birinci sinfə getmişəm. Sinfimizdə də ən balaca mən idim. Buna baxmayaraq, dərslərimdə və sinif yoldaşlarımla münasibətdə çətinliyim olmayıb. VIII sinifdən IV qrup üzrə hazırlaşmağa başladım. Əvvəldən kimyaya marağım olduğu və müəllimlik peşəsini sevdiyim üçün bu ixtisası seçmişəm.

***- Gülsüm, kimyaya həvəsi kim oyadıb səndə?***

- Altı-yeddi yaşımdan kimyaya marağım olub. Dayım və nənəm kimyaçıdır. Hətta dərslərimi bəzən dayımla birgə məsləhətləşərək edirdik, mənim üçün çox maraqlı olurdu, kimyaya həvəsim daha da artırdı. VIII sinifdən kimya üzrə hazırlıq müəllimim isə bu sahə üzrə müəllim olmağım üçün stimul yaratdı. Məktəb vaxtı laboratoriyamız olmasa belə, kimya ilə bağlı keçirilən tədbirlərdə, evdə müxtəlif reaksiyalar aparır, maddələrin bir-biri ilə sadə sintezi zamanı baş verən halları müşahidə etməyi sevirdim. Bunun üçün dərslikdən əlavə, internetdə də araşdırma aparırdım.

***- Deyirlər, kimya çətin fəndir. Bəs sənin üçün necə? Gələcəkdə müəllim olduqda şagirdlərinə bu fənni sevdirmək üçün hansı metodlardan istifadə edəcəksən?***

- Müəllimim sadə və anlaşılan dildə izah etdiyi üçün heç vaxt kimyanı başa düşməkdə çətinlik çəkməmişəm. Buna bəlkə də həmin fənnə olan sevgim səbəb olurdu. Mən də müəllim olduqdan sonra kimyanı mürəkkəb ifadələrlə deyil, rahat və sadə şəkildə şagirdlərə izah edərək sevdirəcəm. Bu fənnin uşaqların yadında daha yaxşı qalması üçün maraqlı üsullarla yeniliklər etməyi də fikirləşirəm.

***- Kimyada diqqətini çəkən, araşdırmağı istədiyin mövzu varmı?***

- Uşaqlıqda yeni kimyəvi element yaratmaq istəyirdim. Mən də məşhur kimyaçılar kimi böyük kəşflər edib, kimya tarixində yer almaq istəyirdim. Kimyada ən çox araşdırma aparmaq istədiyim və maraqlandığım istiqamət üzvi kimyadır. Məktəb dövründən üzvi kimya marağımı cəlb edib. Zavodlarda üzvi kimyadan istifadə ilə aparılan reaksiyalarla yaxından tanış olub, öyrənmək istəyərəm. Universitetdə də bunu araşdırmaq arzusundayam, müəllim olanda da.

***- BDU-ya qəbul xəbərini eşitdikdə hansı hissləri keçirdin? Həm də sən hazırda ən gənc tələbəsən.***

- Cavabların çıxmasına az qalmış çox səbirsizlənirdim. Cavab çıxanda həyəcandan ağladım. BDU-ya qəbul olduğumu görəndə isə çox sevindim. Çünki BDU ölkəmizin ilk və ən nüfuzlu universitetidir. Ən gənc olduğumu elə sizdən öyrəndim. Mükəmməl ali təhsil almaq, peşəmdə uğur qazanmaq, valideynlərimi sevindirmək istəyirəm.

*Hazırladı:*
*Nurlan Cəbrayılzadə*

# BDU Türkiyənin Rəcəb Tayyib Ərdoğan Universiteti ilə "Erasmus" mübadilə protokolu imzalayıb

***Oktyabrın 18-də BDU ilə Türkiyə Cümhuriyyətinin Rəcəb Tayyib Ərdoğan Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Türkiyənin Rəcəb Tayyib Ərdoğan Universitetinin əsası 2006-cı ildə qoyulub. 15 fakültə, 1 institut, 3 kollec, 6 peşə məktəbi və 18 tədqiqat mərkəzinin fəaliyyət göstərdiyi universitetdə 17000-ə yaxın tələbə təhsil alır.

# "COP29 ekoloji və sosial-iqtisadi davamlılığın təminatçısı kimi" mövzusunda dəyirmi masa

***Oktyabrın 23-də BDU-da Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində BDU və Təhsil İnstitutunun (ARTİ) birgə təşkilatçılığı, BDU-nun Tələbə Gənclər Təşkilatının dəstəyi ilə "COP29 ekoloji və sosial-iqtisadi davamlılığın təminatçısı kimi" mövzusunda dəyirmi masa keçirilib.***

Tədbirin moderatoru, ARTİ-nin şöbə müdiri, dosent Aynur Paşayeva təhsil müəssisələrində iqlim dəyişikliyi və COP29 ilə bağlı maarifləndirmə kampaniyalarının aparılmasının vacibliyindən, mövzunun aktuallığından danışaraq, dəyirmi masanın təşkilinin tələbələr üçün maraqlı və düşündürücü olacağını vurğulayıb. Azərbaycanda ətraf mühitin, ekologiyanın qorunması sahəsində görülən işlər, iqlim dəyişiklikləri zamanı baş verən problemlərin qarşısının alınması üçün həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Dəyirmi masada "Yaşıl iqtisadiyyat və kənd təsərrüfatının dayanıqlı inkişafı" mövzusunda məruzə edən BDU-nun dosenti Qoşqar Məmmədov kənd təsərrüfatının yaşıl iqtisadiyyat üçün mühüm mərkəz olduğunu vurğulayıb, təbii sərvətlərdən səmərəli istifadə, itkilərin minimuma endirilməsi, ətraf mühitə təsirlərin azaldılması nəticəsində məhsuldarlığın artırılması kimi mühüm məsələlərə toxunub.

BDU-nun dosenti Azər Cəfərov "İqlim dəyişmələri və Azərbaycan" adlı məruzəsində isə qeyd edib ki, iqlim dəyişmələri planetimiz üçün yenilik deyil. Geoloji tariximizdə soyuqlaşma, istiləşmə dövrləri çox olub, bu dövrlər tədricən baş verdiyindən ekoloji sistemlərin adaptasiyasına əngəl yaratmayıb.

Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti İlqar Xəlilov "COP29 iqtisadi davamlılığın təminatçısı kimi", baş müəllimi Cəmilə Həsənova "COP29 və sosial ədalətin təşviqi: rəqəmsal idarəetmə texnologiyaların sosial bərabərliyi", ARTİ-nin baş mütəxəssisi, biologiya üzrə elmlər namizədi Məhəbbət Paşayeva ""Yaşıl dünya naminə həmrəylik ili"ndə COP29-un Azərbaycan üçün əhəmiyyəti" mövzularında məruzə ediblər.

Dəyirmi masa müzakirələrlə davam edib.

# BDU-nun 4 tələbəsi Milanda 75-ci Beynəlxalq Astronavtika Konqresində təqdimat edib

***BDU-nun SABAH qruplarının İtaliyanın Milan şəhərində 75-ci Beynəlxalq Astronavtika Konqresində iştirak edən 4 tələbəsi bu gün təqdimatlarını nümayiş etdiriblər.***

Belə ki, BDU-nun SABAH qruplarının "Psixologiya" ixtisası üzrə IV kurs tələbələri Rəvan Əlizadə "Kosmosa uçuş və mikroqravitasiyanın beyinə təsirləri", Nərgiz Əliyarlı "Kosmosda menstruasiyanın psixofizioloji aspektlərinin araşdırılması", Elza Səlimli "Kosmosda koqnitiv davranış terapiyasınln tətbiqi", "Kosmosda turizmin psixososial çətinlikləri", Fidan Hüseynzadə ""Perseverance Rover"in Marsda missiyası" və "Kosmosda anoreksiya nevroza" mövzularında təqdimatlar ediblər.

Qeyd edək ki, oktyabrın 18-dək davam edəcək konqresdə kosmik sahədə qazanılan uğurlar və yeni trendlər müzakirə olunur. 120 ölkədən 11 mindən çox nümayəndənin iştirak etdiyi Milan Konqresində 200 texniki sessiyada 2400-dək elmi məqalə təqdim edilir. Konqresdə Azərbaycanı "Azərkosmos"un nümayəndə heyəti təmsil edir. Konqresə ölkəmizdən 52 tələbə, gənc mütəxəssis və alimdən ibarət milli elmi komanda qatılıb.

# BDU könüllüləri Azərbaycan Milli Xalça Muzeyində

***Oktyabrın 18-də "BDU könüllüləri" təşkilatının Şərqşünaslıq fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə Azərbaycan Milli Xalça Muzeyinə ekskursiya təşkil olunub.***



Könüllülər muzeydəki eksponatlar, müxtəlif ekspozisiyalar və Azərbaycanın ayrı-ayrı bölgələrinə aid klassik xalça nümunələri, həmçinin xalça hazırlamaq üçün istifadə edilən zəruri xammal və ləvazimatlarla tanış olublar. Könüllülərə milli mədəniyyətimizin mühüm bir hissəsi olan xalçaçılıq ənənələri və tarixi haqqında geniş məlumat verilib.

Ekskursiya zamanı könüllülər həmçinin muzeydə müxtəlif qrafik lövhələr və tabloların yer aldığı "Qənirə Paşayeva – İTHAF" adlı bədii sərgini də ziyarət ediblər.

# BDU Ege Universiteti ilə "Orhun" mübadilə protokolu imzalayıb

***Oktyabrın 15-də Bakı Dövlət Universiteti (BDU) ilə Türkiyənin Ege Universiteti arasında "Orhun" mübadilə protokolu imzalanıb. Protokolu BDU-nun rektoru Elçin Babayev və Ege Universitetinin rektoru İlkin Şengün imzalayıb.***

Protokol çərçivəsində tələbələrin, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Qeyd edək ki, 1955-ci ildən fəaliyyət göstərən Ege Universitetində 19 fakültə var. Ege Universiteti "QS World University Rankings"də 1001-1200, "QS WUR Ranking By Subject" 251-300, "Times Higher Education" reytinqində isə 1201-1500-cü pillədə yer alır.

# BDU-nun SABAH qruplarının 10 tələbəsi "PAŞA Holding"in "Əlaçı" təqaüdünə layiq görülüb

***Bakı Dövlət Universitetinin SABAH qruplarının "Hüquqşünaslıq" ixtisasının III kurs tələbələri Rafət Qaraşlı, Camal Əzimov, Nicat Vəliyev, Murad Əsgərov, Tural Dəmirov, IV kurs tələbələri Xədicə Bəşirzadə, İsmayıl İsmayılov, Ziyəddin İsmayılov, Aytən Məmmədova, Fidan Məmmədzadə "PAŞA Holding"in "Əlaçı" təqaüd proqramının qalibi olublar.***

2024/2025-ci tədris ilini əhatə edən təqaüd proqramı çərçivəsində tələbələr şəxsi və karyera inkişafı üzrə təlim proqramları, karyera məsləhətləri və mentorluq, şəbəkələşmə fəaliyyətlərinə cəlb olunacaqlar.

Tələbələrimizi təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq!

# BDU EIFL.net beynəlxalq konsorsiumunun Baş Assambleyasında təmsil olunub

***BDU-nun Elmi Kitabxanası Kitabxanalar üçün Elektron İnformasiya Beynəlxalq Konsorsiumunun (EIFL.net) Baş Assambleyasında təmsil olunub. Türkiyənin İstanbul şəhərində keçirilən tədbirdə BDU-nun Elmi Kitabxanasının Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri Cəmilə Yusifova iştirak edib.***

EIFL.net Beynəlxalq Konsorsiumu Afrika, Asiya və Avropanın 54 ölkəsində 3000 kitabxananı özündə birləşdirir. Bütün tərəfdaş ölkələri bir araya gətirən Baş Assambleya EIFL-ın ildə bir dəfə keçirilən əsas toplantısıdır. Tədbirin əsas məqsədi üzv olan ölkə konsorsiumları və aparıcı nəşriyyatların peşəkar mütəxəssisləri ilə bilik və bacarıqları paylaşmaq, informasiya çeşidini artırmaq, maarifləndirməni genişləndirmək, inkişaf etməkdə olan və keçid dövrü yaşayan ölkələrdə



cəmiyyət üzvlərinin elmi elektron informasiyadan istifadəsini təmin etməkdir.

Baş Assambleyada 42 xarici ölkə və 15 beynəlxalq nəşriyyatın nümayəndələri iştirak edib. Tədbirin ilk günündə EIFL.net-in direktoru Rima Kuprute 2024-cü ildə görülən işlərə dair hesabat verib, gələn il üçün nəzərdə tutulan yeniliklərdən söz açıb. Sonra koordinatorlar İrina Kuçma "EIFL - Açıq giriş", Teresa Haket "Müəllif hüquqları", Brit-Mariya Vaydberq "EIFL-Hüquqi sənədlər" proqramları üzrə görülən işlər haqqında ətraflı məlumat veriblər.

Akademik kitabxanalarda tədqiqatlara dəstək üzrə təcrübənin öyrənilməsi, universitet kitabxanalarında konsorsiumlar vasitəsilə bilik mübadiləsi mövzularına həsr olunmuş tədbirin ikinci günündə 42 ölkə üzrə konsorsium rəhbəri və koordinatorların, o cümlədən BDU-nun Elmi Kitabxanasının Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri, Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun rəhbəri Cəmilə Yusifovanın təqdimatı dinlənilib.

Tədbirin son günündə EIFL.net-in İdarə Heyətinin sədri Emilya Banyonitinin moderatorluğu ilə "Nümunəvi konsorsiumlar necə idarə olunur?" mövzusunda təqdimatlar olub.

Tədbir müddətində nüfuzlu beynəlxalq nəşriyyat və aqreqatorların (EBSCO, "Sage", "Cambridge University Press", "Oxford University Press", "Brill", JSTOR və s.) təmsilçiləri ilə canlı görüşlər keçirilib, abunəlik və lisenziyalaşdırma üzrə danışıqlar aparılıb.

Qeyd edək ki, BDU-nun Elmi Kitabxanasında fəaliyyət göstərən Az.KİK 2003-cü ildən EIFL.net-in üzvüdür. Elmi Kitabxana Baş Assambleyada iştirakla yalnız BDU-nu deyil, eyni zamanda Az.KİK-ə üzv olan akademik kitabxanaları təmsil edib.

# BDU-da "Sağlam gələcək: Narkotikdən uzaq ol" adlı maarifləndirici tədbir

***Oktyabrın 16-da Biologiya fakültəsində "Sağlam gələcək: Narkotikdən uzaq ol" adlı maarifləndirici tədbir keçirilib.***

Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Yusif Abiyev narkomaniyanın və psixotrop maddələrin cəmiyyətə, gənc nəslin sağlamlığına yaratdığı təhlükələrdən bəhs edib, BDU-da bu istiqamətdə vaxtaşırı ardıcıl tədbirlərin keçirildiyini bildirib.

Tədbirin əsas məruzəçisi, Medi-Art Psixi Sağlamlıq Mərkəzinin baş həkimi, psixiatr-narkoloq, tibb elmləri doktoru Araz Əliquliyev narkotik maddələrin psixoloji və fiziki asılılığa səbəb olduğunu vurğulayıb. Qeyd edib ki, narkotik maddələr insanın beyin fəaliyyətinə birbaşa təsir göstərir, sinir sistemini zədələyir. Bu maddələrdən uzunmüddətli istifadə insanın düşünmə qabiliyyətini, emosional sabitliyini və qərar qəbuletmə proseslərini pozur.

Məruzəçi bildirib ki, narkomaniya ilə mübarizə təkcə hüquqi tədbirlərlə məhdudlaşmamalıdır. Hüquqi tədbirlər narkotik maddələrin qanunsuz dövriyyəsini və istifadəsini azaltmağa yönəlsə də, əslində bu problemin həlli üçün geniş sosial və psixoloji yanaşma tələb olunur. O, narkotik asılılığı olan şəxslərə müvafiq psixoloji dəstəyin göstərilməsinin vacibliyini qeyd edib. Həkim asılılıqdan qurtulmaq üçün düzgün psixoloji məsləhət, dəstək və reabilitasiya prosesinin həyata keçirilməsinin, insanların sosial mühitə yenidən inteqrasiya edilməsinin zəruri olduğunu vurğulayıb. Çünki narkomaniya yalnız bir şəxsin həyatına deyil, onun ailəsinə və cəmiyyətin bütövlükdə rifahına təsir edən genişmiqyaslı bir problemdir.

# BDU-da məişət zorakılığının qarşısının alınması ilə bağlı diskussiya

***Oktyabrın 17-də "BDU könüllüləri" təşkilatının Hüquq, Sosial elmlər və psixologiya fakültələri üzrə üzvlərinin təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması mexanizmləri" adlı diskussiya keçirilib.*** "BDU könüllüləri"nin Sosial elmlər və psixologiya fakültəsi üzrə sədri Sevil Nəsirova, Hüquq fakültəsi üzrə sədr müavini Aysel Kərimova çıxışlarında qeyd ediblər ki, məişət zorakılığı vətəndaş cəmiyyətinin əsaslarına ciddi zərbə vurur. Ölkəmizdə məişət zorakılığı hallarının mövcudluğu hüquqi müstəvidə bu məsələ ilə mübarizəni gündəmə gətirir. Məişət zorakılığı və ya ailədə zorakılıq halları yalnız bir ailə üçün deyil, bütövlükdə cəmiyyət üçün təhlükəlidir. Bunun qarşısının alınması hüquqi, sosial və qabaqlayıcı tədbirlər görülməsini zəruri edir. Ölkəmizdə bu missiyanı yerli icra hakimiyyəti orqanları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Elm və Təhsil Nazirliyi həyata keçirir. Məişət zorakılığı ilə mübarizədə dövlət qurumları dünyanın ən tanınmış beynəlxalq təşkilatları ilə əməkdaşlıq edir, təcrübə mübadiləsi həyata keçirir.

Sonra tələbələrin mövzu ilə bağlı təklifləri dinlənilib.

# Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəisi BDU tələbələri ilə görüşüb

***Oktyabrın 17-də Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəisi Vüqar Ağayev Sosial elmlər və psixologiya fakültəsinin "Sosial iş" ixtisasında təhsil alan tələbələrlə görüşüb.***

BDU-nun Sosial iş kafedrasının müdiri, dosent Üzeyir Şəfiyev sosial iş təhsili ilə xidmət sektorunun əməkdaşlığı istiqamətində bu cür görüşlərin əhəmiyyətli olduğunu bildirib. Qeyd edib ki, tələbələrin Universitetdə biliklə yanaşı, sosial iş istiqamətində praktik bacarıqlar əldə etməsi çox vacibdir.

Xidmətin rəisi Vüqar Ağayev gələcəyin sosial işçilərini probasiya sahəsində könüllü fəaliyyətə, birgə əməkdaşlığa dəvət edib. Probasiya xidməti ilə bağlı birgə tədqiqat işlərinin aparılması, təşəbbüslərin göstərilməsi, ideya bankının yaradılaraq gerçəkləşdirilməsinin lazım olduğunu deyib.

Görüş iştirakçıların çoxsaylı suallarının cavablandırılması ilə başa çatıb.

# BDU tələbələri iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığı təşviq edirlər



***Oktyabrın 16-da BDU-da "Azərbaycan Gənclərinin Hüquqlarının Müdafiəsi Mərkəzi" İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şura və BDU-nun Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Azərbaycan gənclərinin iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığı" mövzusunda tədbir keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib və ölkəmiz Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək. Bu, ölkəmizin qlobal ekoloji problemlərin həllində aktiv iştirakını və iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədi daşıyır. Bu baxımdan gənclərin iqlim dəyişikliyi sahəsində fəallığını artırmaq, təşəbbüslərini dəstəkləmək və iştirakçılıq mühitini formalaşdırmaq əsas vəzifələrdəndir. BDU tələbələri bu prosesdə yaxından iştirak etməyə hazırdırlar.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov tələbələrə COP29 çərçivəsində ölkəmizdə aparılan işlər barəsində məlumat verib. Həmçinin bu beynəlxalq tədbir ərəfəsində gənclərin prosesə cəlb edilməsi və birbaşa iştirakı üçün könüllülərin fəaliyyət göstərdiklərini, eyni zamanda gənclərin də çıxış edəcəyi vahid platformanın yaradılacağını qeyd edib. O qeyd edib ki, gənclərin iqlim problemlərinin həllində fəal olmaları bu prosesi daha şəffaf edir.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb, müzakirələr aparılıb.

# Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüsalə Mahirqızı Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb

*Oktyabrın 16-da Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "APA Holding" MMC-nin prezidenti, Əməkdar jurnalist Vüsalə Mahirqızı Jurnalistika fakültəsinin IV kurs tələbələri ilə görüşüb.*



Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev ölkəmizin aparıcı media agentliklərinin rəhbərləri ilə keçirilən bu cür görüşlərin tələbələr üçün həm təcrübə, həm də yeni iş imkanları baxımından faydalı olduğunu deyib. Bildirib ki, yeni dövrün tələbləri ilə ayaqlaşmaq, uyğun metodologiyadan istifadə etmək gənc jurnalistlərin uğurlu olması üçün əsas məsələlərdəndir.

Vüsalə Mahirqızı öncə Azərbaycanda onlarla jurnalist üçün məktəb olmuş "APA Media Group"un başlatdığı yeni "APA Jurnalist Məktəbi" barəsində məlumat verib. Bildirib ki, 3 ay davam edəcək ilk təlimlərə qeydiyyat bu gündən etibarən başlayıb. Ödənişsiz əsaslarla həftədə 3 dəfə müəyyən olunmuş proqram üzrə təşkil ediləcək təlimlərin ilk qonaqları tanınmış jurnalistlər Qabil Abbasoğlu və İlqar Əlfi olacaq. Təlimlər çərçivəsində təlim iştirakçıları "APA Media Group"da təcrübə keçmək imkanı da əldə edəcəklər.

Vüsalə Mahirqızı sonra tələbələrə müasir dövrün tələblərinə cavab verən jurnalistə lazım olan əsas bacarıqlar və onun peşəkarcasına tətbiqi üsullarından söz açıb: "Hazırda jurnalistlərin əsas fəaliyyət məkanı virtual mühit olduğundan sosial media vasitələrini ələ ala bilmək şərtdir. "Media menecmenti", "media redaktoru" və "media mütəxəssisi" tamam fərqli anlayışlardır. Bunların hər biri özlüyündə böyük bir media agentliyinin düzgün idarə edilməsində, tanınmasında, insanların güvənə biləcəyi bir ünvan olmasında rol oynayır. Əgər xəbər yazmaqdan danışırıqsa, bu, bir bacarıqdır, ancaq qeyd etdiyimiz digər bacarıqlar - idarəçilik və yenilikləri öyrənmək sonradan qazanılır. Bunun üçün jurnalistlərimizin ixtisaslaşmaları vacibdir. Xəbərlərlə işləmək hər zaman çətin olub. Bir xəbər agentliyi üçün deyilənləri doğru yazan komandanın olması, xəbər standartlarını qorumaq vacibdir. Bu müddəalar "APA Media Group" olaraq bizə həm yerli, həm də beynəlxalq müstəvidə inam qazandırıb. "APA Holding" MMC-nin tərkibinə daxil olan "Lent.az", "Kulis.az", "APA Sport" ilə biz vaxtilə spesifik saytların əsasını qoymuşuq".

Görüş tələbələrin çoxsaylı sualları ilə diskussiya şəklində davam edib.

# Avropa Azərbaycan Məktəbinin direktoru BDU tələbələrinə təlim keçib

*Oktyabrın 22-də BDU-da Tələbə Gənclər Təşkilatı, "BDU könüllüləri" və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə Avropa Azərbaycan Məktəbinin direktoru Françesko Bançininin "Gənclərin liderlik bacarıqlarının gücləndirilməsi" adlı təlimi keçirilib. Təlimdə BDU-nun tələbə və magistrantları iştirak ediblər.*




Avropa Azərbaycan Məktəbinin direktoru Françesko Bançini "Lider kimdir?", "Liderin keyfiyyətləri" və "Liderlik bacarıqlarını inkişaf etdirməyin metodları" mövzularında təqdimat edib. O, liderlik anlayışı və onun başlıca xüsusiyyətləri, bu bacarıqların inkişaf etdirilməsi yolları, məqsəd və hədəflərin düzgün müəyyən edilməsi, komanda ilə işin səmərəli qurulması və digər məsələlər barədə ətraflı məlumat verib.

Sonra mövzu ilə bağlı müzakirələr aparılıb və tələbələrin sualları cavablandırılıb.

# Audiovizual Şura BDU-nun tələbələri üçün növbəti seminar təşkil edib

*Oktyabrın 24-də Audiovizual Şura, Medianın İnkişafı Agentliyi və BDU arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq, oktyabrın 24-də Şura Jurnalistika fakültəsinin tələbələri üçün növbəti seminar təşkil edib.*

BDU-nun Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova audiovizual media və onun tənzimləməsi məsələlərinin tələbələr tərəfindən maraqla qarşılandığını, belə görüşlərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev jurnalistikada yeni trendlər, ənənəvi və yeni media, vətəndaş jurnalistikası haqqında çıxış edib.

Audiovizual Şuranın Hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Ayxan Sadıqlı "Azərbaycanda audiovizual media və onun tənzimlənməsi" mövzusunda geniş təqdimat edib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU-nun dekanı Türkiyənin Bartın Universitetinin tələbələrinə mühazirə oxuyub

*Oktyabrın 11-də İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Əlməmdar Cabbarlı Türkiyənin Bartın Universitetinin "İnformasiya və sənəd menecmenti" ixtisasının tələbələrinə 2024/2025-ci tədris ilinin başlaması münasibətilə açılış mühazirəsi oxuyub.*

"Azərbaycanda kitabxanaçılıq təhsili" mövzusunda mühazirədə ölkəmizdə kitabxanaçılıq təhsilinin yaranması və inkişaf mərhələləri tarixi xronologiya baxımından şərh edilib. Kitabxanaçılıq təhsilinin kitabxanaçılıq kursları şəklində yarandığı, daha sonra texnikumlarda, xüsusilə Bakıda yerləşən Kitabxanaçılıq Texnikumunda, Şuşa Mədəni-Maarif Texnikumunda və digər orta-ixtisas məktəblərində formalaşdığı qeyd olunub. Vurğulanıb ki, kitabxanaların sayının, eyni zamanda oxucu kütləsinin artması ali təhsilli peşəkar kitabxanaçı kadrların hazırlanmasını zərurət kimi ortaya çıxarıb. Bu məqsədlə 1947/1948-ci tədris ilində BDU-nun Filologiya fakültəsində Kitabxanaçılıq şöbəsi yaradılıb. 1962-ci ilin avqust ayında isə Universitetdə müstəqil Kitabxanaçılıq fakültəsi təşkil olunub: "BDU-nun peşəkar kadr hazırlığı sistemində fakültə həmişə xüsusi yeri və mövqeyi ilə seçilib. Fakültənin ilk dekanı Abuzər Xələfov olub. Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfov fakültənin inkişafı üçün müstəsna xidmətlər göstərib, Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbinin təməlini qoyub".

Mühazirədə qeyd olunub ki, müasir dövrün çağırışları nəzərə alınaraq BDU Elmi Şurasının 18 yanvar 2023-cü il tarixli qərarı ilə fakültə İnformasiya və sənəd menecmenti adlandırılıb. 2023/2024-cü tədris ilindən etibarən fakültədə "Kitabxanaçılıq və informasiya fəaliyyəti" ixtisası ilə yanaşı, "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisası üzrə də kadr hazırlığına başlanılıb.

Məruzədə fakültədə tədris olunan ixtisas və ixtisaslaşmaların tədris planları, fənlərin məqsədi, təlim nəticələri barədə ətraflı məlumat verilib. Ali kitabxanaçılıq təhsilinin səviyyəsinin daha da artırılmasının prioritet məqsəd kimi qarşıya qoyulduğunu bildirən fakültə dekanı bu sahədə beynəlxalq əməkdaşlığın, xüsusilə Türkiyə Respublikasında müvafiq ixtisas üzrə kadr hazırlayan universitetlərlə əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Türkiyənin müvafiq ixtisas üzrə kadr hazırlayan 10-a yaxın universitetinin professor-müəllim heyətinin və tələbələrinin iştirakı ilə keçirilən dərs maraqla qarşılanıb, məruzəçiyə çoxsaylı suallar verilib. Mühazirənin mövzusu, eyni zamanda yeni əməkdaşlıq imkanları barədə geniş fikir mübadiləsi aparılıb.

# BDU-nun dosenti Beynəlxalq Yaşıl SAF 2024 iştirakçılarına iqlim dəyişmələri ilə bağlı təlim keçib




*Oktyabrın 25-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Coğrafi ekologiya kafedrasının dosenti Lalə Bayramova Elm və Təhsil Nazirliyi və COP29 Sədrliyinin dəstəyi, "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə keçirilən Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalının ikinci günündə iştirakçılara "İqlim dəyişmələri və dayanıqlılıq" mövzusunda təlim keçib.*

COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssisi olan Lalə Bayramova tərəfindən iştirakçılara iqlim dəyişikliyi, qlobal istiləşmə, yaşıl texnologiya, meşə ekosistemləri, nəqliyyat sektoru tullantılarının ətraf mühitə təsiri və iqlim dəyişikliklərinə səbəb olan digər amillər barədə məlumat verilib. O, iqlim dəyişikliklərinin insan həyatına zərərləri barədə danışıb, iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, builki festivalın məqsədi STEAM əsaslı tədrisin təşviqi, təhsilalanlar arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı təhsilalanların aşkara çıxarılmasıdır. Eyni zamanda, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi və 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar STEAM əsaslı yanaşmanın tətbiq edilməsidir.

# BDU-da Təhsil Tələbə Krediti Fondunun nümayəndələri ilə görüş

*Oktyabrın 9-da Təhsil Tələbə Krediti Fondunun (TTKF) nümayəndələri BDU-nun I kurs tələbələri ilə görüş keçiriblər. Fondun nümayəndəsi Fatimə Abdullayeva tələbələrə TTKF-nin fəaliyyəti və təhsil tələbə kreditinin verilməsi qaydaları barədə ətraflı məlumat verib.*



Bu layihənin sosial müdafiəsi zəif olan tələbələrə dəstək məqsədi daşıdığını vurğulayıb, tələbələri dövlətin yaratdığı imkandan yararlanmağa çağırıb. O qeyd edib ki, TTFK-nin əsas missiyası təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılmasıdır. Görüşün sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU-da "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib

*Oktyabrın 15-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Kimya fakültəsində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.*



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə təşkil edilməsi regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınmasına töhfə verir. O, belə müsabiqələrin tələbələr arasında ekoloji mədəniyyətin formalaşmasına, ekoloji biliklərin təbliğinə böyük fayda verdiyini qeyd edib.

Ümumilikdə 3 turda təşkil edilən intellektual oyunda 11 komanda yarışıb. Nəticələrə görə, "Yuli Sezar" komandası yarışın qalibi olub.

# BDU-da erməni dilinə dair təlim keçirilib

*Oktyabrın 21-də "BDU könüllüləri" təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Filologiya fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə erməni dilinə dair təlim keçirilib.*

BDU-nun Erməni Araşdırmaları və Təlim Mərkəzinin direktoru İsmayıl Tanrıverdi qeyd edib ki, erməni dilini bilmək erməni tarixini və ədəbiyyatını orijinal dildə oxumağa, mənbələrini araşdırmağa, ermənilərin Azərbaycana qarşı əsassız iddialarına elmi şəkildə cavab verməyə kömək edir. Bu dili bilmək eyni zamanda informasiya müharibəsində daha üstün mövqeyə sahib olmağa, yarana biləcək töhlükələri qabaqcadan təhlil etməyə imkan yaradır.

Daha sonra İsmayıl Tanrıverdi erməni dilinin tarixi və morfoloji quruluşu haqqında tələbələrə məlumat verib.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, tələbələrin sualları cavablandırılıb.

# BDU-nun TGT üzvləri akademik Yusif Məmmədəliyevin Memorial Muzeyində

*Oktyabrın 22-də BDU-nun Tələbə Gənclər Təşkilatının Kimya fakültəsi üzrə üzvləri akademik Yusif Məmmədəliyevin Memorial Muzeyini ziyarət ediblər.*

Muzeyin direktoru Reyhan Əliyeva bildirib ki, Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun nəzdində fəaliyyət göstərən muzeydə görkəmli kimyaçı alimin həyatını, elmi fəaliyyətini əks etdirən fotosənədlər, diplomlar, müxtəlif rəsmi sənədlər, elmi kəşflərinə dair sxemlər nümayiş etdirilir. İki bölmədən ibarət olan muzeyin birinci bölməsində akademikin yazı masası, kitab şkafı, çoxsaylı fotolar yer alır. Müasir texnologiyalara əsaslanan yeni dizaynda alimin həyatı, elmi yaradıcılığı və fəaliyyəti haqqında hazırlanmış videomateriallar xüsusi telelövhələrdə ziyarətçilərə təqdim olunur. Akademikin şəxsi fotoaparatı ilə çəkilmiş şəkillərdən hazırlanmış elektron



fotoalbom ayrı bir stenddə nümayiş olunur.

Sonra tələbələrin akademikin həyatı ilə bağlı sualları cavablandırılıb.

# BDU tələbələri üçün "Erkən nikahın fəsadları" mövzusunda sessiya

*Oktyabrın 9-da "BDU könüllüləri" təşkilatının Sosial elmlər və psixologiya fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə "Erkən nikahın fəsadları" mövzusunda məlumatlandırma sessiyası keçirilib.*

Sessiya zamanı bildirilib ki, erkən nikahlar müasir dövrün ən aktual sosial problemlərindəndir. Qanunvericiliyə əsasən, 18 yaşdan əvvəl həyata keçirilən evliliklər erkən evlilik hesab olunur və qanun pozuntusu sayılır. Digər tərəfdən də erkən yaşda uşaqlar ailə qurmağa fizioloji, psixoloji cəhətdən hazır olmurlar. Erkən nikahlar sonradan onların həyatında böyük fəsadlar yaradır. Bu fəsadlar məişət zorakılığından tutmuş, doğuş zamanı ana-uşaq ölümləri, fiziki-psixoloji çətinliklərə kimi bir çox problemlərə yol açır. Sessiyada Ailə Məcəlləsi, Cinayət Məcəlləsi və İnzibati Xətalar Məcəlləsində erkən nikahların qarşısını almağa yönəlik dəyişikliklər, ondan irəli gələn məsələlər izah olunub.

Tədbir maarifləndirmə xarakterli qısametrajlı filmin nümayişi ilə başa çatıb.

# BDU-nun I kurs tələbələri üçün "Adaptasiya" mövzusunda təlimlər keçirilir

*BDU-nun Psixoloji yardım sektoru I kurs tələbələri üçün "Adaptasiya" mövzusunda təlimlər keçirir.*

Təlimin məqsədi Universitetin I kurs tələbələrinin ali təhsil mühitinə daha tez alışmasına yardım göstərməkdir.

Təlim zamanı tələbələrin tədris və sosial həyata adaptasiyasını asanlaşdırmaq üçün nəzəri və praktiki çalışmalar edilib. Tələbələr adaptasiyada çətinlik yaradan situasiyaları təlimçi ilə bölüşüblər və prosesin daha səmərəli keçməsi üçün məsləhət alıblar.

# BDU-da "QİÇS-ə qarşı bir addım" adlı tədbir keçirilib

*Oktyabrın 15-də Biologiya fakültəsi və Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzinin birgə təşkilatçılığı ilə "QİÇS-ə qarşı bir addım" adlı tədbir keçirilib.*

Əvvəlcə Mərkəzin həkim-infeksionisti Emiliya Şahbazova QİÇS/İİV infeksiyası ilə mübarizə sahəsində ölkədə həyata keçirilən tədbirlər haqqında məlumat verib, tələbələri xəstəliyə yoluxma yolları barədə məlumatlandırıb. O, narkomaniya və digər zərərli vərdişlərlə mübarizədə daha səmərəli nəticələrə nail olmaq, gəncləri həmin sosial bəladan qorumaq, onlarda sağlam həyat tərzinə marağı artırmaq üçün maarifləndirmə işlərini diqqət mərkəzində saxlamağın, milli-mənəvi dəyərlərin təbliğinə xüsusi fikir verməyin vacibliyini vurğulayıb. Tələbələrə xəstəliyin profilaktikası, müayinə və müalicə metodlarını izah edib.

Sonra isə tələbələrə QİÇS-lə bağlı broşur və bukletlər paylanılıb. Respublika QİÇS-lə Mübarizə Mərkəzinin əməkdaşları tərəfindən ödənişsiz müayinələr keçirilib.

# BDU tələbəsi Yaqub Əliyev ölkəmizi beynəlxalq yarışda təmsil edəcək



*23-27 oktyabr tarixlərində İspaniyanın Valensiya şəhərində keçiriləcək 2024 FIA Avtoidman Oyunlarında (FIA Motorsport Games 2024) Azərbaycan ilk dəfə iştirak edəcək. Yarışda ölkəni Bakı Dövlət Universitetinin (BDU) Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin III kurs tələbəsi Yaqub Əliyev "Esports GT" kateqoriyasında təmsil edəcək.*

Pilot Azərbaycan Avtomobil Federasiyasının (AAF) dəstəyi ilə yarışda təmsil olunacaq.

Onun yarış avtomobili "Mercedes-AMG EVO GT3" olacaq. BDU tələbəsi ölkəmizi 11 nömrəli bolidlə təmsil edəcək.

20 yaşlı Yaqub Əliyev dəfələrlə ölkəmizi beynəlxalq "Esport GT" yarışlarında təmsil edib və çoxlu uğurlar qazanıb.

Yarışdan canlı yayımlar FIA Avtoidman Oyunlarının "YouTube" kanalında yayımlanacaq.

# "ABŞ və Azərbaycanda jurnalistika təhsili" mövzusunda elmi seminar



***Oktyabrın 10-da Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müəllimi Anzulə Cəfərovanın "ABŞ və Azərbaycanda jurnalistika təhsili" mövzusunda elmi seminarı keçirilib. Seminarda fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.***

Kafedra müdiri, dosent Xatirə Hüseynova bildirib ki, Anzulə Cəfərova Amerika Birləşmiş Ştatlarında "ABŞ institutlarının öyrənilməsi" ("SUSI for scholars") adlı akademik tədqiqat proqramında iştirak edib. Elmi seminarın mövzusu Arizona Dövlət Universitetində jurnalistika təhsilində tətbiq olunan modelin Azərbaycanda jurnalistika təhsili ilə müqayisəli təhlilinə həsr olunub.

Anzulə Cəfərova hazırda dünyada jurnalistika təhsilində olan yeniliklər, "Walter Cronkite" Jurnalistika və Kütləvi Kommunikasiya Məktəbində tətbiq olunan "Tədris xəstəxanası" modeli barədə ətraflı çıxış edib. O bildirib ki, jurnalistika və tibbi təhsilin müqayisə olunduğu modeldə mətbuatın cəmiyyətə birbaşa təsiri vurğulanır, tələbələrin bu istiqamətdə peşəkar qabiliyyətlərə yiyələnmələrinin önəmi göstərilir. Həmin modelin uğuru müəllim, tələbə və peşəkarların birgə fəaliyyətinə əsaslanır. Məruzəçi həmçinin BDU-nun Jurnalistika fakültəsində bu modelin tətbiqi ilə bağlı atılan addımları xüsusi dəyərləndirib.

İnteraktiv şəkildə keçən elmi seminarda iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Kosmosda evimiz - Günəş sistemini kəşf edək" mövzusunda öyrədici seminar

***BDU-nun nəzdində "Gənc istedadlar" liseyində BDU-nun Astrofizika kafedrasının təşəbbüsü ilə 4-10 oktyabr - Ümumdünya Kosmos Həftəsi çərçivəsində "Kosmosda evimiz - Günəş sistemini kəşf edək" mövzusunda öyrədici seminar keçiriliib.***

Liseyin direktoru Fuad Babayev bildirib ki, Ümumdünya Kosmos Həftəsi kosmik elm və texnologiyanın insanların rifahının yaxşılaşdırılmasına verdiyi töhfəni qeyd etmək məqsədilə 1999-cu il dekabrın 6-da BMT Baş Assambleyası tərəfindən oktyabrın 4-dən 10-dək elan edilib. Qeyd edilən tarixlər 1957-ci il oktyabrın 4-də Yerin ilk süni peykinin orbitə çıxarılması və 1967-ci il oktyabrın 10-da "Kosmik məkanın kəşfiyyatı və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri haqqında" müqavilənin qüvvəyə minməsi ilə əlaqədardır. Azərbaycanda kosmik sənayenin sürətlə inkişaf etdiyini diqqətə çatdıran Fuad Babayev məktəblilər arasında astronomiya və kosmik elmlərin təbliğinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Daha sonra BDU-nun Astrofizika kafedrasının baş müəllimi Zəminə Əliyeva, müəllimi Aynurə Əlili və doktorant Bənövşə Əsgərova şagirdləri Günəş sistemi planetləri, onların peykləri, kosmosla bağlı maraqlı məlumatlarla tanış ediblər.

Seminarın sonunda fəal şagirdlərə hədiyyələr təqdim olunub.

# BDU-da "E-tarım sulama" mövzusunda elmi seminar

***Oktyabrın 11-də BDU-nun Fizika problemləri Elmi-Tədqiqat İnstitutunda (ETİ) "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "E-tarım sulama" mövzusunda elmi seminar keçirilib.***



İnstitutun direktoru Sədiyar Rəhimov bildirib ki, ETİ-nin Kondensə olunmuş hal fizikası şöbəsinin böyük elmi işçisi Elşən Nəsirovun rəhbərlik etdiyi və Biofizika şöbəsinin dissertantı Sara Rəhimzadənin üzvü olduğu "ESST-6" komandasının "E-tarım sulama" layihəsi "TEKNOFEST-2024" Aerokosmik və Texnologiya Festivalının final mərhələsində III yerə layiq görülüb.

ETİ-nin Kondensə olunmuş hal fizikası şöbəsinin böyük elmi işçisi Elşən Nəsirov qeyd edib ki, qalib layihədə kənd təsərrüfatında avtomatik sulama, gübrələmə və torpağın monitorinqini həyata keçirmək üçün robot texnikasından istifadə imkanları və süni intellektin tətbiqi araşdırılıb. Qalib komandanın yaratdığı sistem mərkəzi və bir neçə sahə stansiyasından ibarət olmaqla süni intellektin tətbiqi ilə əkin sahələrini avtomatik sulama, gübrələmə və torpağın monitorinqini həyata keçirmək üçün nəzərdə tutulub.

Sahə stansiyaları müxtəlif sensorlar vasitəsi ilə torpağın nəmliyini, duzluluğunu və temperaturunu ölçür və bu parametrləri radiodalğalarla mərkəzi stansiyaya ötürür. Mərkəzi stansiya xüsusi proqram sayəsində sahə stansiyasından gələn məlumatları və əkilmiş bitki növünün optimal məhsuldarlığı üçün suvarılma meyarlarını analiz edir, sahənin nə zaman və nə qədər sulanmasına qərar verir, avtomatik qurğularla bunu həyata keçirir. Hazırlanan mobil aplikasiya vasitəsi ilə fermer mobil telefonundan bütün məlumatları və prosesləri izləyə bilir və lazım olduğunda prosesə müdaxilə edir. Beləliklə, bu sistem insan əməyini minimuma endirir və bitkinin məhsuldarlığını artırır.

# BDU-da buğda genotiplərində metal oksid nanohissəciklərin antioksidant fermentlərin fəaliyyətinə təsirinə dair araşdırmalar aparılır

***Oktyabrın 8-də Biologiya fakültəsinin Biofizika və biokimya kafedrasının doktorantı Günel İsmayılova tərəfindən "Buğda genotiplərinin yarpaqlarında metal oksid nanohissəciklərinin antioksidant fermentlərin fəaliyyətinə təsiri" mövzusunda elmi seminar keçirib.***

Mühazirəçi müxtəlif buğda genotiplərinin cücərtilərində dəmir, sink, titan və alüminium oksidləri nanohissəciklərinin müxtəlif qatılıqlarda polifenoloksidaza, askorbatperoksidaza, katalaza və superoksiddismutaza kimi fermentlərin aktivliyinə, fotosintetik piqmentlərin miqdarına və məhsuldarlıq parametrlərinə təsiri haqqında məlumat verib. Qeyd edib ki, tədqiqatlarda istifadə olunan metal oksidi nanohissəciklərinin antioksidant fermentlərin fəaliyyətinə təsiri mövcuddur və bu, dozadan asılı xarakter daşıyır. Belə ki, yumşaq və bərk buğda sortlarının cücərtilərində dəmir, sink və titan oksidi nanohissəciklərinin antioksidant fermentlərin aktivliyinə stimullaşdırıcı təsiri 0,01 mM qatılıqda müəyyən edilib. Alüminium oksidi nanohissəcikləri isə istifadə edilmiş bütün qatılıqlarda supressiv təsir göstərib.

Sonda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU-da insan resurslarının idarəedilməsi üzrə təlim keçirilib

***Oktyabrın 10-da BDU-da insan resurslarının idarəedilməsi üzrə təlim keçirilib.***

Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının professoru Mayis Əliyev insan resurslarının elektron idarə edilməsi, Əmək Məcəlləsində edilmiş dəyişikliklər barədə geniş məlumat verib. Məlumatlandırma sessiyasından sonra Mayis Əliyev Əmək Məcəlləsində edilmiş dəyişikliklərin şərhini verərək, onların tətbiqi qaydalarını izah edib. Bildirib ki, əmək münasibətlərinin tənzimlənməsində elektron informasiya sistemlərinin daha geniş tətbiqi işəgötürənlərin məsuliyyətini artırır, əmək münasibətlərinin daha şəffaf mühitdə reallaşmasını təmin edir, dövlət orqanları tərəfindən işəgötürənlərin əmək qanunvericiliyinin tətbiqinə nəzarətinin daha dəqiq və sürətli aparılmasına imkan yaradır. Əmək müqavilələrinin vaxtında və düzgün rəsmiləşdirilməsini təmin etmək, işçilərin hüquqlarının pozulmasının qarşısını almaq və işəgötürənlərin məsuliyyətini daha da artırmaq məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilib. Sessiyada qanundan irəli gələn müddəalar, bu dəyişikliklərdə diqqət edilməli olan məqamlar barəsində müfəssəl məlumat verilib.

Sessiyada elektron əmək müqavilələrinin və bundan irəli gələn digər tənzimləmələrin "SİMA" rəqəmsal həllər platformasındakı "SİMA İmza" ilə aparıldığı da diqqətə çatdırılıb.

Sessiyanın sonunda BDU əməkdaşlarının sualları cavablandırılıb.

# BDU-da "COP29 və qlobal iqlim dəyişiklikləri" mövzusunda tədbir

***Sosial elmlər və psixologiya fakültəsində "COP29 və qlobal iqlim dəyişiklikləri" mövzusunda tədbir keçirilib.***

Sosial elmlər və psixologiya fakültəsinin dekanı, dosent Rövşən Cavadov Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinin beynəlxalq əhəmiyyətindən danışıb. Bildirib ki, COP29 kimi mühüm tədbirə ev sahibliyi etməsi Azərbaycanın dünyanın beynəlxalq, ekoloji siyasətində, qlobal iqlim dəyişiklikləri ilə mübarizədə aparıcı rola malik olduğunu göstərir.

Sosial elmlər və psixologiya fakültəsinin sosial məsələlər üzrə dekan müavini Nəzakət Kərimova, Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev müasir dünyanı narahat edən qlobal ətraf mühit problemləri və iqlim dəyişmələrinin başvermə səbəbləri, bunun minimuma endirilməsi üçün ölkəmizdə görülən işlərdən söz açıblar. Qeyd ediblər ki, Ermənistanın işğalı nəticəsində Azərbaycanın 20%-ə yaxın ərazisi ekosidə məruz qalıb. Hazırda ölkəmizdə azad edilmiş ərazilərin ekoloji tarazlığının bərpası, yaşıl iqtisadiyyatın inkişafı, yaşıl enerjiyə keçid üçün böyük layihələr icra olunur, sərmayələr yatırılır.

# BDU-da Ümumdünya Layiqli Əmək Günü qeyd olunub

*Oktyabrın 7-də Hüquq fakültəsində BDU-nun Həmkarlar İttifaqı Komitəsi və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə 7 oktyabr - Ümumdünya Layiqli Əmək Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbirdə çıxış edən Əmək və ekologiya hüququ kafedrasının professoru Mayis Əliyev əmək hüququ ilə bağlı mövcud problemlərdən, işçilərin əmək hüquqlarının təmin edilməsi məqsədilə ölkədə həyata keçirilən tədbirlərdən söz açıb. Azərbaycanda mövcud olan əmək hüquq sistemini xarici dövlətlərin əmək hüquq sistemləri ilə müqayisəli izah edib.



Əmək və ekologiya hüququ kafedrasının müəllimi Fəridə Aslanova, Hüquq fakültəsinin III kurs tələbəsi Güllü Abbasova əmək hüququ münasibətlərində ayrıseçkiliyə yol verilməməsi, layiqli əməyin təmin olunması şərtlərindən bəhs edib, Ümumdünya Layiqli Əmək Gününün tarixi əhəmiyyətindən danışıblar.

İnteraktiv formada keçirilən tədbir tələbələr tərəfindən böyük maraqla qarşılanıb. Tədbir iştirakçıların mövzu ilə bağlı suallarının cavablandırılması və müzakirələrlə davam edib.

# Cəbrayıl Şəhəri Günü qeyd olunub

*Oktyabrın 3-də Kimya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşəbbüsü ilə 4 oktyabr - Cəbrayıl Şəhəri Gününə həsr olunmuş tədbir keçirilib.*

Əvvəlcə Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov bildirib ki, bu əlamətdar günün təsis olunması Cəbrayıl şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır. 44 günlük Vətən müharibəsində xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək birlik və fədakarlıq göstərib, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı, canı bahasına azad edilib. 2020-ci ilin oktyabrın 4-də Cəbrayıl şəhəri ilə yanaşı, rayonun daha 9 kəndi - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Dəjəl düşmən işğalından azad olunub. Cəbrayıl rayonunun ərazisində aparılan hərbi əməliyyatlar nəticəsində ümumilikdə 1 şəhər və 90 kənd işğaldan azad edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən il iyulun 31-də imzaladığı Sərəncama əsasən, hər il oktyabrın 4-ü Cəbrayıl Şəhəri Günü kimi qeyd olunur. Artıq işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Cəbrayıl şəhərinə 36 ailə (117 nəfər) köçürülüb.

Tədbirdə tələbələr Nəzrin Ağazadə, Rəvanə Quliyeva və Alim Məmmədov tərəfindən ədəbi-bədii kompozisiya təqdim edilib. Cəbrayıl rayonunun işğaldan azad edilməsinə həsr edilmiş videoçarx nümayiş olunub.

# BDU-da qalaktozemiya xəstəliyinin diaqnostikası üzrə araşdırmalar aparılır

*Oktyabrın 17-də Biologiya fakültəsinin Genetika kafedrasının doktorantı Nilufər Hacıyevanın "Yenidoğulmuşlarda qalaktozemiya xəstəliyinin diaqnostikası və Azərbaycanda yayılma tezliyi" mövzusunda elmi seminarı keçirilib. Fakültə rəhbərliyi və professor-müəllim heyətinin iştirak etdiyi seminar zamanı qalaktozemiya xəstəliyinin genetik səbəbləri və uşaqlarda bu xəstəliyin erkən aşkarlanmasına dair məsələlər müzakirə edilib.*

Məruzəçi bildirib ki, bu tədqiqat çərçivəsində 576 yenidoğulmuş və 138 xəstə uşaq üzərində araşdırma aparılıb. Nəticədə qalaktozemiyanın yayılma faizinin 0,86% olduğu müəyyən edilib. Dünyada yayılmış əsas irsi xəstəliklərdən biri hesab olunan qalaktozemiya Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən erkən diaqnostika proqramlarına daxil edilib. Seminarda vurğulanıb ki, erkən diaqnoz və düzgün müalicə qalaktozemiya xəstələrinin həyat keyfiyyətini xeyli yaxşılaşdırır.

Xəstələrin və ailələrinin bu barədə məlumatlı olması və lazımi tədbirlər görməsi çox vacibdir. Tədqiqat yeni müalicə üsullarının inkişaf etdirilməsinə töhfə verməyi hədəfləyir.

# BDU-nun SABAH qruplarının 4 tələbə və məzunu 2-ci "Maarifçi" təcrübə proqramının iştirakçısıdır

*BDU-nun SABAH qruplarının "Riyaziyyat müəllimliyi", "Hüquqşünaslıq" və "Coğrafiya müəllimliyi" ixtisaslarının məzunları Əminə Abbasova, Ziyvər Sədiyeva, Nəzrin Manafova və "Riyaziyyat müəllimliyi" ixtisası üzrə IV kurs tələbəsi Nərminə Qəhirmanova 2-ci "Maarifçi" tələbə-məzun təcrübə proqramının iştirakçısıdırlar.* Üç ay davam edəcək proqram çərçivəsində iştirakçılar Elm və Təhsil Nazirliyi və onun tabe qurumlarının müxtəlif struktur bölmələrində təcrübə keçəcəklər. Proqramın məqsədi tələbə və məzunlara təcrübə imkanı yaratmaq, onların bilik və bacarıqlarını artırmaq, nəzəri biliklərini real iş mühitində tətbiq etmək və gənclərə peşəkar vərdişlər qazandırmaqdır.

# Beynəlxalq Müəllimlər Günü qeyd olunub

*Oktyabrın 4-də Kimya fakültəsi Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə 5 oktyabr - Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbirdə çıxış edən BDU-nun Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov müəllimlərin ölkəmizin tərəqqisində, cəmiyyətimizin maariflənməsində, gənclərin bilikli, vətənpərvər formalaşmasında əvəzsiz rolundan bəhs edib. Bildirib ki, "Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb. Bu gün dövlət başçısı İlham Əliyev də müəllim əməyini yüksək qiymətləndirərək onlara daim diqqət və qayğı göstərir.

Sonra "Müəllimlik zirvəsi" adlı bədii-ədəbi kompozisiya nümayiş etdirilib və videoçarx nümayiş olunub.

# Psixoloji yardım sektoru I kurs tələbələri üçün təlim keçirib



*Oktyabrın 7-də BDU-nun Psixoloji yardım sektoru BDU-nun "Tələbə evi"ndə yaşayan I kurs tələbələrinə "Adaptasiya prosesində yaranan çətinliklər" mövzusunda təlim keçirib.*

Təlimin məqsədi I kurs tələbələrinin ali təhsil mühitinə daha tez alışmasına yardım göstərməkdir.

Sektorun psixoloqu Natəvan Həsənzadənin keçdiyi təlim zamanı tələbələrin fərdi adaptasiya bacarıqları müəyyən edilib, əldə olunan nəticələr qrup şəklində müzakirə olunub.

Görüşdə adaptasiya prosesi ilə bağlı tələbələri narahat edən suallar cavablandırılıb, uyğunlaşma zamanı yaranan çətinliklərin səbəbləri və onların öhdəsindən gəlmək üçün atılmalı olan addımlar izah edilib.

# BDU-da "Kosmos və iqlim dəyişikliyi" adlı tədbir keçirilib

*Oktyabrın 9-da BDU-da "Dünya Kosmos Həftəsi 2024" çərçivəsində "Kosmos və iqlim dəyişikliyi" adlı tədbir keçirilib.*



Tədbir müasir dövrdə iqlim dəyişikliyinin qlobal əhəmiyyətini və kosmik tədqiqatların bu sahədəki rolunu vurğulamaq məqsədi daşıyır.

Tədbirdə "Azərkosmos"un əməkdaşı Nəzrin Qocayeva qurumun ictimaiyyətə açıq elan etdiyi İqlim Hesabatına dair praktik məşğələyə rəhbərlik edib. Nəzrin Qocayeva iştirakçılara iqlim dəyişikliklərinin monitorinqi üçün kosmik texnologiyaların necə istifadə olunduğunu izah edərək, real vaxtda alınan məlumatların iqlim elmi üçün əhəmiyyətini diqqətə çatdırıb.

Seminarın əsas hissəsində tələbələr iqlim elmi və kosmik texnologiyalarla bağlı praktiki tapşırıqlarla məşğul olublar. Onlara kosmosdan alınan məlumatlarla iqlim dəyişikliyi haqqında konkret nümunələr təqdim edilib. Tələbələr iqlim dəyişikliyi ilə mübarizədə kosmosun rolunu dərk etmək üçün qrup şəklində müzakirələr aparıblar. İştirakçılara elmi tədqiqatların praktiki tətbiq olunduğu layihələrə dair də məlumat verilib.

# BDU əməkdaşı Bakı İqlim Fəaliyyəti Həftəsinin “Planeti qoruyan insanlar: Azərbaycandan hekayələr” adlı sessiyasında məruzə edib



***Oktyabrın 2-də BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi və ICESCO-nun Biotibbi materiallar kafedrasının müəllimi Aygün İsrayılova Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən konfransın “Planeti qoruyan insanlar: Azərbaycandan hekayələr” (“People Fixing the Planet: Stories from Azerbaijan”) mövzusundakı panel sessiyasında məruzə edib.***

İnnovativ ideya və təşəbbüslərin müzakirə edildiyi sessiyada Aygün İsrayılova neftlə çirklənmiş torpaqların təmizlənməsində tətbiq olunan mikrobioloji üsullardan, onların müsbət və mənfi cəhətlərindən söz açıb. Bildirib ki, hazırda Türkiyənin Ege Universiteti ilə birlikdə arsen ağır metal ilə çirklənmiş çayların, göllərin təmizlənməsində biolüminisent-biosensor bakteriyaların ayrılması istiqamətində tədqiqat işi aparılır. Son illərdə ali təhsil müəssisələrinin tələbələri arasında ətraf mühitin qorunması ilə bağlı tədqiqat işləri artırılıb. BDU əməkdaşı COP29 çərçivəsində də bu isitiqamətdə araşdırmaların genişləndirildiyini qeyd edib.

# BDU-nun dilçi alimləri “AZLİNQ 2024” beynəlxalq elmi konfransında məruzə ediblər

***Oktyabrın 8-də Filologiya fakültəsinin müəllim və tələbələri Heydər Əliyev Fondunun dəstəyi, “Regional İnkişaf” İctimai Birliyi və Neftçala rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı, Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, dosent Qüdsiyyə Qəmbərovanın təşəbbüsü ilə keçirilən “AZLİNQ 2024 - Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar” adlı beynəlxalq elmi konfransda iştirak ediblər.***

Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini, filologiya üzrə fəlsəfə doktoru Anar Fərəcov, Türkologiya kafedrasının dosenti, filologiya elmləri doktoru Qızılgül Abdullayeva, Azərbaycan dilçiliyi kafedrasının əməkdaşları – professor Zemfira Şahbazova, dosent Fikrət Əlizadə və baş müəllim Təranə İsmayıl, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Rəhilə Quliyeva, “Türkoloji araşdırmalar” elmi-tədqiqat laboratoriyasının elmi işçiləri – filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov və Pərvin Eyvazov, Tələbə Elmi Cəmiyyətinin üzvləri Vüsalə Rizvanova və Məlahət Cəlilova Azərbaycan dilçiliyi və türkologiyanın aktual məsələlərinə həsr olunmuş məruzələrlə çıxış ediblər.

Filologiya elmləri doktoru Qızılgül Abdullayeva, konfransın elmi heyətinin üzvləri Ramil Bayramov və Pərvin Eyvazov panel iclaslarına moderatorluq ediblər. Konfransın sonunda BDU təmsilçiləri sertifikatla təltif olunublar.

# BDU-da HUJİ ilə beynəlxalq ikili diplom proqramı çərçivəsində “Sinergetik proqram” təqdim olunub

***İsrailin Yerusəlim İbrani Universitetinin (HUJI) əməkdaşı İlya Kublanov bu ilin 7-20 oktyabr tarixlərində BDU-da səfərdə olub.***

Səfərin məqsədi “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində BDU və İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında ”Biotexnologiya” ixtisaslaşması üzrə "Sinergetik proqramlar"ın həyata keçirilməsidir. Səfər zamanı İlya Kublanov BDU-nun rektoru Elçin Babayev ilə görüşüb və Biologiya fakültəsində tələbə, magistrant, doktorant və əməkdaşlar üçün 8 mühazirədən ibarət kursu təqdim edib.

İlya Kublanovun "Mikrob metabolizmi: sonsuz variasiyalar" mövzusunda mühazirə və seminarlar kursu mikroorqanizmlərin müxtəlifliyi, onlar tərəfindən həyata keçirilən metabolik, əsasən də katabolik proseslər haqqında müasir təsəvvürlərə həsr olunub. Prokaryotların metabolizm müxtəlifliyinə həsr olunmuş mühazirələrdən əlavə, müxtəlif yaşayış yerləri mikrobiomlarının tədqiqində istifadə olunan molekulyar-filogenetik metodlar, müasir yanaşmalar, həmçinin müqayisəli genomika və digər omiks (transkriptom, proteom və s.) məlumatlarına əsaslanaraq “in silico” metabolik reaksiyaların deşifrələnməyinə imkan yaradan üsullar müzakirə olunub. Biologiyanın sürətlə inkişaf edən bu sahəsi ilə tanışlıq müvafiq istisaslaşmalar üzrə təhsilalanlar üçün olduqca önəmli, eyni zamanda kursun sonrakı mühazirələrini daha yaxşı anlamaq üçün zəruridir. Mühazirələrdə prokaryotların metabolik imkanlarının ümumi mənzərəsi nəzərdən keçirilib, katabolik proseslərin bütün zəruri komponentləri təhlil edilib. Bununla yanaşı, Yer biosferinə təsiri baxımından genişmiqyaslı proseslər, termodinamik həyat sərhədinə yaxın olan unikal və qeyri-adi proseslər nümunə olaraq göstərilib. İlya Kublanov yüksək temperatur, yüksək və aşağı pH, yüksək duzluluq, təzyiq və digər ekstremal şəraitlərdə inkişaf edə bilən ekstremofil mikroorqanizmlərə həsr olunmuş mühazirə də deyib. Mühazirədə belə mikroorqanizmlərin yaşayış yerləri, eləcə də onların qeyd olan şəraitdə uğurla mövcud olmasına imkan yaradan sabitlik mexanizmlərinin nümunələri göstərilib.

# BDU İspaniyanın Qranada Universiteti ilə “Erasmus” mübadilə protokolu imzalayıb

***Oktyabrın 16-da BDU ilə İspaniyanın Qranada Universiteti arasında “Erasmus” mübadilə protokolu imzalanıb.***

Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Qranada Universitetinin əsası 1531-ci ildə qoyulub. 22 fakültə, 5 məktəb, 14 tədqiqat institutu və 9 mərkəzin fəaliyyət göstərdiyi universitetdə 60000-ə yaxın tələbə təhsil alır.

# BDU-nun professoru Arif Səlimov Türk dünyası üzrə Əl-Xarəzmi mükafatına layiq görülüb

***Oktyabrın 4-də Türkiyənin Bursa şəhərində Türk Dünyası Elm Mükafatının təqdimetmə mərasimi keçirilib.***

BDU-nun Cəbr və həndəsə kafedrasının müdiri, Əməkdar elm xadimi, Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının Riyaziyyat və mexanika üzrə Ekspert Şurasının sədri, professor Arif Səlimov riyaziyyat sahəsindəki önəmli nailiyyətlərinə görə Əl-Xarəzmi mükafatına layiq görülüb.

Türk Dünyası Elm Mükafatları öz sahələrində əhəmiyyətli töhfələr vermiş alimlərə təqdim olunur.

# "Liderlik məktəbi" layihəsi çərçivəsində ilk görüş

***Oktyabrın 14-də BDU-da Psixoloji yardım sektorunun təşkilatçılığı ilə "Liderlik məktəbi" layihəsi çərçivəsində tələbələrlə ilk görüş keçirilib.***

***Psixoloji yardım sektorunun əməkdaşı, psixoloq Natavan Həsənzadə layihənin məqsədinin tələbələrin liderlik bacarıqlarını inkişaf etdirmək, qrup idarəetməsi, düzgün qərar qəbuletmə və effektiv ünsiyyət qurmağı öyrətmək olduğunu deyib.***

***Layihə tələbələrin şəxsi inkişafına müsbət təsir göstərəcək, onlarda inam, tənqidi düşüncə və analiz qabiliyyətlərini inkişaf etdirəcək.***

"Liderlik məktəbi" layihəsi iştirakçıların liderlik və komanda işini öyrənmələrinə dəstək olmağı hədəfləyir. Layihə çərçivəsində tələbələr liderlik bacarıqları, qrup idarəetməsi, qərar qəbuletmə və effektiv ünsiyyət sahələrində bilik və bacarıqlar əldə edəcəklər.

"Liderlik məktəbi" layihəsi uzunmüddətlidir və hər həftə keçiriləcək təlimlərlə davam edəcək.

# Aşıq Ələsgərin yaradıcılığına həsr olunmuş ədəbi-bədii tədbir

***Oktyabrın 18-də Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin yaradıcılığına həsr olunmuş ədəbi-bədii tədbir keçirilib. Tədbirdə fakültənin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.***

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov böyük şairin irsinə dövlət qayğısından və sənətkarın ümumxalq təfəkküründən qaynaqlanan ədəbi düşüncəsinin gələcək nəsillərə aşılanmasının vacibliyindən söz açıb. Prezident İlham Əliyevin Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyinin qeyd edilməsi və Bakı şəhərində sənətkarın abidəsinin ucaldılması ilə bağlı imzaladığı sərəncamların, ölkə başçısının iştirakı ilə aşığın abidəsinin açılışının ölkəmizdə böyük ədəbi-mədəni hadisə olduğunu diqqətə çatdırıb.

BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu görkəmli aşığın zəngin ədəbi yaradıcılığından və Azərbaycan aşıq sənətinin inkişafındakı müstəsna xidmətlərindən danışıb, həmçinin böyük sənətkar haqqında xalq arasında yayılmış rəvayətlərlə bağlı ətraflı məlumat verib.

Tədbir tələbələrin çıxışları ilə davam edib. Fakültə üzrə TGT sədri Hümbət Bədəlov şairin ədəbi irsi barəsində məruzə edib, I kurs tələbələri Gülay Abbasova və Sultan Əsədli şairin yaradıcılığından şeirlər səsləndiriblər.

# BDU-da Beynəlxalq Tərcüməçilər Gününə həsr olunmuş dəyirmi masa

***Oktyabrın 1-də Şərqşünaslıq fakültəsinin "Tərcümə" ixtisası üzrə təhsil alan tələbələrinin iştirakı ilə 30 sentyabr - Beynəlxalq Tərcüməçilər Gününə həsr olunmuş dəyirmi masa keçirilib.***



Fakültənin dekan müavini Şahin Yusifli əlamətdar günlə bağlı tələbə və müəllimləri təbrik edib. Bildirib ki, Beynəlxalq Tərcüməçilər Federasiyasının (FİT) qərarı ilə bu bayram 1991-ci ildən etibarən hər il sentyabrın 30-da qeyd edilir. Tərcüməçilik dünya üzrə ən çox tələb olunan peşələrdən biridir.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan peşəkar tərcüməçi olmağın daimi hazırlıq və mütaliə tələb etdiyini vurğulayıb. O qeyd edib ki, tərcüməçilik yalnız dillərarası deyil, həm də mədəniyyətlərarası kommunikasiyanın mühüm bir hissəsidir. Bu baxımdan tərcüməçilərin üzərinə böyük məsuliyyət düşür.

Dekan müavini Tərlan Məlikov, peşəkar tərcüməçi-müəllimlər Heybət Heybətov, Rəşad Babayev, Eldost İbrahimov və Rauf Quluzadə çıxışlarında tərcümənin növləri, sinxron tərcümə tarixi, bədii tərcümənin özəllikləri, tərcüməçinin fəaliyyət prinsipləri, bu zaman qarşıya çıxan çətinliklərdən bəhs ediblər.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU-da elmi seminar: "İqlim dəyişmələri kontekstində Azərbaycanın florasının biocoğrafiyası və biomüxtəlifliyi"

***Oktyabrın 3-də Ekologiya və torpaqşünaslıq fakültəsində Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun Ali bitkilərin ekologiyası və coğrafiyası laboratoriyasının müdiri Elman Yusifovun təqdimatında "İqlim dəyişmələri kontekstində Azərbaycanın florasının biocoğrafiyası və biomüxtəlifliyi" mövzusunda elmi seminar keçirilib.***

Elman Yusifov iqlim dəyişikliyinin tarixi-geoloji tendensiyası barədə məlumat verib, dünyada, o cümlədən Qafqaz geobotaniki hövzəsində flora müxtəlifliyinin inkişaf xüsusiyyətlərini izah edib. Relyef xüsusiyyətinə uyğun olaraq Azərbaycanın bitki örtüyünün xüsusilə şaqulu qanunauyğunluq üzrə yayılması, bu zaman yüksəkliklər üzrə landşaft müxtəlifliyinə əsasən bitki növlərinin endemikliyinin artması, ayrı-ayrı fiziki-coğrafi əyalətlərlə bağlı araşdırmaları təqdim edib. Bildirib ki, respublikamızda yüksəkliyə qalxdıqca endemik bitkilərin növ müxtəlifliyi artır. Ölkə ərazisində olan ekosistemlər antropogen təsirə məruz qalır, nəticədə bir çox növlər təhlükə altına düşür.

Elman Yusifov hazırda ölkədə biomüxtəlifliyin qorunması, botanika sahəsində olan müasir yeniliklər, bitki örtüyünün iqlimin formalaşmasında rolu və qlobal iqlim dəyişikliyinin Azərbaycanın bitki örtüyünün zənginliyinə mənfi təsirləri barədə seminar iştirakçılarını məlumatlandırıb.

Seminarın sonunda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU-da "Birinci Türkoloji Qurultaya dair sənəd axını" mövzusunda elmi seminar

***Oktyabrın 22-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Birinci Türkoloji Qurultaya dair sənəd axını" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının magistrantı Aytən Vətənxah məruzə edib.***

Məruzədə 1926-cı ilin 26 fevral - 6 mart tarixlərində Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultaya dair sənəd axını elmi baxımdan şərh edilib, bu mötəbər tədbirlə bağlı sənədlər xronoloji inkişafda izlənilib. Tədbirin türk xalqlarının ictimai-siyasi, elmi-mədəni həyatında mühüm rol oynadığını bildirən məruzəçi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 80 illik yubileyi haqqında" 9 noyabr 2005-ci il tarixli və "Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında" 18 fevral 2016-cı il tarixli sərəncamlarını diqqətə çatdırıb. O vurğulayıb ki, ölkə başçısı hər iki mühüm sənəddə bu tarixi hadisəyə yüksək qiymət verib, qurultayı türk xalqlarının inteqrasiyanda yeni mərhələnin təməlini qoymuş diqqətəlayiq hadisə adlandırıb. Bu sərəncamlar Birinci Türkoloji Qurultaya dair sənəd axını sistemində mühüm yer tutur.

Məruzədə qurultayda müzakirə edilmiş məsələlər, qəbul edilmiş qərarlar barədə məlumatlar qeyd olunub, tədbirdən keçən 100 ilə yaxın müddətdə bu tarixi hadisəyə həsr olunmuş kitablar, məqalələr, sənədlər xronologiya və tematika baxımından şərh edilib. Araşdırmada Nazif Qəhrəmanlının "Köhnə-yeni əlifba: Azərbaycan əlifbasında dəyişmələr", Cəmilə Qacarlının "Birinci Türkoloji Qurultayda dil məsələləri", Cəlal Qasımovun "Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər", Adil Babayevin "Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya", "Türksoyun birlik səsi" kitabları və digər mühüm mənbələr təhlil edilib, arxiv materiallarına, tarixi sənədlərə müraciət olunub. Məruzədə həmçinin ölkə kitabxanalarının fondunda mövzuya dair ədəbiyyatın statistikasının xronoloji dinamikası təqdim edilib.

# Geologiya fakültəsi və "Azerbaijan International Mining Company Limited" Şirkəti birgə elmi seminar keçirib

***Oktyabrın 2-də Geologiya fakültəsinin təşkilatçılığı ilə "Azerbaijan International Mining Company Limited" Şirkətinin Gədəbəy rayonundakı qızıl filizi mədənlərində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Dağ-mədənçilik sahəsində yataqların istismarı prosesində ətraf mühitə ekoloji problemlərin təsirinin qiymətləndirilməsi" mövzusunda birgə elmi seminar keçirilib.***

Seminarda şirkətin geoloji kəşfiyyat işləri üzrə direktoru Anar Vəliyev istismar olunan yataqlar, aparılan geoloji kəşfiyyat işləri və yeni kəşf olunmuş "Gilar" qızıl-polimetal yatağı haqqında məlumat verib. O, dağ-mədənçilik sənayesində ətraf mühitin çirklənməsinin minimuma endirilməsinin şirkətin əsas prioritetlərindən olduğunu vurğulayıb.

Anar Vəliyev bildirib ki, ölkəmizdə qara, nəcib və əlvan metallurgiya sənayesinin inkişafı üçün kifayət qədər mineral xammal resursları var. Şirkətin kontrakt sahələrindəki filiz ehtiyatları dağ-mədən sənayesinin inkişafı üçün uzun illər kifayət edə bilər. Yeni yataqların kəşf olunması və müasir istehsal texnologiyalarının tətbiqi ətraf mühitə mənfi təsirləri azaldır. Mədənlərdə tullantıların toplanması üçün poliqonlar yaradılır, çirkli suların sızmasının qarşısını almaq üçün toplama gölməcələri inşa edilir.

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov mədənçilik sənayesində ətraf mühitə yan təsirlərin qiymətləndirilməsi, istismar prosesləri və mədənlərin bağlanması zamanı torpaqların bərpası ilə bağlı fikirlərini bölüşüb. O, mədən işlərinə başlamazdan əvvəl ətraf mühitə təsirin qiymətləndirilməsinin vacibliyini qeyd edib.

Vurğulayıb ki, işçilərin və cəmiyyətin sağlamlığı və təhlükəsizliyi əsas amil olmalıdır. Su ehtiyatlarının idarə olunması, sianid məhlullarının və emal tullantılarının ətraf mühitə atılmasının qarşısını almaq da önəmlidir.

Mamoy Mansurov bildirib ki, filizlərin çıxarılmasından sonra mədənlər bağlanmalı və ilkin məhsuldar torpaq qatı bərpa edilməlidir. Torpaq və bitki örtüyünün bərpası mədən planlaşdırılmasının və ekoloji qiymətləndirmənin tərkib hissəsidir.

Seminarda professorlar Nazim İmamverdiyev, Şəhla Abdullayeva, əməliyyat işləri üzrə menecer Mehman Talıbov, layihə geologiyası meneceri Rəşad Əsgərov, SƏTƏM üzrə mütəxəssis Rasif Məmmədov mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Yekunda iştirakçıların sualları cavanlandırılıb, mədənlərə və filiz emalı zavodlarına baxış keçirilib.

# BDU-da "Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda Parlament Modeli Simulyasiyası

***Oktyabrın 3-də Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatı "Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda Parlament Modeli Simulyasiyası keçirib.***



Simulyasiya zamanı tələbələr fərqli siyasi mövzularda müzakirələr aparmaqla Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağın yollarını və bu məqsədlərdən hansıların daha aktual olduğunu təhlil ediblər. Həmçinin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində ölkəmizdə yaranmış yeni reallıqlar və mina təhlükəsinin birgə səylər nəticəsində aradan qaldırılması yolları ilə bağlı təkliflər səsləndirilib. Nəticədə parlament tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərini əhatə edən qanun layihəsi qəbul edilib.

Daha sonra "Lin-orph" musiqi klubunun ifası ilə bağlanış mərasimi keçirilib.

Qeyd edək ki, Parlament Modeli Simulyasiyası qeyri-formal təhsil vasitəsi olmaqla tələbələr arasında parlamentin fəaliyyət mexanizmi, fəlsəfəsi haqqında biliklərin artırılmasına, onların analitik düşüncə və debat qabiliyyətinin inkişafına yönəlib.

# BDU-da qlobal iqlim dəyişikliyinə həsr olunmuş elmi seminar keçirilib

*“BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi beynəlxalq aləmdə Azərbaycana olan dərin etimad və hörmətin sübutudur”*

***Oktyabrın 28-də BDU-nun Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində qlobal iqlim dəyişikliyinə həsr olunmuş elmi seminar keçirilib.***

Seminarda Ekologiya və torpaqşünaslıq, Fizika, Kimya, Biologiya, Jurnalistika, Coğrafiya, Filologiya, Mexanika və riyaziyyat, Sosial elmlər və psixologiya, İnformasiya və sənəd menecmenti, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Tarix və Şərqşünaslıq fakültələrinin tələbələri iştirak ediblər.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi beynəlxalq aləmdə Azərbaycana olan dərin etimad və hörmətin sübutudur. Bu, ölkənin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş statusunu təsdiqləyir.

“Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi” İctimai Birliyinin sədr müavini Pərvanə Xıdırova COP29 çərçivəsində Azərbaycanın quraq rayonlarında su probleminin həlli üçün həyata keçirdikləri layihələr barədə videoçarxları auditoriyanın diqqətinə çatdırıb.

Ümumdünya Təbiəti Mühafizə Təşkilatının (WWF) Azərbaycan nümayəndəliyinin COP29 üzrə koordinasiya koordinatoru Elçin Sərdarov “Qlobal iqlim dəyişmələri” mövzusunda məruzəsində iqlim dəyişmələrinin səbəbləri, törətdiyi fəsadlar, dayanıqlı inkişaf məqsədləri, təmiz ətraf mühit və ekoloji jurnalistikanın rolundan bəhs edib.

“WWF Azərbaycan”ın iqlim dəyişmələri üzrə eksperti Elana Əlizadə "İqlim dəyişmələrinin ekoloji aspektləri və adaptasiya" mövzusunda çıxışında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tələbləri, mitiqasiya və adaptasiya haqqında məlumat verib.

BDU-nun Tələbə Elmi Cəmiyyətinin Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə sədri Günel Hacəliyeva isə gənclərin iqlim dəyişikliyinin qarşısının alınması və ətraf mühitin qorunmasında roluna dair iştirakçıları məlumatlandırıb. Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU-da təlim: "Süd vəzi xərçənginin genetikası"

***Oktyabrın 29-da Biologiya fakültəsi və Fetal Mərkəz NS Genetik Klinikasının birgə təşkilatçılığı ilə "Süd vəzi xərçəngi ilə mübarizə ayı" çərçivəsində "Süd vəzi xərçənginin genetikası" mövzusunda təlim keçirilib.***

Tədbirdə fakültənin professor-müəllim heyəti və “Biologiya” ixtisası üzrə təhsil alan tələbələr iştirak edib.

Fetal Mərkəz NS Genetik Klinikasının Sitogenetika şöbəsinin rəhbəri, həkim-sitogenetik Vüsalə Əliyeva süd vəzi xərçənginin genetik əsasları, xəstəliyin irsi səbəbləri, xərçəngə meyilli genlərin aşkarlanması barədə ətraflı məlumat verib, diaqnostikada sitogenetik metodların əhəmiyyətini vurğulayıb. Məruzəçi süd vəzi xərçəngi xəstəliklərindən nümunələri təhlil etməklə, yaranmış vəziyyətlərdə genlərin müəyyən edilməsi, xəstəliklə mübarizə yollarını nəzərə çatdırıb.

Vüsalə Əliyeva genetik tədqiqatların erkən diaqnostika və müalicədə mühüm rol oynadığını bildirib, tələbələrlə bu sahə üzrə tədqiqat imkanlarını müzakirə edib.

Sonda tələbələrin sualları cavablandırılıb.

# “QS Quacquarelli Symonds” BDU-da ali təhsil müəssisələrinin əməkdaşları üçün təlim təşkil edib

***Oktyabrın 29-da Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri hesab olunan “QS Quacquarelli Symonds” agentliyi BDU-nun ev sahibliyi ilə Azərbaycanın bir sıra ali təhsil müəssisələrinin əməkdaşları üçün təlim təşkil edib.***



Təlimdə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Tibb Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşları iştirak ediblər.

Təlimdə beynəlxalq reytinq təşkilatının nümayəndəsi Juan Carlos Mejia Cuartas “QS Stars” reytinq qiymətləndirilməsi, eləcə də QS-in reputasiya sorğularının analitik məlumat bazası olan “QS Analytics” platforması haqqında ətraflı məlumat verib. Təlimin sonunda ali təhsil müəssisələrinin əməkdaşlarını maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, bundan öncə BDU ilə QS arasında “QS Stars” reytinq qiymətləndirilməsi, eləcə də QS-in reputasiya sorğularının analitik məlumat bazasına çıxış əldə etmək məqsədilə əməkdaşlıq müqaviləsi imzalanıb.

# BDU tələbəsi SOCAR-ın “Gənc İstedadlar Proqramı”nın qalibi olub




***Geologiya fakültəsinin IV kurs tələbəsi Fidan Əliyeva Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən keçirilən “Gənc İstedadlar Proqramı”nın qalibi olub.***

2022/2023-cü tədris ilindən başlayaraq ali təhsil müəssisələrinin III və IV kurslarında, həmçinin magistratura pilləsi üzrə təhsil alan gənclərə təqaüd verilməsi, onların inkişafının təmin olunması və yüksək potensiallı gənclərin SOCAR-da işlə təmin edilməsi üçün keçirilən proqramın əsas məqsədi istedadlı gənclərin potensialının aşkar edilməsi, onların əmək bazarına inteqrasiyasının sürətləndirilməsidir.

Proqramın təcrübə müddətini və yekun seçim mərhələsini uğurla keçən namizədlərə sonda iş təklifi olunur.

# BDU komandası “Zəfər kuboku” intellektual yarışının qalibi olub

***Oktyabrın 29-da BDU-nun Tələbə Gənclər Təşkilatının üzvlərindən ibarət “CoupDeGrace” komandası Bakı Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Yasamal rayonu ərazisində fəaliyyət göstərən ali və orta ixtisas təhsil müəssisələri arasında 8 noyabr - Zəfər Gününə həsr olunan “Zəfər kuboku” adlı intellektual oyunun qalibi olub.***

Azərbaycan Texniki Universitetində təşkil edilən və 12 komandanın iştirak etdiyi intellektual oyunun nəticələrinə əsasən, BDU komandası I, Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandası II, Azərbaycan Texniki Universitetinin komandası isə III yerə layiq görülüb.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində "İqlim həftəsi"



***Oktyabrın 29-da Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Gənclərin Maarifləndirilməsinə Dəstək İctimai Birliyi və "BDU könüllüləri" təşkilatının təşkilatçılığı ilə BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "İqlim həftəsi" layihəsi həyata keçirilir.***

Layihənin məqsədi şagirdlərin ekoloji maarifləndirilməsi, onlarda ətraf mühitin qorunması ilə bağlı bilik və bacarıqlar, davranış vərdişləri formalaşdırmaqdır.

“İqlim həftəsi” layihəsi çərçivəsində “İqlim dəyişikliyi və COP29”, “İqlim dəyişikliyinin Azərbaycanın biomüxtəlifliyinə təsirləri”, “Torpaq və onun müxtəlifliyi”, “Meşələr və ətraf mühit” mövzularında müzakirələr aparılacaq.

“İqlim həftəsi” layihəsi noyabrın 4-dək davam edəcək.

## BDU tələbələrinin ifasında “Yarımçıq qalmış...” tamaşası nümayiş olunub

***Oktyabrın 1-də Mədəniyyət-yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə Universitet tələbələrinin ifasında “Yarımçıq qalmış...” tamaşası nümayiş olunub.***



Vahid Orucoğlunun quruluşçu rejissorluğu ilə hazırlanan tamaşada Universitetin müxtəlif fakültələrinin istedadlı tələbələri şəhid olmuş qəhrəman oğullarımızın, onların ailə üzvlərinin obrazlarını məharətlə yaradıblar. Əsərin müəllifi Yefim Abramov, şeirlərin müəllifi Leyla Bəyimdir.

Səhnə əsərində rolları Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının aktyoru Vahid Orucoğlu, tələbələr Eltac Abbasov, Hüseyn Cabbarlı, Nərmin Zeynalova, Ramazan Ramazanlı, Tural Behbudov, Fidan Sultan, Mədinə Hüseynzadə, Nuran Atakişiyev ifa ediblər.

## BDU-da Tələbələrarası Zəfər Kubokunun seçim mərhələsi keçirilib

***Oktyabrın 7-də BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) nəzdində fəaliyyət göstərən “İntellektual Oyunlar Klubu”nun təşkilatçılığı ilə BDU-da Tələbələrarası Zəfər Kubokunun seçim mərhələsi keçirilib.***

22 komandanın mübarizə apardığı turnirdə 130-dan çox tələbə iştirak edib. BDU-nun TGT sədri Harun Mehdiyev yarışın keçirilməsində əsas məqsədin tələbələr arasında vətənpərvərliyin təbliğ edilməsi, intellektual oyunlar vasitəsilə gənclərin bilik və bacarıqlarının artırılması, asudə vaxtlarının səmərəli təşkil edilməsi olduğunu bildirib.

“Nə? Harada? Nə zaman?” formatında keçirilən turnirdə “Evrika” komandası I, “Difai” II və “Aurelion Sol” komandası isə III yeri tutub.

I və II yerin qalibləri finala vəsiqə qazanıb.

## BDU-nun THİK üzvləri Universitetin Heydər Əliyev muzeyində

***Oktyabrın 8-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Kimya fakültəsi üzrə fəal üzvləri BDU-nun Heydər Əliyev Muzeyini ziyarət ediblər. Muzeyin mütəxəssisi Afət Seyidbəyova muzey haqqında tələbələrə məlumat verib.***



Qeyd olunub ki, BDU-nun Heydər Əliyev muzeyi 1997-ci ildə Ulu öndərin şəxsi razılığı ilə yaradılıb və fəaliyyətə başlayıb. Muzeydə BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru olan böyük şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən sənədlər nümayiş olunur.

Ümummilli Lider Heydər Əliyevin gərgin fəaliyyəti ilə yanaşı, ömrünün ən incə məqamlarından bəhs edən sənədlər və fotoşəkillər tələbələrdə böyük təəssürat yaradıb.

## BDU Dünya Akademik Sammitində öz stendi ilə təmsil olunub

***BDU-nun rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti İngiltərənin Mançester şəhərində yerləşən Mançester Universitetində nüfuzlu “Times Higher Education” (THE) reytinq təşkilatının təşkil etdiyi Dünya Akademik Sammitində (World Academic Summit) iştirak edir. Adıçəkilən Sammitdə BDU öz stendi ilə təmsil olunub.***




400-dən çox ali təhsil müəssisəsinin təmsil olunduğu tədbirdə iştirakın məqsədi dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, BDU-nun beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsi üçün onların təcrübəsinin öyrənilməsi, yeni birgə layihələrin müzakirəsi, elmi tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində təcrübə mübadiləsinin aparılmasıdır.

## BDU tələbələri üçün Təbiət Tarixi Muzeyində interaktiv dərs

***Oktyabrın 1-də Ekologiya və torpaqşünaslıq fakültəsinin “Ekologiya” ixtisası üzrə IV kurs tələbələrinə tədris edilən "Biomüxtəlifliyin qorunması" fənninin mühazirə və məşğələ dərsləri Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyində interaktiv tədris metodları ilə keçirilib.***

Dərsin əsas məqsədi tələbələrə biomüxtəlifliyin məhv olması nəticəsində yaranmış fəsadları əyani şəkildə göstərməkdir.

Tələbələr Azərbaycanın paleozooloji və paleobotaniki abidələri ilə yaxından tanış olublar. Pirəkəşkül və Binəqədi kəndləri yaxınlığında tapılan dişli balina, dişsiz sarmat balinası, kərgədan, hepard, Binəqədi sayğası, Binəqədi canavarı, Binəqədi qonur ayısı, Binəqədi maralı, Vinoqradov tirəndazı, mağara kaftarı, ibtidai öküz, bitki qalıqları və digər canlıların fosil və skeletləri haqqında ətraflı məlumatlar əldə ediblər.

Paleozooloji tədqiqatlar əsasında tapılan fauna nümunələri Abşeron yarımadasının şimal-qərb hissəsində yerləşən Pirəkəşkül üçüncü dövr faunasına (30 mln. ilə qədər), Abşeron yarımadasının mərkəzində yerləşən Binəqədi dördüncü dövr fauna və florası ərazisinə (180 min il), “Ellər oyuğu” ərazisində yerləşən Yuxarı Sarmat dövrünün Eldar faunasına (9-12 mln. il) aid olub.

Tələbələrə Azərbaycanın “Qırmızı Kitabı”nın III nəşrinə daxil edilən nəsli kəsilməkdə və təhlükə altında olan növlər haqqında da məlumat verilib. Bildirilib ki, “Qırmızı Kitab”ın III nəşrinə nəsli kəsilməkdə və təhlükə altında olan 241 növ heyvan daxil edilib. Onlardan 3-ü molyusklara, 84-ü buğumayaqlılara, 11-i balıqlara, 6-sı suda-quruda yaşayanlara, 18-i sürünənlərə, 78-i quşlara, 39-u məməlilərə aiddir.

## BDU-da 2024-cü il üçün doktoranturaya qəbulun nəticələri açıqlanıb

***Oktyabrın 4-də Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 163s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları” əsasında Elm və Təhsil Nazirliyi tərəfindən BDU-ya 2024-cü ildə fəlsəfə doktoru proqramı üzrə doktoranturaya 134 (53 əyani və 81 qiyabi olmaqla), dissertanturaya isə 39 yer ayrılıb.***

Elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul üçün 21 (2 əyani və 19 qiyabi olmaqla), dissertanturaya isə 12 yer ayrılıb.

Doktoranturaya qəbul imtahanlarının nəticələrinə əsasən, BDU-nun doktoranturasına fəlsəfə doktoru proqramı ilə 85 (41 əyani və 44 qiyabi), dissertantlıq yolu ilə 4 nəfər, elmlər doktoru proqramı üzrə 11 (1 əyani, 10 qiyabi), dissertantlıq yolu ilə 4 iddiaçı qəbul olunub.

## BDU-nun 4 tələbəsi Prezident təqaüdünə layiq görülüb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024/2025-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən, 2024/2025-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə Prezident təqaüdü veriləcək.

Prezident təqaüdünə layiq görülən gənclərdən 4-ü Bakı Dövlət Universitetinin tələbəsidir.

*Onların siyahısını təqdim edirik:*

Gülməliyeva Sevil Rövşən qızı
Səlimova Aysel Ehtiram qızı
Babaəyli Semral Aprel oğlu
Hüseynov Nurlan Fizuli oğlu

Yüksək etimada layiq görülən BDU tələbələrini təbrik edir, onlara uğurlar arzulayırıq!

# BDU-nun Prezident təqaüdçüləri: “Məqsədimiz Vətənimizə layiq hüquqşünas olmaqdır”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024/2025-ci tədris ilində ali məktəblərə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, 2024/2025-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbə Prezident təqaüdünə layiq görülüb. Onlardan 4-ü BDU-nun tələbəsidir.***

*Yüksək etimada layiq görülən tələbələrimiz öz təəssüratlarını bölüşüblər:*




***Hüquq fakültəsinin I kurs tələbəsi Sevil Gülməliyeva:***

BDU-nun Hüquq fakültəsinin ingilis bölməsinə 684,1 balla qəbul olmuşam. Məhz bu yüksək göstəriciyə görə Prezident təqaüdünə layiq görülmüş tələbələrdən biriyəm. Prezident təqaüdü tələbələrə daha çox oxumaq və peşəkar kadr olmaq üçün stimul verir. Hər ixtisas qrupu üzrə seçilmiş 25 nəfərin arasında olmaq isə qürurvericidir. Zəhmətimin qarşılığını ala bildiyim üçün çox sevindim. Prezident təqaüdü mənim üçün daha böyük məsuliyyət yaradır və təhsil yolumda yeni zirvələrə çatmaq üçün ilham verir. Hədəflərim arasında yalnız şəxsi karyera qurmaq deyil, eyni zamanda ölkəmizə əhəmiyyətli töhfələr vermək dayanır. Bu, mənimlə yanaşı, valideynlərimin və müəllimlərimin də uğurudur. Çalışacağam ki, ali təhsil müddəti boyunca Prezident təqaüdünü qoruyub saxlayım. Qəbul imtahanına hazırlaşan abituriyentlərə demək istərdim ki, nə olursa olsun, heç vaxt xəyal və arzularından əl çəkməsinlər. Uğurun formulu çox sadədir: zəhmət, inam və səbr.

***Hüquq fakültəsinin I kurs tələbəsi Semral Bababəyli:***

Mənim devizim hər zaman "məqsədin uğrunda mübarizə aparmalısan" olub. Bu amal uğrunda DİM-in keçirdiyi buraxılış və blok imtahanlarında 683,2 bal toplayaraq, BDU-nun Hüquq fakültəsinə daxil olmuşam. Prezident təqaüdünə layiq görülmək tələbələrin öz zəhmətlərinin qarşılığını ala bilmələri baxımından çox önəmlidir. Bu, tələbələrə maddi cəhətdən də böyük dəstəkdir. Lakin Prezident təqaüdünün mənəvi anlamı daha çoxdur. Dövlət başçımızın, ailəmin və müəllimlərimin göstərdiyi dəstəyi unutmaram. Ölkəmizin ən nüfuzlu universitetinin ən nüfuzlu fakültəsində təhsil alan Prezident təqaüdçüsü olduğum üçün çox xoşbəxtəm. Məqsədim Vətənimizə layiqli hüquqşünas olmaqdır.

***Hüquq fakültəsinin I kurs tələbəsi Nurlan Hüseynov:***

Prezident təqaüdünə layiq görülmək mənim üçün çox qürurvericidir. Bu, həyatımda dərin iz buraxan bir dönüş nöqtəsidir. Çəkdiyim əziyyətlərin qiymətləndirilməsi gələcək hədəflərimə çatmaq üçün əzmkarlığımı artırır. Bu təqaüd akademik fəaliyyətimlə yanaşı, şəxsi inkişafıma da kömək edəcək. Valideynlərim və müəllimlərimin göstərdiyi dəstək, inam olmasaydı, bu uğuru qazanmaq mümkün olmazdı. Gələcəkdə daha böyük layihələrə qatılmaq, yeni tədqiqatlar aparmaq və öz sahəmdə mütəxəssis kimi tanınmaq ən böyük arzularımdan biridir.

***Hüquq fakültəsinin I kurs tələbəsi Aysel Səlimova:***

Prezident təqaüdünə layiq görüldüyüm üçün böyük sevinc hissi keçirirəm. Bu uğur yalnız mənim üçün deyil, hər zaman dəstək olan valideynlərimvə müəllimlərim üçün qürur mənbəyidir. Onlara dərin təşəkkürümü bildirirəm. Onların inamı və dəstəyi olmasaydı, bu nailiyyətə çatmaq mümkün olmazdı. Bu mükafat mənə dərslərimə daha diqqətlə və həvəslə yanaşmağıma ilham verəcək. Hər gün daha çox çalışaraq, bu təqaüdün dəyərini sübut etməyə çalışacağam. Prezident təqaüdü gələcək uğurlarım üçün böyük motivasiya olacaq. Mükəmməl hüquqşünas olmaq və ölkəmə xidmət etmək arzusundayam. BDU-nun Prezident təqaüdünə layiq görülmüş digər tələbələrini də təbrik edir, uğurlarımızın davamlı olmasını arzulayıram.

# BDU-nun 51 yaşlı tələbəsi: “Heç vaxt heç nə üçün gec deyil, dərslər o qədər maraqlı gəlir ki...”

***O, BDU-nun ən yaşlı tələbəsidir. Əzmi ilə heyrət doğuran Anaxanım Dadaşeva qadın üçün çətin sayılan bir peşəyə sahib olmaqdan ötrü 51 yaşında böyük həvəslə ali təhsil alır. “Oxumaq heç vaxt gec deyil” ifadəsi sanki müsahibimizin boyuna biçilib.***

Anaxanım Dadaşeva BDU-nun Geologiya fakültəsinin “Mədən mühəndisliyi” ixtisasının I kurs tələbəsidir.

Gəlin onu daha yaxından tanıyaq...




***- Bizə özünüz barəsində ətraflı məlumat verə bilərsinizmi?***

- Gənc yaşında ailə qurduğum üçün ali təhsil ala bilməmişdim. Həyat yoldaşımı itirdikdən sonra övladlarıma baxdım, bütün vaxtımı onlara ayırdım, ona görə təhsil həyatımı davam etdirə bilmədim. Sonradan özümdə güc tapdım, ayağa durdum və təhsilimin arxasınca getmək qərarına gəldim. Öncə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kollecinə “Neft və qaz yataqlarının istismarı” ixtisası üzrə daxil oldum. Bu yaşdan sonra ali təhsil arxasınca getməyi isə ümumiyyətlə düşünmürdüm. Qızım universiteti bitirib ailə həyatı qurduqdan və oğlum iş sahibi olduqdan sonra fikirləşdim ki, bəlkə mən təhsilimi davam etdirim. 2019-cu ildən subbakalavrların universitetlərə imtahansız qəbulu ilə bağlı qərarın verilməsi isə mənim üçün stimul oldu. Seçmək istədiyim ixtisasın qiyabi şöbəsinin ləğv edilməsi bir az tərəddüd yaratdı, amma ətrafımdakı insanlar bu seçimin yaxşı olduğuna inandırdılar, davam etməyim üçün təşviq elədilər. Gördüyünüz kimi, artıq burdayam...

***- Bəs bu ixtisası seçməyinizin səbəbi varmı?***

-BDU-ya qəbul olunmamışdan qabaq mən tibb kursuna da getmişəm. Həmişə çalışmışam ki, öz üzərimdə işləyim. Hansısa işlə məşğul olanda çalışıram onu dərindən öyrənim. Bu sahəyə marağı isə məndə həyat yoldaşımın babası oyadıb. O, neftçi idi və bu barədə hər zaman ətraflı danışardı. Elə buna görə məndə maraq yaranmışdı. Amma heç düşünməzdim ki, nə vaxtsa mən də neftçi ola bilərəm, bu sahə üzrə təhsil alaram.

***- Ali təhsilinizi tamamladıqdan sonra həmin sahə üzrə işləyəcəksinizmi? Sizcə, istədiyiniz sahə üzrə iş tapmaq asan olacaqmı?***

- Əlbəttə, bu sahəyə marağım böyükdü. Azərbaycan neft ölkəsidir və bu resurslar üzrə bizdə çox güclü inkişaf gedir. Onun üçün də ixtisasım üzrə iş tapacağıma əminəm. Mən həmişə optimist fikirləşirəm, gələcəyi, hər şeyi yaxşı görürəm. Pessimist fikirlərə çox da qapılan insan deyiləm. Həmişə çətinliklərdən çıxmaq üçün özümdə güc tapıram.

***- Çox güclü xarakteriniz var. Maraqlıdır, BDU-ya qəbul xəbərini aldıqda hansı hissləri keçirdiniz?***

- Kollecə daxil olanda daha gənc olduğum üçün ən böyük sevinci həmin zaman yaşamışdım. Övladlarımın ali məktəblərə qəbul xəbərlərində də o sevinci yaşadığım üçün bu xəbəri bir qədər adi qarşıladım. Amma yenə də mənim üçün xoş bir xəbər idi.

***- Universitet mühiti sizə hansı təsiri bağışladı?***

- Qrupumuzda tələbələrin əksəriyyəti kollecdən gəldiyi üçün yaş problemi yoxdur, bu mühit bizim üçün o qədər də yad deyil. Həm də əvvəl geologiya mənə çox çətin gəlirdi. Quyunu qazmaq asan görünsə də, o süxurları öyrənmək mürəkkəb idi. Amma müəllimlərimiz o qədər maraqlı izah edirlər ki...Artıq çox şey öyrənməyə başlamışam.

***- Sizdən sonra belə bir addım atıb, ali təhsil almaq istəyənlərə nə demək istəyərdiniz?***

- Heç vaxt heç nə üçün gec deyil. Məhəmməd peyğəmbər deyib ki, “Beşikdən məzara qədər elm, bilik öyrənin”. Mənim üçün dərslər o qədər maraqlı gəlir ki.. On beş ilə yaxındır kolleci bitirmişəm. Yenidən bu mühitdə olmaq çox fərqlidir. Öyrənmək hər zaman lazımdır.

*Hazırladı:*
*Nurlan Cəbrayılzadə*

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.10.2024

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08